**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu**

**ALLAHVERDİ ƏLİMİRZƏYEV**

# QƏDİM AZƏRBAYCAN:

## *DİN-CƏMİYYƏT MÜNASİBƏTLƏRİ TARİXİNƏ DAİR OÇERKLƏR*

**BAKI – 2025**

**AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun Elmi Şurasının 28 yanvar 2025-ci il tarixli iclasının 01 saylı qərarı ilə çap olunur**

**Elmi redaktor:** **Rauf Məlikov**
tarix üzrə fəlsəfə doktoru

**Rəyçilər:** **Ramin Ağayev**
tarix elmləri doktoru, dosent,

**Nizami Zeynalov,**
tarix üzrə fəlsəfə doktoru, dosent,

**Şahlar Şərifov**
ilahiyyat üzrə fəlsəfə doktoru, dosent

**Allahverdi Əlimirzəyev.** Qədim Azərbaycan: *Din-cəmiyyət münasibətləri tarixinə dair oçerklər.* Bakı, "Nəşriyyat" şöbəsi, 2025, 144 s.

Monoqrafiya xalqımızın formalaşmasında tarixi missiyası olan etnik qrupların dini təsəvvürləri haqqındakı narrativ mənbələrin məlumatları əsasında yazılmışdır. Bu dini təsəvvürlər genetik baxımdan doğma - yad etnik qrupların yaratdığı tayfa birliklərinin və ilk dövlətlərin ideoloji bazasını təşkil edir. Əsərdə Azərbaycanda erkən hərbi demokratiya dövrünün çoxallahlı cəmiyyətləri üçün səciyyəvi təsəvvürlər şərh olunur, mərkəzləşmiş dövlətlərimizin təkallahlı hakim ideologiyasına aparan tarixi proseslər nəzərdən keçirilir.

Kitabdan din tarixi ilə maraqlananlar faydalana bilərlər.

©AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu, 2025

# ÖN SÖZ

*Aramızdan vaxtsız getmiş*
*görkəmli tarixçimiz*
*Mirheydər Mirzəyevin əziz xatirəsinə*

Şüurlu insan (Homo sapiens) onu əhatə edən təbiətə hakim olandan 40 min ildir ki, düşüncəsində yaratdığı və sitayiş obyektinə çevirdiyi varlıqların obrazı ilə yaşayıb. Fantaziyasının səviyyəsindən asılı olaraq insan bu varlıqları şəkilləndirərkən bəzilərini gördüklərinə bənzətmiş, bəzilərinə də təbiətdə görə bilmədiyi qeyri-adi görkəm vermişdir. Tanrılar coğrafi landşaftın elementlərini (səma, yer, dağlar, dərələr, su hövzələri və s.), iqlim komponentlərini (külək, yağış, quraqlıq və s.) canlılar aləmini (heyvanları və bitkiləri), hətta reallıqda təsəvvürə sığmayan yeraltı dünyanı simvolizə edirdilər. Yalnız Neolit dövrünün sonlarında əkinçi-maldar icmalarda əmlak bərabərsizliyinin qabarıq üzə çıxması fonunda sosial təbəqələşmənin yaranması və maddi nemətlər istehsalında izafi məhsulun əldə olunması ilə əlaqədar dini təsəvvürlər sistemli şəkil almağa başladı.

Oturaq həyata keçidlə həmyaşıd olan və paralel təşəkkül tapan dini inanclar Qədim Şərq coğrafiyasının müxtəlif bölgələrində demək olar ki, bənzər proseslərdən keçmişdir. Azərbaycandakı ibtidai inancların mahiyyətini dərk etmək üçün qədim Mesopotamiyadakı dini inanclar sisteminin keçdiyi tarixi yola nəzər salmağa ehtiyac var, çünki Azərbaycanda məskunlaşan etnik qruplar daha çox Mesopotamiyanın sakinləri ilə qarşılıqlı əlaqələrdə olmuşlar.

İnancların sistem hal aldığı dinlərdə, Mesopotamiyada olduğu kimi, tanrılar əsas (yaradıcı) və yardımçı (ikinci dərəcəli) kimi kateqoriyalara bölünmüşdü. Birinci qrupun tanrıları "ümumxalq" statusuna malik olduqlarından etnosun bütün tayfa və icmalarında sitayiş obyekti olmuşlar. Mesopotamiyanın

ibtidai və ilk sinifli cəmiyyətlərində insanlarda tanrılara qurbanlar ithaf etməklə onların rəğbətini qazanacaqlarına və güzəranlarının yaxşılaşacağına inam var idi. E.ə. IV minilliyin ikinci yarısında tanrıların "qaydına qalınması" vasitələrinə daha biri – onlar üçün evlərin (məbədlərin) tikilməsi geniş vüsət almağa başlayır. İlk vaxtlarda məbədlər geniş infrastruktura, onun rəhbəri isə qeyri-məhdud səlahiyyətlərə malik olmuşlar. Məbədin mülkiyyətində min hektarlarla ölçülən torpaq fondu, on minilərlə ev heyvanı var idi; orada sayı yüzlərlə ölçülən administrativ personal (dini ayinləri icra edən kahinlər, mühafizə dəstəsi, təsərrüfat işlərinə nəzarət edən məmurlar, mirzələr və s.) və işçi heyəti (daimi və mövsümi işlərdə çalışan sənətkarlar, əkinçilər, çobanlar və s.) çalışırdı. Məbəd hətta icarəyə verdiyi torpağı şumlamaq və gələcəkdə oradan məhsul əldə etmək üçün işçilərini qoşqu heyvanı, əmək aləti, səplik toxumla da təmin edirdi. İcarə torpaqlarından əldə olunan gəlirin 1/3 hissəsi məbədin mədaxil fonduna daxil olur və həmin fonddan fərqli məqsədlər üçün (dini bayramlarda edilən qurbanlar, rəsmi ziyafətlər, daimi işçilərə əmək haqqı ödənişləri və s.) sərf olunurdu. Erkən cəmiyyətlər üçün çoxallahlıq (politeizm) səciyyəvi idi; hər bir icmanın özünün qoruyucu (himayədar) tanrısı var idi, bununla yanaşı "ümumxalq" statusu qazanmış tanrılara sitayiş qalmaqda davam edirdi. Qoruyucu tanrıların məbədləri icmanın daxili imkanları hesabına inşa edildiyi halda, "ümumxalq" tanrılarının məbədləri bütün icmaların kooperasiyası (iş birliyi) şəraitində ucaldılırdı. Təsadüfi deyil ki, Şumerin Nippur şəhərindəki Ekur məbədi (hərfən "Dağ evi") ümumşumer tanrısı külək allahı Enlilin evi olduğundan ən qüdrətli liderlər yalnız onun baş kahininin xeyir-duasından sonra bütün Şumerin legitim ali hökmdarı titulunu qazanırdılar. Ölkə (və ya icma, şəhər-dövlət) müharibə şəraitində olanda onun kollegial orqanı (icma ağsaqqallarının və ordu komandanlarının məclisi) məbədin baş kahininə əlavə hərbi səlahiyyətlər verərək onu ali baş komandan elan edirdi. Əgər əvvəllər icmanın rəhbəri

və baş kahininin ismi qarşısında onun titulu (**en**) göstərilirdisə (məsələn, En-Meduranki, En-Sibzianna, En-Mebaraqesi, En-Heqal, En-Şakuşanna, En-Etarzi, En-Temena və s.), ilk mərkəzləşmiş dövlət (Akkad imperiyası) yaranandan, yəni dövlət və məbəd təsisatları müstəqil fəaliyyətə başladıqdan sonra **en** titulu hökmdar isimlərindən yığışdırılır.

Mərkəzləşmiş dövlətlərin meydana gəlməsi, administrativ idarəçilik strukturlarının və bürokratik təsisatların güclənməsi ilə əlaqədar Qədim Şərq cəmiyyətlərində dövlət təsərrüfat tipi güclənir, məbədin ictimai nüfuzu zəifləyirdi. Mahiyyətcə yeni sosial münasibətlər sisteminin formalaşması nəticəsində əmək resurslarının əhəmiyyətli hissəsi məbədin təsərrüfat sahələrindən dövlət təsərrüfatına yönəldilirdi. Məbədin əmək resurslarından fərqli olaraq, dövlətə çalışanlar göstərdiyi qulluğun müqabilində aldıqları daşınmaz əmlakı (ilk növbədə torpağı) irsi yolla övladlarına ötürə bilərdi və bu yolla cəmiyyətdə fərdi mülkiyyətin xüsusi çəkisi artırdı. İctimai həyatın bütün sahələrində olduğu kimi, tanrılar panteonunda, uzun fasilələrlə də olsa, islahatlar aparılırdı. İslahatlar nəticəsində əvvəllər ikinci dərəcəli olan tanrının birinci mövqeyə çıxması, bir neçə funksiyanın bir tanrıda cəmlənməsi ilə panteondakı tanrıların sayı azalırdı. Məsələn, Hammurapinin zamanında (e.ə. 1792-1750) Babilistanda aparılan islahatdan sonra Marduk əvvəlki dörd yaradıcı tanrının (Enlil, Enki, Ninhursaq, Ninurta) funksiyalarını əlində cəmləşdirmiş, ölkənin və sakinlərinin taleyini təyin edən lider tanrıya çevrilmişdir. Marduk birincilik mövqeyini Ellinizmin əvvəllərinə qədər (e.ə. 330) qoruyub saxlamışdır.

Cəmiyyətin ictimai həyatında nüfuzu hər nə qədər azalsa da, məbəd yazı mədəniyyətinin yarandığı, elmi nailiyyətlərin fiksə edildiyi mühit olaraq qalırdı. Məhz məbəd ədəbiyyatı (miflər, əfsanələr, əsatirlər, ayin nəğmələri və s.) sayəsində dini inanclar sistem halını alaraq kanonlaşırdı.

Eyni lokal ərazini paylaşan fərqli etno-mədəni qruplar bir-birinin tanrılarını öz dini inanclar sisteminə daxil edirdilər. Belə

hallarda “mənimsənilən” tanrılar yeni adları ilə tanınırdılar. Məsələn, şumerlilərin hərb və məhəbbət ilahəsi İnanna, Günəş tanrısı Utu, Ay tanrısı Nanna samimənşəli babillilərdə və aşşurlularda müvafiq olaraq İştar, Şamaş və Zuen adlanırdı. Yalnız real aləmdən uzaq olan tanrılar, məsələn, yeraltı dünyanın tanrıları Nerqal və Ereşkiqal əvvəlki köhnə adları ilə tanınırdılar.

Eyni xalq olduqlarından babillilərin və aşşurluların dini görüşlərində və mifoloji təsəvvürlərində ciddi fərqlər yox idi. Aşşur panteonuna triada (üç tanrının başçılığı) xarakterik olmuşdur. Aşşur ali tanrı hesab olunurdu. İkinci pillədə hərb və məhsuldarlıq ilahəsi İştar (Nineva və Erbil şəhərlərində onun iki kult mərkəzi mövcud idi), üçüncü mövqedə isə şimşək tanrısı Adad dururdu. Panteonda səmanın və yerin ikinci dərəcəli tanrıları (**iqiqi** > *yəcuc* termininin praforması) da yer alırdı. Aşşurluların inanc sisteminin e.ə. XIV-VIII əsrlərdə Urmiya hövzəsi tayfalarının dünyagörüşünə müəyyən təsir göstərdiyi şübhəsizdir.

Qədim Şərqin fatehlərini səciyyələndirən xüsusiyyətlərdən biri də öz dini inanclarını əsarət altına aldıqları xalqlara zorla qəbul etdirməməkləri olmuşdur. Onlar başqa xalqların tanrılarına rəğbətlə yanaşır, onların tanrılarının bütlərini öz paytaxtlarına gətirir və buna ideoloji rəng verməklə sanki məğlub etdikləri xalqı başsız qoyurdular.

Tanrıların adları dövlətlərarası müqavilələrin mətnlərində, məhkəmə çəkişmələrinin protokollarında, iki və çoxtərəfli iqtisadi sövdələşmələrdə “şahid” qismində sadalanırdı. Məsələn, Akkad və Elam hökmdarları Naram-Suenlə Hişebrasini arasında bağlanan tarixin ilk diplomatik sazişində 37 tanrının adı çəkilir və tərəflər müqavilənin şərtlərinə sadiq qalacaqlarına dair onlara and içirlər

Bütün deyilənlər Qədim Şərq cəmiyyətləri üçün səciyyəvi olmuşdur. Azərbaycan qoca Şərqin bir parçası olmaqla bu proseslərdən keçməyə bilməzdi, hərçənd ki, bu proseslərin bir

çox təfərrüatlarını birbaşa təsdiq edəcək faktlardan məhrumuq. Azərbaycan çoxəsrlik tarixi ərzində, Exnatonun (IV Amenxotep) təkallahlığın qanuniləşdirilməsinə yönələn dini-siyasi islahatı istisna olmaqla, Ön Asiyada həyata keçirilmiş mühüm dini-ideoloji islahatların təsir dairəsində olmuşdur. Azərbaycan Musanın, Zərdüştün, İsa Məsihin yaratdığı dini təlimlərin yayıldığı məkanlardan olub. Zərdüştilik e.ə. 323-cü ildən sonra Azərbaycanın cənubunda – Atropatenada, xristianlıq isə b.e. 313-cü ilində Azərbaycanın şimalında – Albaniyada dövlət səviyyəsində rəsmi status qazanmışdır.

Təqdim olunan əsərdə qədim mətnlərdən seçilmiş orijinal söz və ifadələrin yazılışı zamanı Aşşurşünaslıq elmində (mixi yazıları öyrənən elm sahəsi) qəbul olunmuş şərti işarələrdən istifadə edilib. Onlar aşağıdakı hallarda tətbiq olunur:

1. **KUR., KI**. – mixi yazılı mətnlərdə sözlərin kateqoriyasını bildirən determinativlərin və ideoqramların köhnə yazılış variantını bildirərkən,
2. **GU**$^{ki}$**,** $^{d}$**ZU-EN** – determinativ və ideoqramların yeni yazılış variantını göstərmək üçün,
3. **⌜...⌝** – mətnin bu yerində işarənin silueti sezildikdə,
4. / – müvafiq konteksdə işarənin digər mümkün oxunuşunu qeyd etmək üçün,
5. **ā, î, û** – uzun saitləri bildirdikdə,
6, **ú** (bu forma elmi ədəbiyyatda "akut" adlanır və ya $\mathbf{u_2}$ kimi göstərilir) – müvafiq fonemi ifadə edən sayca ikinci mixi işarə bildirildikdə,
7. **ù** (bu forma elmi ədəbiyyatda "qravis" adlanır və ya $\mathbf{u_3}$ kimi göstərilir) – müvafiq fonemi ifadə edən sayca üçüncü mixi işarə bildirildikdə,
8. $\mathbf{de_6}$ – müvafiq fonemi ifadə edən sayca altıncı mixi işarə bildirildikdə,
9. **š** – transkripsion variantlarda **-**ş- səsini bildirmək üçün,
10. **ş** – transkripsion variantlarda rus əlifbasındakı emfatik -ц- səsini bildirdikdə,

11. < – söz mənşəyini götürdüyü halda,
12. > – söz digər formaya çevrildiyi halda,
13. **I** – loqoqramların transliterasiyasında əlifbamızdakı -i- səsini bildirdikdə,

Şumer mənşəli mixi yazı sistemini mənimsəyən xalqlar (akkadlılar, elamlılar, hurrilər, hetlər, biaynililər (= urartulular) samit səslərin kar, cingiltili və emfatik formalarının yazılışında qrafik (işarə) fərqi qoymurdular. Məsələn, -**di**- hecasını ifadə edən işarı -**ti**- kimi, -**sa**- hecasını ifadə edən işarə -**za**-, -**ša**-, hətta rus fonetikasındakı emfatik -**ц-** kimi, -**bu**- hecasını bildirən işarə -**pu**- kimi oxuna bilərdi və s.

# I FƏSİL

## AZƏRBAYCANIN QƏDİM ETNOSLARININ DİNİ İNANCLARI *(POLİTEİZM DÖVRÜ)*

Azərbaycanın qədim tayfalarının dini təsəvvürləri barədə yazılı ilk mənbələrdə olduqca az məlumat qalıb və onlar əsasən Urmiya hövzəsində məskunlaşmış tayfalarla bağlıdır. Hövzənin cənubunda, strateji əhəmiyyətli karvan yolu üzərində, yerli əhalinin Aratta adlandırdığı bölgədə şumerlilər Uruk arxeoloji mədəniyyətinin sonlarında ticari koloniyalarını yaratmışlar. Arattanın iqtisadiyyatının əsasını qiymətli metalların, mineralların və tikinti materiallarının (əsasən, qaya daşının) hasilatı və emalı, eləcə də bu sərvətin nəqli təşkil edirdi. Eposlar Arattada qızıl, gümüş, mis, qalay yataqlarının mövcud olduğunu bildirsə də, [1] əslində, bu məlumat qiymətli təbii sərvətin ticarətinin Aratta sakinlərinin inhisarında olduğuna işarə edir. Bu sərvətin Şumer şəhərlərinə nəqli Arattanın baş kahininin sanksiyası ilə həll olunurdu. Abu-Salabihdən (qədim Şumer şəhəri Keş) tapılmış və e.ə. XXVI əsrə aid edilən sözlükdə "Elamın hökmdarı" adlı tanrıdan əvvəl Arattanın hansısa hökmdarı "tanrı" kimi xatırlanıb. Həmin mətndə teonim abreviatur formada yazılıb: **dingir lugal LAM.KUR.RU.** [2]

---

[1] Канева И.Т. Шумерский героический эпос. Транскрипции, перевод, комментарии и выводные статьи. Энмеркар и верховный жрец Аратты // Вестник древней истории, 1964, №4, с.193, 208.

[2] Alberti A. A Reconstruction of the Abu Salabikh God-List // Studi Epigrafici e Linguistici sul Vicino Oriente, 1985, Vol.2, p.8; Zadok R. The Elamite Onomasticon. Napoli, 1994, p.37; Potts D.T. The Archaeology of Elam. Formation and Transformation of an ancient Iranian state. Cambridge, 1999, p.87. Ümumiyyətlə, hökmdarın ilahiləşdirilməsi praktikası qədim tarixə malikdir. Misirdə bu ənənə VI sülalə dövründən (e.ə.2423-2263), Mesopotamiyada Akkad hökmdarı

Başqa bir teonimlər siyahısında “Arattanın xanımı” adlı tanrı xatırlanır.[1]

Müəyyən tərəddüdlə də olsa, **$^{d}$LAM.KUR.RU.**, yəni “Tanrı Aratta” ifadəsinin Adabdan tapılmış təsərrüfat hesabatlarının ən azı üçündə də (e.ə. XXV-XXIV əsrlər) yazıldığını istisna etmirik (bax: şəkil 1).[2] Tərəddüdə səbəb bu hesabatların yazıldığı dövrdə **LAM.** və **SU./KUŠ**. ideoqramlarının qrafik bənzərliyi ilə bağlıdır, yəni “Tanrı Aratta” ifadəsini bildirən ideoqrafik yazı “Tanrı Şuruppak” (Şuruppak şəhərinin (indiki İraqda Təll-Fara) qoruyucu tanrısı) kimi də oxuna bilər.



A B

**Şəkil 1.** Aratta tanrısı Adab şəhərinin təsərrüfat sənədlərində

---

Naram-Suenin zamanından (e.ə.2294-2258) başlayır. Misirdə, Şumerdə və Elamda hətta ölən hökmdarların bəzilərinin ilahiləşdirildiyi məlumdur. Məsələn, Şumerin Uruk şəhər-dövlətinin I sülaləsinin beşinci hökmdarı Gilqameş ölümündən sonra ilahiləşdirilmişdir; o, yeraltı dünyada ruhların hakimi funksiyasını icra edirdi.

[1] Litke R.L. Reconstruction of the Assyro-Babylonian God-List. AN: $^{d}$A-nu-um and AN: anu ša$_2$ awēlu / Text from the babylonian Collection. Vol. 3. New Haven. Copyright, 1998, p.151.

[2] Luckenbill D.D. İnscriptions from Adab. Chicago, 1930, №№55, 73.

Deyilən hesabatlarda məhz “tanrı Arattanın” nəzərdə tutulduğu fikri həmin dövrdə Arattanın Adab şəhərinin iqtisadi tərəfdaşı olduğu ilə əsaslandırılır. Başqa bir əsaslı arqument Adabda tərtib olunmuş digər uçot sənədinin üz tərəfində (II sütunun 5-ci sətrində) $^{d}$**LAM.KUR.RU.KI.DA**. ideoqrafik yazılışıdır. Şumerşünaslıqda bu yazılış **aratta**$_2$ kimi oxunur, yəni Arattanı bildirən sayca ikinci ideoqrafik forma kimi qəbul olunub; Şuruppak şəhərinin ideoqrafik ifadəsində  (**DA**.) ideoqramı tətbiq olunmur. Şəkil 1-də təsviri verilmiş B tabletində Aratta tanrısı üçün 1 ədəd tac və 1 baş keçi verilməsi qeyd olunub. Görünür, bu hesabat sənədi Aratta tanrısının şərəfinə keçirilən ritualla əlaqədar onun büstü üçün diademanın hazırlanmasını və ziyafət üçün qurbanlıq keçinin ayrılmasını əks etdirir. Urukda və Arattada eyni tanrılara (İnanna, Dumuzi, Lama) sitayiş olunması hər iki şəhər-dövlətin elitasının eyni etno-mədəni köklərə bağlılığından xəbər verir. Şumerlilərin dini panteonunda İnanna hərb və məhəbbət ilahəsi, Dumuzi (İnannanın əri) maldarların himayədar tanrısı, Lama (> *elm* termininin praforması) isə xoşbəxtlik, sərvət və müdrikliyin mücəssəməsi kimi tanınırdı. Aratta ilə Uruk şəhər-dövləti arasında yaranmış konfliktin bir səbəbi də İnannanın heykəlinin (və ya büstünün) bu şəhərlərdən hansı birinin baş məbədində mühafizə olunması və ibadəti ilə bağlı olmuşdur. Ehtimal ki, arattalıların baş tanrısı ilahə Lama olmuşdur. Bu ehtimal Arattanın Şumer mətnlərində ideoqrafik yazılış formasına – **LAM.KUR.RU**. (“sərvətli dağlar”) – əsaslanır.

Aratta cəmiyyətində kahinlər böyük nüfuza malik olmaqla xarici əlaqələrin diplomatik yolla həllində də iştirak edirdilər. Məsələn, “Enmerkar və Ensuhkeşdanna” poemasında bildirilir ki, Aratta hökmdarı Şumerin Uruk şəhər-dövlətinin hökmdarı Enmerkarla danışıqlar aparmaq üçün əslən Hamazi şəhərindən olan Urgirnunna adlı cadugara (şumercə **maš-maš**) müraciət etmişdir. Edəcəyi yardıma görə cadugara 2 kq 525 qram qızıl və bir o qədər də gümüş mükafat verilmişdir. Lakin cadugarı

Urukda öldürüb meyitini Fərat çayına atmışlar. Burada biz tarixdə ilk dəfə olaraq diplomatik nümayəndəyə edilən sui-qəsdlə qarşılaşırıq.[1]

Maraqlıdır ki, Arattanın qonşuluğunda yerləşən Hamazi şəhər-dövlətinin[2] hökmdarı Hataniş də (e.ə. XXV əsrin ortaları) ilahiləşdirilmişdir.[3]

Aratta ilə Şumer şəhərləri arasındakı ticari yollardan biri lullubi etnosunun ölkəsi kimi tanınan Zabudan (e.ə. I minillikdə "Zamua" adlanırdı) keçirdi. Azərbaycanın adı elmə məlum olan ən qədim etnosu lullubilərdir. Onların dini təsəvvürləri barədə mənbələrdə olduqca az məlumat qalıb. "Luqalbanda dağın mağarasında" eposunun 348-ci sətrində deyilir ki, Arattaya səfəri zamanı Luqalbanda Zabua dağlarında xəstələnərkən yuxu tanrısı Zanqara (**$^{d}$za-an-gar$_3$-ra dingir ma-⸢mu-da⸣-ke$_4$**)[4] onun

---

[1] Əlimirzəyev A. Azərbaycan diplomatiyasının miladdan öncəki tarixindən // AMEA Tarix İnstitutu. Elmi əsərlər, 2011, cild 36-37, s.12-13.

[2] Bu qonşuluq "Enmerkar və Ensuhkeşdanna" adlı Şumer eposundakı məlumata əsaslanır. Həmin eposda deyilir ki, doğma şəhəri dağıdıldıqdıqdan sonra Hamazinin baş cadugarı Ansiqaria Arattaya köçməli olmuşdur. Bax: Şumer kral destanları.Enmerkar-Lugalbanda (Sumerce aslından çeviren Selim F. Adalı, Ali T.Görgü). İstanbul, 2020, s.34.

[3] Şumer hökmdar siyahılarının bir variantında onun hakimiyyət müddəti 360 il, digər variantında isə 420 il göstərilib. Sonralar bu şəxs ilahiləşdirilərək "tanrılar siyahısı"na daxil edilmişdir. Bax: Jacobsen T. The Sumerian King List. / Assyriological Studies. Chicago. Vol. 11, Chicago, 1939, pp.96-98; Deimel A. Panteon Babylonicum. Roma, 1934, s.135; Litke R. L. A Reconstruction of the Assyro-Babylonian God-Lists…, tablet 1, 189, p.42.

[4] Vansthiphout H.L. Epics of Sumerian Kings: The Matter of Aratta. Atlanta: Society of Biblical Literature. Copyright 2003, pp.122-123. Teonim siyahılarının birində belə bir paralelliklə qarşılaşırıq" **$^{d}$za-gar**

himayədarı kimi çıxış etmişdir. Zabua lullubilərin ölkəsi olduğundan bu tanrını onlara aid etmək məntiqli görünür, şumerlilər və akkadlılar bu gecə (və ya qaranlıq) tanrısına sitayiş etmirdilər. Bu teonim şumercə **dingir giga**, akkadca – **ilu lēlāti** və ya **ilu mūšu** kimi səslənərdi.

Tanrı adının **$^{d}$za-an-gar$_3$-ra** yazılış formasında Zanqa teonimdir; ona əlavə olunan **-ra** mətnin dilində (şumercə) yiyəlik hal şəkilçisidir. Yəni, morfoloji baxımdan bu teonimin yazılışı "Zanqa+nın" kimi mənalandırılmalıdır. **zanga** sözü məntiqlə "gecə", "qaranlıq" kimi mənalandırılmalıdır. Yalnız belə izah bu tanrının yuxu ilə bağlılığını təsdiq edir. III Tiqlatpalasarın salnaməsində xatırlanan Sanqi-ilu ("Tanrı Zanqinin yeri") toponimi [1] ola bilsin ki, bu tanrı ilə bağlı olmuşdur. **Zanga** söz xeyli sonralar ərəb dilinə keçməklə (?) *zənci* formasını almışdır və dilimizdə də işlənməkdədir.[2]

Lullubi tayfasının yayıldığı bölgədə coxtanrıçılığın mövcud olmasına dair ilk məlumat e.ə. XXIII əsrdə bu ölkəni işğal etmiş köçəri "umman-manda" toplumunun hökmdarı Anubanininin Sər-puli-Zöhab şəhəri yaxınlığında yerləşən Miankal (qədim adı Batir; elamca "Düşmən") qayasına həkk

---

= **$^{d}$ma-mu-de-ke$_4$** ("Zanqa – yuxu tanrısı"). Bax: Litke R. L. A Reconstruction of the Assyro-Babylonian God-Lists…, p.137.

[1] Tadmor H., Yamada Sh. The Royal İnscriptions of Tiglat-pileser III (744-727 BC) and Shalmaneser V (726-722 BC), Kings of Assyria. Winona Lake, 2011, p.46, 68; Azərbaycanın qədim tarixinə dair yazılı mənbələr. Müntəxəbat (Təsisçilər: R.S.Məlikov, A.N.Əlimirzəyev). Bakı, 2014, s.55-56.

[2] Maraqlıdır ki, **zanga** sözünə təklif etdiyimiz semantika müasir coğrafi adlarla da təsdiqlənir. Məsələn, Qərbi Azərbaycanda axan Zəngi, Anadoludakı Sanqaria (yunan formasıdır) hidronimləri ("Qara çay"), Zəngilan, Zəncan (ərəb formasıdır; orijinal səslənişi Zəngan) "Qara torpaq", Sanqaçal ("Qara çala") kimi etimologiya oluna bilər.

olunmuş kitabəsində qeydə alınıb. Kitabədən məlum olur ki, lullubilərin ölkəsində səma cisimlərinə (göy qurşağı, ay, günəş) və təbiyyət hadisələrinə (şimşək, külək) sitayiş edirdilər. Kitabə Akkad dilində yazıldığından bu tanrılar Mesopotamiyadakı adları ilə təqdim olunublar: Anu, Antum, Enlil, Ninlil, Adad, İştar, Suen, Şamaş, Ninhursaq və Ninansianna. Lullubi ölkəsinin sakinlərinin etiqadında harb ilahəsi İştar da (= şumerlilərin dini panteonunda İnanna) önəmli yer tuturdu. Miankal qayasına həkk olunmuş barelyefdə ilahə İştarın Anubaniniyə iki əsiri gətirməsi təsvir olunub. Bununla Anubanini bildirmək istəyir ki, onun qələbəsi bu hərb ilahəsinin lütfi nəticəsində mümkün olmuşdur. Buna əsasən G.Melikişvili hesab edirdi ki, lullubilərin panteonuna ilahə başçılıq edirdi və ola bilsin ki, o dövrdə lullubi cəmiyyətində anaxaqanlığı mərhələsi hələ başa çatmamışdır.[1] Lakin bu mətndə tanrılar siyahısında birinci yerdə Anu (şumercə An; səma tanrısı) sadalandığından Y.Yusifov məhz onun lullubi panteonuna başçılıq etdiyi fikrindədir.[2]

"Kuta əfsanəsi" adı ilə tanınan Babil bədii kompozisiyasında "umman-manda" toplumunun hökmdarı Anubanini və oğulları Naram-Suenin rəqibi kimi göstərilib. Onun oğlanlarından biri – Kutadada (hurricədən tərcümədə "Sevimli quti") teonimlər siyahısında **ku-ta-ta-ti** formasında xatırlanır.[3]

Mesopotamiya mətnlərində yerli lullubi tanrılarından yalnız Nişba qeydə alınıb. Zaqros dağ silsiləsindəki zirvələrdən biri də Nişba adlanırdı. Lullubi panteonunda Nişba dağı müqəddəs sayılır və ilahə görkəmində təqdim olunurdu. Lullubilərin digər siyasi qurumu olan Simurru ölkəsinin (Luristanda, indiki Seynmərrə vadisində yerləşirdi) şahı İnima-Nişbanın

---

[1] Меликишвили Г.А. Древневосточные материалы по истории народов Закавказья. I. Наири-Урарту. Тбилиси, 1954, с.129.

[2] Юсифов Ю. Ранние контакты Месопотамии с северо-восточными странами (Приурмийская зона) // Вестник древней истории, 1987, №1, с.36.

[3] Deimel A. Panteon Babylonicum..., s.157.

ismində bu ilahənin adı yer alır. İnima-Nişbanın varislərindən olan İddin-Suen Miankal qayasına, Anubaniniyə məxsus kitabədən aşağıda özünün qələbə mətnini həkk etdirmişdir; həmin mətndə də ilahə Nişbanın adına rast gəlinir.[1] Ola bilsin ki, Nişba teonimi şumerlilərin bərəkət ilahəsi Nisabanın (< **ninda-aba** "çörəyin himayədarı") adından törəmədir.

Şuruppak şəhər arxivinin təsərrüfat sənədlərində (e.ə. XXVI əsr) **sangu $^{d}$lul-li-kuš/su** ("tanrı Lullikuşun (və ya "tanrı Lullusunun kahini"), eləcə də Lul adlı tanrı xatırlanır.[2] Bəzi tədqiqatçılar Şumer panteonundakı Lulal adlı tanrını (**$^{d}$lú-lál**; ilahə İnannanın oğlu, Bad-tibira şəhərinin mənəvi himayədarı) lullubilərə aid edirlər.[3] Bu tanrı hurri mətnlərində də qeydə alınıb.[4] Mətnlərdə Lulu adlı tanrı da xatırlanır.[5] Etnonimlərin və teonimlərin üst-üstə düşməsi qədim mədəniyyətlərdə adi hal olsa da, bu tanrının lulubilərə aid olması fikri mübahisə doğura bilər. Anası İnannanın (< **I-na-na**) iterativ strukturlu adına əsasən bu tanrının Şumer panteonuna Protodəclə substratından keçdiyini ehtimal etmək olar, çünki iterativ strukturlu adlar (son hecası

---

[1] Алимирзоев А. Борьба царей Кутиума за власть (К новой интерпретации старых источников) // Азербайджан и азербайджанцы, 2011, №1-2, с.122; Qədim Azərbaycan tarixi mixiyazılı mənbələrdə (Tərtib və tərcümə edəni, ön sözün və şərhlərin müəllifi S.Qaşqay). Bakı, 2006, s.13.

[2] Deimel A. Schultexte aus Fara. Leipzig, 1923, ss.17-18, text VAT 12760.

[3] Taş İ., Adalı S. Çivi yazısı geleneginde Lullu halkı // Kubaba. Arkeoloji-Sanat tarihi-Tarih dergisi, 2015, Sayı 24, 18 aralık, s.25, not.36; Алимирзоев А. О религиозных представлениях племён Приурмийской зоны (XXIII-VIII вв. до н.э.) // Вестник Дагестанского Государственного Университета, 2018, Выпуск 4, том 33, с.25-26.

[4] Laroche E. Glossaire de la Langue Hourrite. Paris: Editions Klincksieck, 1980, p.160.

[5] Deimel A. Panteon Babylonicum..., s.163.

təkrarlanan isimlər) lullubilər üçün səciyyəvi olmayıb.

Simurru şahlığının hökmdarı İddin-Suenin oğlu Zabazunanın bizə 3 nöhürü çatıb.[1] Onların biri üzərindəki mətndə İddin-Suenin və oğlu Zabazunanın isimləri qarşısında "tanrı" ideoqramı yazılıb və bu onların ilahiləşdirildiyinə işarə edir .[2]

Babil ədəbi ənənəsi "ümumdünya" daşqını zamanı (arxeoloji araşdırmalara əsasən e.ə. XXVIII əsrdə baş vermiş tuvan nəzərdə tutulur) insanlığın xilas yerinin lullubi və quti tayfalarının kompakt yaşadığı bölgədə yerləşdiyi güman olunur.[3] Belə ki, "Gilqameş haqqında əfsanə"nin yazıldığı XI tabletdə tufanın qəhrəmanı, Şumerin Şuruppak şəhərinin kahini Utnapiştimin gəmisinin Nisir adlanan dağda dayandığı bildirilir. Nisir dağı eposda 4 dəfə (XI gil lövhənin 32-36-cı sətirlərində) xatırlanır: "Gəmi Nisir dağında dayandı. Nisir dağı gəmini saxladı, tərpənməyə qoymadı. Nisir dağı gəmini bir gün, iki gün saxladı, tərpənməyə qoymadı. Nisir dağı gəmini üç gün, dörd gün saxladı, tərpənməyə qoymadı. Nisir dağı gəmini beş gün, altı gün saxladı, tərpənməyə qoymadı".[4]

Şuruppak şəhəri Fəratın sahilində yerləşirdi. Təbiidir ki,

---

[1] Mətnlərdə onun ismi qarşısında "Tanrı" ideoqramı (və ya şumeroqramı) **AN** yazıldığından bəzi tədqiqatçılar hesab edir ki, bu ad "Anzabazuna" kimi oxunmalıdır. Ola bilsin ki, **AN** ideoqramı həmin şəxsin sağlığında ikən ilahiləşdirildiyini göstərir.

[2] Frayne D. R. The Royal Inscriptions of Mesopotamia. Early Periods. Vol. 4. Old Babylonian Period (2003-1595 BC). University of Toronto Press, 1990, text E 4. 19.2.2001, p.715-716; Kozad A.M. The Beginnings of ancient Kurdistan (c. 2500-1500 BC): a historical and cultural syntesis. Leiden University, 2012, p.339.

[3] Mesopotamiya xalqlarının ümumdünya daşqını haqqında tarixi-mifoloji təsəvvürlərinə dair ətraflı məlumat üçün bax: Əlimirzəyev A. Dünya daşqını şumerlilərin tarixi və mifoloji təsəvvürlərində // Sosial elmlər, 2023, № 2, s.13-24.

[4] Эпос о Гильгамеше («О все видавшем»). Перевод И.М. Дьяконова. Москва-Ленинград, с.76.

bu çay daşdığından Ziusudranın gəmisi Dəclə vasitəsilə Zaqros silsiləsi istiqamətinə hərəkət edərək Mesopotamiyanın hüdudlarını tərk etmişdir. Nisir dağı Mesopotamiya sakinlərinə yaxşı məlum idi. XIX əsrin ortalarında Aşşur hökmdarı Aşşurbanapalın kitabxanasından bir kitabə (Qoyuncuq kolleksiyasında "K. 4415" kataloq sıra sayı ilə tanınan coğrafi məntəqələr sözlüyü) tapılmışdır. E.ə. VIII əsrdə tərtib olunduğu ehtimal edilən bu ilk mənbədə[1] belə paralelliklə qarşılaşırıq: **KUR ni-şir** = **KUR qu-ti-i** "Nisir dağı – qutilərin dağı" (bax: şəkil 2-dəki avtoqrafik təsvirin I sətrinin sol tərəfi).



**Şəkil 2.** Nisir dağı "K. 4415" sözlüyündə

Aşşur hökmdarı II Aşşurnazirapalın e.ə. 881-ci ildə lullubi tayfasının məskunlaşdığı Zamua ölkəsinə işğalçı yürüşünü tərənnüm edən salnaməsində (bax: şəkil 3) deyilir: "Babite şəhərindən çıxdım. Nisir dağına, hansını ki, Lullu ölkəsi[nin sakinləri] "Kinipa dağı" adlandırırlar, yaxınlaşdım. Bunasi şəhərini, möhkəm şəhəri, hansı ki, Muzasina[ya məxsusdur], ətrafındakı 30 məskənlə bir-bir tutdum. [Onun] döyüşçülər[i] qaçıb dağa sığındı. Aşşurnazirapal qəhrəman quş kimi izlədi onları. Dağ quşları kimi Nisir dağında [onların] adamlarından 326-sını öldürüb cəsədlərini [ətrafa] yaydı? Onun atlarını ələ keçirdi. Digər [döyüşçülərinin cəsədləri ilə] dağların yamaclarını toza bürüdü? Bütün 7 ayrı-ayrı şəhəri, hansılar ki, Nisir dağının

[1] Rowlinson H., Norris E. Cuneiform Inscriptions of Western Asia. Vol.II. A selections from the Miscellaneus inscriptions of Assyria. London: Lithographed by R.E.Bowler, 1866, №51 R, 21-23-cü sətirlər.

ortasında idi [və] möhkəmləndirilmişdi, zəbt etdi, əsgərlərini?...”.[1]



**Şəkil 3.** Nisir dağı II Aşşurnazirapalın salnaməsində.

Lullubilərin Zamua ölkəsinin qərbində yerləşən Nisir dağı II Aşşurnazirapalın salnaməsində 6 dəfə xatırlansa da, dəqiq yeri müəyyənləşdirilməyib. Salnamədən məlum olur ki, Nisir Babite aşırımından (Altın-Köprüdən Süleymaniyyəyə gedən yolun üstündəki Dərbəndi-Bazian keçidi) şimal-şərq istiqamətində yerləşən ilk dağ idi. XIX əsrin sonlarından tədqiqatçıların bir qismi bu dağı indiki Xalxalandağ və ya Tokmadağ rayonunda (İraqda, Altın-Körpüdən cənub-şərqdə), digərləri Sidikan yaxınlığında (Erbillə Rəvandizə arasında) lokalizə etmişlər. A.Billerbek Nisir dağını İraqın şərqindəki Pir-Ömər-Qudrun zirvəsi (Süleymaniyyədən 40 km şimal-qərbdəki Ulubulaq adlanan yerdə; hündürlüyü 2743 m) ilə eyniləşdirmişdir; hazırda

[1] Qədim Azərbaycan tarixi mixi yazılı mənbələrdə..., s.23.

bu fikrin tərəfdarları üstünlük təşkil edir.[1] Bu ehtimallardan hansı birinin düz olmasından asılı olmayaraq şübhə doğurmayan odur ki, Mesopotamiyanın akkaddilli sakinləri (aşşurlular və babillilər) şifahi ənənələrində yaşayan bu dağı əcdadlarının xilas yeri hesab edirdilər. Bu yerlə əlaqədar II Aşşurnazirapalın salnaməsində (şəkil 3-dəki avtoqrafik təsvirin 1-2-ci sətirləri) deyilir: **šadū ni-sir mâtu lu-ul-lu šadū ki-ni-ba i-qa-bu-šu-ni aq-ti-ri-ib**: "Lullu ölkəsi [əhalisinin] "Kinipa" adlandırdığı Nisir dağı".[2] Bununla belə, həmin mənbədə bildirilir ki, Nisir dağı yaxınlığında yerləşən Larbusa şəhərini "əvvəllər heç kim görməmişdir." Görünür, babillilərdən fərqli olaraq, aşşurluların tarixi yaddaşında Kinipa/Nisir dağı dünya daşqınından qurtuluş yeri kimi iz qoymamışdır. Kinipa dağı lullubilərin Zamua ölkəsi ilə quti məskənlərinin sərhədində, hər iki etnosun kompakt yaşadığı ərazidə, yerləşirdi. Təbiidir ki, şumerlilərin təsəvvüründə Ziusudranın gəmisinin xilas tapdığı dağın adı Kinipa idi. Tufana həsr olunmuş Şumer əfsanəsində dağın Akkad dilindəki adı – Nisir – yazıla bilməzdi, çünki e.ə. III minilliyin əvvəllərində Zaqros silsiləsində hər hansı zirvənin samimənşəli ad daşıması real görünmür.

Mixi yazı sistemində **-sir-** işarəsinin həm də **-muš-** hesacını ifadə etdiyini nəzərə alaraq, son zamanlar bu dağın adının "Nimuş" olduğunu söyləyirlər. Lakin bu fikir təsdiqini

---

[1] Streck M. Das Gebiet der heutigen Landschaften Armenien, Kurdistan und Westpersien nach den babylonisch-assyrischen Keilinschriften // ZA, 1901, Band XV, ss.272-273; Speiser E.A. Mesopotamian Origins. The Basic Population of the Near East. Philadelphia, 1930, p.99; Herzfeld E. The Persian Empire. Wiesbaden, 1968, pp.201-203; Kozad A.M. The Beginnings of ancient Kurdistan (c. 2500-1500 BC)…, p.288, not.353.

[2] Grayson A.K. The Royal Inscriptions of Mesopotamia. Assyrian Periods. Vol.2. Assyrian Rulers of the Early First Millenium BC. I. (1114-859 BC). University of Toronto Press, 1990, pp.203-204, text A.O.101.

tapmır. İlk dəfə F.Deliç “Nisir” oronimini Akkad dilinin leksikonundakı **nasāru** (“qorumaq”, “hifz etmək”) felinə bağlamışdır; bu izah əfsanənin mahiyyəti ilə həmahəng səslənir.[1] Akkad dilində bu feildən törəyən **nisirtu** “saxlanc yeri” termini də işlənirdi.[2] Lakin “Nisir” adı lullubilərin Kinipa oroniminin Akkad dilinə tərcüməsi hesab oluna bilməz. “Kinipa” oroniminin iki komponentdən yarandığını söyləmək olar. Oronimin birinci komponent (**kin**-) Urmiya və Van gölləri hövzəsinin qədim yer adlarında nəzərə çarpır: Kindari, Kinablila, Kinabu, Kinahhi, Kinaki, Kinaştania, Kinqikanqi, Kinhuhtu, Kinqialkaziş, Kinihamanu, Kindiqiazu, Kinqiştilensah, Kindutauş və s. Bu toponimlərdəki bəzi komponentlərin lullubi dilinə aid olduğu şübhəsizdir. Lullubilərin **kin** termini **qinnu** (“mağara”) formasında Akkad leksikonuna keçmişdir.[3]

Necə oldu ki, dünya daşqını zamanı insanlığın xilas olduğu bu dağ yəhudi və İslam dini təsəvvürlərində tamamilə fərqli məkanlara bağlandı?



**Şəkil 4.** III Tiqlatpalasarın salnaməsindən fraqment.

E.ə. 737-ci ildə Madaya hərbi yürüşdən sonra III Tiqlatpalasarın göstərişilə yerli sakinlərin deportasiyasına start

[1] Delitzsch F. Wo lag das Paradies? Leipzig, 1881, s.105.
[2] Chicago Assyrian Dictionary. Vol. K., pp.39, 276-279.
[3] Липин Л.А. Аккадский (вавилоно-ассирийский) язык. Выпуск II, Словарь. Ленинград, 1957, с.173.

verilmişdir. O zaman icmalararası münasibətləri pozmaqla gələcəkdə Aşşur dövlətinə qarşı gözlənilən iğtişaşların qarşısını almaq xarici siyasətin vacib istiqamətinə çevrilmişdi. Şəkil 4-də təsvir olunmuş fraqmentdə deportasiyalardan biri haqqında belə məlumat verilir:

"...qutilərin ölkəsindən, Sangibutu ölkəsindən əsirləri, Dur-Enlil şəhərinin 1200 sakinini, 6208 nakkablını, budiləri, Simirra, Arka, Usnuu şəhərlərindən, hansılar ki, dənizin sahilindədir, köçürtdüm. 588 budilini, Duna şəhərinin sakinlərini, 352 bilallını, 544 banitlini, 380 ..., 460 sanqiilulunu, Dur-Enlil şəhərinin sakinlərini, 457 qutili əsiri Bit-Sangibutudan Tuimmi şəhərinə köçürtdüm. [Daha] 555 qutili əsiri Bit-Sangibutudan Til-Karme şəhərinə göndərdim. Azad olan adamlara Aşşurdan hökmranlıq etdim...".[1]

III Tiqlatpalasar Urmiya gölü hövzəsində hərbi əməliyyatlar aparmadığına görə deportasiya olunanları hərbi əsir hesab etmək olmaz. Sürgün olunanların yerinə II Sarqonun zamanında (e.ə.722-705) İran yaylasına, onun oğlu Sinahheribin zamanında (e.ə.705-681) Babilistana minlərlə yəhudi köçürülmüşdür. Əfsanələşmiş dünya daşqını haqqındakı olaylar elə o vaxtlar birbaşa təmas nəticəsində yəhudilərə, onlardan isə ərəblərə ötürülmüşdür. Yəhudi dini ənənəsini əks etdirən Əhdi-ətiqin "Varlıq" hissəsində daşqın zamanı insanlığın xilas olduğu yer **'RRT** adlanır.[2] Coğrafi mövqeyini və landşaft xüsusiyyətlərini nəzərə alaraq sonrakı nəsillər bu yeri Ön Asiyanın Dəmavənddən sonra ikinci uca zirvəsi olan Ağrıdağla (Türkiyənin şimal-şərqində; hündürlüyü 5137 m) eyniləşdirmişlər. Eyniləşdirmənin sübutu üçün bu dağın qeyri-müsəlman ("Ararat") adı əlavə arqument kimi göstərilir. Hesab olunur ki,

---

[1] Tadmor H., Yamada Sh. The Royal İnscriptions of Tiglat-pileser III..., pp.46, 68.

[2] Дьяконов И.М. Ассиро-вавилонские источники по истории Урарту // Вестник древней истории, 1951, № 2, текст № 86:2.

אררט (**‘RRT**) “Ararat” adı dağın yerləşdiyi qədim Biayni dövlətinə aşşurluların (şimal-şərqi samilərin) verdiyi “Urartu” terminindən törəmədir.

İslam ənənəsi (Qurani-Kərim, XI Surə, 46-cı ayə) dünya daşqını zamanı insanlığın xilaskarı olan Nuhun gəmisinin Cəbəl-Cudidə, yəni “Cudi” adlanan dağlıq ərazidə dayandığını bildirir. İngilis şərqşünası Arçibald Henri Seysdən başlayaraq əfsanənin İslam variantının tarixi köklərini və əhatə etdiyi coğrafiyanı tədqiq edən bəzi Qərb alimləri bu dağı Türkiyədə, Çivridən 32 km cənub-şərqdə yerləşən Cudidağla (hündürlüyü 2100 m) eyniləşdirməyin tərəfdarı kimi çıxış etmişlər. Cudidə qələbə kitabəsini həkk etdirən Aşşur şahı Sinahheribin zamanında bu dağ hələ də köhnə adı ilə (Nibur) tanınırdı və onun ətrafında (mətndə “Kutmuhinin sərhəddində”) Tumurra, Şarim, Halqidda, Kibşa, Esama, Kua və Kana kimi şəhərlər salınmışdır.[1] III Tiqlatpalasarın zamanında Aşşur dövlətinin tərkibinə qatılan Tumme (və ya Tuimme) qutilərin sürgün olunduğu yerlərdən biri) vilayəti də bu bölgədə yerləşirdi. Samimənşəli Akkad dilinin orfoqrafiyasında **-q-** və **-k-** samitlərinin erkən orta əsrlərin ərəf orfoqrafiyasında **-c-** foneminə çevrildiyi qanunauyğunluğunu nəzərə alaraq “Cudi” oronimini qutilərin etnik adına bağlamışlar.[2]

Səmavi kitablarda tufan əfsanəsinin Anadolunun şərqinə bağlanmasının bir səbəbi də lullubilərə məxsus “Kinipa” dağ və “Kinabu” şəhər (Anadolunun şərqində, Tur-Abdin dağlıq bölgəsində[3]) adlarının fonetik bənzərliyi ola bilər. Lullubilərin bu bölgədə yayılmaları Het dövlətinin rəsmi sənədləri ilə təsdiq

---

[1] Luckenbill D.D. Ancient Records of Assyria and Babylonia. New-York, Vol. I, 1968, § 295.

[2] Streck M. Das Gebiet der heutigen Landschaften Armenien, Kurdistan und Westpersien…, s.272-273.

[3] Herzfeld E. The Persian Empire…, p.201.

olunur.[1]

III Tiqlatpalasarın salnaməsində (bax: şəkil 4) xalqların deportasiyası ilə əlaqədar xatırlanan budi etnosunu (**LU₂. bu-da-a-a**) Mada tayfa ittifaqında təmsil olunmuş budi tayfası ilə [Herodota görə; Her., I, 101] eyniləşdirmək olar. III Tiqlatpalasarın zamanında (e.ə. 744-727) budlər "dənizin" (yəqin ki, Urmiya gölü nəzərdə tutulur) sahilində yerləşən Manna şəhərlərində yaşayırdılar. H.Tadmor bu etnosu yanlışlıqla aramimənşəli "ubuda" tayfa adı ilə eyniləşdirir.[2] Halbuki, həmin fraqmentdə açıq-aşkar Suriyaya (o zaman aramilər əsasən burada yaşayırdılar) deyil, İran yaylasına yürüş təsvir olunub. Fraqmentdə xatırlanan Usnuu şəhərinin adı indi Uşnu vadisinin adında qalıb. Budilərin yayıldığı bölgələrdən birinin adı e.ə. I minilliyin Aşşur mənbələrində "Karşi-butu" ("Budilərin düşərgəsi") formasında verilib.[3] E.Qrantovski budiləri irandilli xalq hesab edir.[4] Karşi-butu toponiminin birinci komponenti Şumer və Akkad dillərində **garaš / karāšu** "düşərgə" mənasında işlənirdi.[5] Deyilən bölgə e.ə. V əsrdə Əhəmənilər imperiyasının Mada satraplığının tərkibində olduğundan Herodot budiləri Mada tayfası kimi təqdim etmişdir. Qədim iranlıların mifologiyasında budilərin etnik adı xüsusi ismə çevrilərək şər qüvvələri təmsil edən varlığa şamil olunurdu. Məsələn, Avestanın Videvdat hissəsində **Būδī** və **Būδīza** adlı

---

[1] Taş İ., Adalı S. Çivi yazısı geleneginde Lullu halkı..., s.25, 34-35.

[2] Tadmor H. The Inscriptions of Tiglat-Pileser III, King of Assyria. Jerusalem: The Israel Academy of Sciences and Humanities, 1994, p.43, not.7, p.67, not.6.

[3] Дьяконов И.М. История Мидии от древнейших времен до конца IV в. до н.э. Москва-Ленинград, 1956, с.165.

[4] Грантовский Э.А. Ранняя история иранских племен Передней Азии. Москва, 1970, с.181.

[5] Labat R. Manuel d'éigraphie Akkadienne (signes, syllabaires, ideogrammes). La $6^0$ edition, Paris : Libraire orientaliste Paul Geuthner S.A., 1988, № 461, p.322.

devlər (şər qüvvələr) xatırlanır, lakin bu adlar İran dillərindən izah olunmur.[1] Ola bilsin ki, budilərin bir qrupu daha əvvəl Van gölü hövzəsində yaşayırdı. Belə ki, Urartu hökmdarı I Arqiştinin Çələbibağı kitabəsində **ŠADU. Bu-da-a-ni** ("Buda ölkəsinin dağı") xatırlanır; onu Van gölündən şimalda lokalizə edirlər.[2]

E.ə. I minilliyin birinci yarısında Şərqi Anadolunun Urartu dövlətinin hüdudları daxilində olduğunu nəzərə alaraq Kinipa oroniminin etimologiyası ilə bağlı daha bir ehtimal yürütmək olar. II Rusanın Bəstamda ((Makudan 85 km şimal-şərqdə, Xoydan 54 km şimal-qərbdə) tapılan mətnlərinin birində deyilir ki, bu tanrının adını daşıyan dağın yamacında Rusahinili şəhəri salınmışdır.[3] Filoloji baxımdan "Kinipa" və "Kiliba" (Urartu adındakı **-n** sonluğu toponimik formant rolunda çıxış edir[4]) adları dialekt fərqi kimi dəyərləndirilə bilər. Mixi yazı işarələrinin polifonik xarakterini nəzərə alsaq II Aşşurnazirapalın salnaməsindəki **ki-ni-pa** işarələr qrupunu **ki-li$_2$-ba$_2$** kimi də oxumaq olar. Urartuluların panteonunda Kilibani adlı tanrı önəmli yer tuturdu; mərasimlərdə ona 1 cöngə və 2 qoyun qurban verilməsi rəsmiləşdirilmişdi.[5]

Bu fakt dağlıq məkanların qədim zamanlardan ilahiləşdirildiyini təsdiq edir. Aşşur hökmdarı II Sarqonun "Tanrı Aşşura məktubu"nda Mannanın qərb hüdudlarında yerləşən

---

[1] Грантовский Э.А. Ранняя история иранских племен…, с.282; Меликов 2003, с.130.

[2] Арутюнян Н. Корпус урартских клинообразных надписей. Ереван, 2001, № 407, с.502.

[3] Арутюнян Н. Корпус урартских клинообразных надписей..., № 412a; Qədim Azərbaycan tarixi mixiyazılı mənbələrdə..., s.118. Rusahinili şəhəri indiki Toprakkalenin (Van gölündən şərqdə) ərazisində yerləşirdi.

[4] Müqayisə et: **baba-ni** "dağ", **siu-ni** "göl", **ardi-ni** "şəhər", **teri-ni** "tərəf" və s.

[5] Меликишвили Г.А. Урартские клинообразные надписи. Москва, 1960, № 27.

Simirria dağı **šu-bat $^{d}$be-let-DINGIR.MEŠ**. "Tanrılar xanımının məkanı" adlandırılıb.[1]

Göründüyü kimi, Ön Asiyada məskunlaşan xalqların əsrlər boyu yaşatdığı tarixi, ədəbi ənənə və mifoloji təfəkkür dünya daşqını haqqındakı əfsanənin xoşbəxt sonluğunu lullubilərin və qutilərin kompakt yaşadığı ərazilərə bağlayırdı.



**Şəkil 5.** Tanrı Lelvani het mətnində

Lullubi panteonunda çox sayda tanrının olmasına dair ilk məlumat Het hökmdarı Suppilluliumanın (e.ə. 1380-1335) vassalı və kürəkəni Mitanni şahı Şattivaza ilə bağladığı müqavilənin mətnində qeydə alınıb.[2] Lullubilərin tanrıları (**DINGIR.MEŠ. lu-u-lu-hi-eš** və ya **DINGIR.MEŠ. lu-la-hi-$u_2$-uš** və ya **DINGIR.MEŠ. lu-la-hi-ia-aš** və ya **DINGIR.MEŠ. nu-la** və digər formalarda) 18 het mətnində qeydə alınıb.[3] Mifoloji məzmunlu het mətnlərinin birində hatların (Anadolunun yerli sakinləri) Şamuha şəhərində yeraltı dünyanın Lelvani (**$^{d}$le-el-wa-ni**) adlı ilahəsinə sitayiş olunduğuna dair qeydə rast gəlinir (bax: şəkil 5, I sətir).[4] Naram-Suenin

---

[1] Frame G. The Royal İnscriptions of Sargon II, King of Assyria (721-705 BC). Eisenbrauns, Copyright 2021, text № 65, p.279.

[2] Stivala G. Ein Vertrag zwischen Šuppiluliuma I von Hatti und Šatti-vazza von Mitanni KBö 11 // Neuvelle Assyriologique Brèves et Utilitaires, 2014, №4, ss.149-150.

[3] Taş İ., Adalı S. Çivi yazısı geleneginde Lullu halkı..., s.33-35.

[4] Leick G. Dictionary of ancient Near Eastern Mithology. London-New-York, 1998, p.164.

qəhrəmanlığından bəhs edən eposlardan birinin het variantında Ullivi toponimi xatırlanır.[1] Tanrı Lelvaninin (və ya Leluvani) adını daşıyan bu şəhər Aşşur hökmdarı II Aşşurnazirapalın Tuşxanda (indiki Karx) tərtib olunmuş daş monoliti üzərindəki yazıda Ulliba, Urartu hökmdarı Menuanın adından Van şəhərində, Surb Poqos kilsəsinin divarına hörülmüş kitabədə Ulibani, III Tiqlatpalasarın mətnlərində Ulluba kimi formalarda qeydə alınıb. Şəhər indiki Hulp kəndinin yerində (Muşdan təqribən 45-50 km cənub-qərbdə) lokalizə olunur.[2]

Anadolunun luvidilli mətnlərinin birində lullubilərin tanrısı Lulahinzaş xatırlanır.[3]



**Şəkil 6.** Lullubi tanrıları I Tiqlatpalasarın mətnində

Aşşur hökmdarı I Tiqlatpalasarın (e.ə.1114-1077) bir kitabəsində (bax: şəkil 6) lullubilərin ölkəsində 25 tanrıya sitayiş olunduğundan xəbər verir. Bu xüsusda mətndə deyilir: **...KUR lu-lu-mi-i a-na si-hir-ti ša ak-šud 25 DINGIR. MEŠ-ni šu-nu DINGIR. MEŠ-ni ša URU-ia $^{d}$a-šur u$_2$ DINGIR. INANNA. MEŠ. ša URU-ti-a a-kiš**... “Lulumilərin ölkəsini

---

[1] Hrozný B. Naram-Sin et ses d’apres un texte Hittite // Archiv Orientalni, 1929. Vol.I, №4, p.29.

[2] Дьяконов И.М. Ассиро-вавилонские источники по истории Урарту..., №42, прим.5; Меликишвили Г.А. Урартские клинообразные надписи..., №28, с.445; Арутюнян Н.В. Топонимика Урарту. Ереван, 1985, с.205.

[3] Ali M.Dinçol. Eski Anadolu dillerine giriş. İstanbul: Edebiyat fakültesi basımevi, 1970, s.119.

bütünlüklə işğal etdim. Onların 25 tanrısını mən Aşşur şəhərimin tanrılarına [və] ilahələrinə qurban verdim, şəhərimdə ithaf [etdim].”[1]

E.ə. I minilliyin Aşşur sözlüklərində lullubilərin dilindən yalnız bir söz – **ki-u-ru-um** (“tanrı”) – qalmışdır.[2] Ehtimal olunur ki, burada -**um** sonluğu Akkad dilində ismin mimasiyaya uğramış adlıq halındakı göstəricisidir və termin lullubi dilində **kiur** kimi səslənirdi. Adətən, bu termini elam dilindəki **kiri** “ilahə” və kaşşu leksikasındakı **kuri** “çoban-hökmdar“ terminləri ilə müqayisə edirlər.[3] Urartuluların panteonunda Kuera adlı məhsuldarlıq tanrısı əhəmiyyətli yer tuturdu. Mərasim zamanı bu tanrının şərəfinə 1 döngə və 2 baş qoyun qurban edilməsi nəzərdə tutulurdu.[4] Bu xüsusda bir maraqlı detal diqqəti cəlb edir. İlk orta əsr alban tarixçisi Musa Kalankatuklu bildirir ki, hunların panteonunda Kuar adlı tanrı önəmli yer tuturdu. Onun “Aqvan ölkəsinin tarixi” əsərində deyilir: “Əgər gurultuyla müşayiət edilən və səmanı işıqlandıran şimşək bir insanı və ya heyvanı vurarsa, hesab edirlər ki, bu onların (hunların – A.Ə.) Kuar adlı tanrılarına qurbanıdır və buna görə ona sitayiş edirlər”.[5] Qeyd olunan fonetik bənzərliklərin lullubilərin **kiur** (“tanrı”) sözü ilə nə dərəcədə bağlı olduğunun əlavə sübutlara ehtiyacı var.

---

[1] Grayson A.K. The Royal Inscriptions of Mesopotamia. Assyrian Periods. Vol.2..., p.34, text A.O.87.2; Qədim Azərbaycan tarixi mixiyazılı mənbələrdə..., s.22.

[2] Frank C. Fremdsprachliche Glossen in assyrischen Listen und Vokabularen // Mitteilungen der Altorientalischen Gesellschaft, 1929, Band IV. Heft 1, s.42.

[3] Алиев И. История Мидии. Баку, 1960, с.83; Юсифов Ю. Ранние контакты Месопотамии с северо-восточными странами..., с.36.

[4] Меликишвили Г.А. Древневосточные материалы по истории народов Закавказья..., с.370; Меликишвили Г.А. Урартские клинообразные надписи..., № 27.

[5] Мовсес Каланкатуаци. История страны Алуанк (в 3-х книгах). Перевод с древнеармянского Ш.В.Смбатяна. Ереван, 1984, II, 40.

Urmiya hövzəsinin döyüşkən və aparıcı etnoslarından olan qutilər işğal etdikləri Mesopotamiya xalqlarının dini inanclarına və tanrılarına hörmətlə yanaşır, öz tanrılarını onlara zorla qəbul etdirmirdilər. Qutilərin dini dünyagörüşü haqqında biliklərimiz tanrı adları və cüzi arxeoloji faktlarla məhdudlaşır.[1] Hələ e.ə. III minilliyin ortalarında şumerlilərdə quti tanrıları haqqında müəyyən təsəvvür var idi. Abu-Salabihdən tapılan tanrılar siyahısında "Quti" teonimi ($^{d}$**gu$_4$-ti-im**; hərfən: "Qutinin tanrısı") qeydə alınıb.[2] "Qutilərin tanrısı" ($^{d}$**ku-ti-u-hé**) ifadəsinin hurri mətnlərində xatırlanması təsadüfi sayıla bilməz.[3] Çünki, Ön Asiyanın bəzi qədim sakinləri (aşşurlular, kaşkalar, kaşşular) baş tanrılarını öz etnik adları ilə adlandırırdılar.

Başqa bir tanrılar siyahısında şumerlilərin bitki və döyüş tanrısı Ninurtanın (külək tanrısı Enlilin oğlu) qutilərin panteonundakı qarşılığı olan "Abublab" adlı tanrı göstərilir.[4] Teonim siyahılarının birində Abublab **ŠU** ("Əl") işarəsi ilə ifadə olunub (bax: şəkil 7, II sətirdə: **[DINGIR] a-bu-ub-la-a[b] ŠU. KUR. gu-ti$^{ki}$-um** "[Tanrı] Abubla[b] = Qutium ölkəsi" ).[5]



**Şəkil 7**. Qutilərin tanrısı Abublab "Teonimlər siyahısı"nda

---

[1] Алимирзоев А. О религиозных представлениях племён Приурмийской зоны..., с.26-28.
[2] Alberti A. A Reconstruction of the Abu Salabikh God-List…, p.11.
[3] Laroche E. Glossaire de la Langue Hourrite…, p.157.
[4] Deimel A. Panteon Babylonicum..., s. 43; Hallo W.W. Gutium // Reallexikon der Assyriologie und Vorderasiatische Archāologie, 1971, Band III, p.719; Balkan K. Eski Önasiya'da Kut (ve ya Gut) halkının dili ile eski türkce arasındakı benzerlik // ERDEM. Cilt: 6/1, Ocak, 1990, Sayı: 16. Ayrıbasım. Ankara, 1992, s.48.
[5] Litke R.L. Reconstruction of the Assyro-Babylonian God-List..., p.213.

Həmin siyahıda qutilərin daha üç tanrısı qeydə alınıb, lakin onları ifadə edən işarələrin anlamı müəyyən olunmayıb:
1. **7 imin-bi = KUR. gu-ti$^{ki}$-ke$_4$**. Həmin siyahıda "**7 imin-bi**" yazılışına belə bir izah da verilir: **KUR. NIM.MA.$^{ki}$-ke$_4$**. Deməli, bu tanrıya Elamda da sitayiş olunurdu.[1]
2**.** **⸢dingir⸣ [b]ur$_5$-ir AN.BAR.** = **ša ku-ti-[im-mi]** (bax: şəkil 8. III sətirdə).[2]



**Şəkil 8**. Quti tanrısı "Teonimlər siyahısı"nda.

3. **$^{d}$KU$_3$. GI.-ban$_3$-de = ša ⸢LU$_2$⸣ ku-ti-[im-mi]**.[3] **LU$_2$** ideoqramı bu teonimin şəxs adı ilə bağlı olduğuna işarə edir.
Quti hökmdarı Lasirabın (və ya Lisir) Dərbəndi-Şeyxxan vadisində qaya üzərində həkk olunmuş kitabəsində (bax: şəkil 9) yazının mühafizəçiləri qismində Şumer-Akkad panteonunun tanrıları – Şamaş (Günəş) və Adad (Şimşək) – xatırlanırlar.[4] Hökmdarların tanrılara müraciətlərinin məqsədi onların rəğbətini qazanmaqla yanaşı, mətnlərin mühafizəsini təmin etmək üçün onların "dəstəyini" almaq idi. Ümumiyyətlə, quti hökmdarlarının adından tərtib olunmuş mətnlərdə Mesopotamiya tanrılarına müraciətlərlə qarşılaşırıq; Erridupizirin kitabələri Enlilə ithaf olunsa da, onlarda Şamaş ("Günəş"), İştar (məhəbbət və hərb ilahəsi), Ninhursaq (dağların ilahəsi), Nintu (həyat ilahəsi) və Akkad hökmdarlarının soykökünün qoruyucu

---

[1] Litke R.L. Reconstruction of the Assyro-Babylonian God-List..., p.213
[2] Litke R.L. Reconstruction of the Assyro-Babylonian God-List..., pl. XLV.
[3] Litke R.L. Reconstruction of the Assyro-Babylonian God-List..., p.238.
[4] Herzfeld E. The Persian Empire..., p.156.

tanrısı İlaba (hərfən “Ağsaqqal tanrı” > “Müdrik tanrı”) da xatırlanır.



**Şəkil 9.** Dərbəndi-Şeyxxan mətni

Quti hökmdarı Lasirabın toppuzu üzərindəki mətnində (bax: şəkil 10) deyilir: “[Qüdrət]li Las[ira]b, [Q]utiumun hökmdarı, [bu toppuzu düz]əltdi [və tanrı ?] ithaf etdi. Kim bu yazını pozsa və öz ismini yazsa, [qoy] Qutiumun tanrısı, İştar və Nanna onun özünü (?) və soykökünü məhv etsin. Səfərim zamanı...”.[1] İlahə İştarın və Ay tanrısı Nannanın quti panteonundakı qarşılıqları məlum deyil.

Quti hökmdarı Puzur-Suenin möhürü üzərində “Ay tanrısı Suenin məbədinin əbədi xidmətkarı” ifadəsi yazıllıb.[2] Puzur-

---

[1] Gelb I., Kienast B. Die Altakkadischen Königsinschriften der Dritten Jahrtausends v. Chr. Stuttgart, 1990, p.294-295; Frayne D.R. The Royal Inscriptions of Mesopotamia. Early Periods. Vol.2. Sargonic and Gutian Periods (2334-2113 BC). University of Toronto Press, 1993.2, p.228-229, Text E2.2.14.1.

[2] История древнего Востока. Зарождение древнейших классовых обществ и первые очаги рабовладельческой цивилизации. Часть I. Месопотамия. (Под ред. И.М. Дьяконова). Москва, 1983, с.260. Qeyd edək ki, quti hökmdarlarının mətnləri dəfələrlə nəşr olunsa da Puzur-Suenin belə bir yazısının olması təsdiqini tapmır. Puzur-Suen adlı başqa bir hökmdar anası Kubabanın ölümündən sonra Kiş şəhərində yeni sülalənin təməlini qoymuşdur; onun oğlu Ur-Zababa I Sarqonun böyük müasiri olmuşdur. Ola bilsin ki, quti hökmdarına aid edilən mətn Ur şəhərinin Puzur-Suen adlı canişininə aid edilməlidir.

Suenin akkadmənşəli ismi "Ay tanrısı Suenin himayəsində" anlamındadır.



**Şəkil 10.** "Qutilərin tanrısı", İştar və Zuen Lasirabın mətnində

Qutilərin panteonunda yeraltı dünyanın tanrısı (sumercə qarşılığı Nerqal) mühüm yer tuturdu; Namar vilayəti (Diyala çayının orta axarında) bu tanrının kult mərkəzi idi. Quti liderlərindən üçü – Dudu, Şu-Durul və Atalsien Nerqala yazı ithaf etmişlər. Kaşşu-Akkad sözlüyündə (bax irəli) Nerqalın 4 qarşılığı göstərilir: Tur, Şumu, Şuqamuna və Şuqab.[1] Şuqab teonimi (-**ab** sonluğuna əsasən) quti panteonuna aid edilə bilər; Şuqamuna isə, ehtimal ki, onun zövcəsi, yeraltı dünyanın xanımı idi. Ola bilsin ki, cəhənnəm tanrısı kultunun Mesopotamiyanın cənubunda yayılması quti hökmranlığının təsirinin nəticəsi idi. Şumerdə cəhənnəm tanrısının yeganə ibadət mərkəzi olan Kuta şəhəri (indiki Təll-İbrahim) quti hakimiyyətinin süqutundan sonra ictimai əhəmiyyətini itirmişdir.

Babil ədəbi ənənəsi bəzi quti hökmdarlarının ilahiləşdirildiyinə işarə edir. Belə ki, şərti olaraq "Qula-an və 17 hökmdar Naram-Suenə qarşı" adlan bədii kompozisiyada antiakkad hərbi koalisiyasına başçılıq edən quti hökmdarının akkadmənşəli ismi **gu-la-AN** (hərfən: "İlahi rəhbər" deməkdir) kimi yazılıb.[2] Ola

---

[1] Дьяконов И.М. История Мидии..., с.133-134.

[2] Westenholz J. The Legends of Kings of Akkad. Eisenbrauns: Winona Lake, 1997, pp.246-257.

bilsin ki, belə yazılış onun rəqibi olan Akkad hökmdarı Naram-Suenin ilahiləşdirildiyinə cavab kimi qəbul olunmalıdır.

Zaqros silsiləsindəki uca zirvələrin ilahiləşdirilməsi qutilər üçün də səciyyəvi olmuşdur. Belə zirvələrdən biri – Ebex (ideoqrafik ifadəsi **EN.TI**. "Həyatın sahibi"; Cəbəl-Hamrin bölgəsində lokalizə olunur) – Şumer əfsanələrində coğrafi obyekt olmaqdan əlavə, şər qüvvələrin, düşmən ölkənin məkanı kimi təsvir olunur. Bədii kompozisiyalardan biri ilahə İnannanın tanrı Ebexlə savaşına həsr olunub. İnanna Uruk şəhərinin mənəvi himayədarı, Ebex dağı isə qutilərin yayıldığı bölgə olduğundan bəzi tədqiqatçılar bu əfsanədə metaforik anlamda Urukun və Qutium ölkəsinin hökmdarları Utuheqal ilə Tirikan arasında baş vermiş hərbi qarşıdurmaya işarə olunduğunu hesab edirlər.[1]

Qutilərin siyasi tarixində mühüm rolu olan cadügarlardan (şumercə **maš-maš**) biri (əsil adı məlum deyil) sonralar ilahiləşdirildiyindən teonim siyahılarında **ku-ti-e$_2$-maš-maš** kimi qeydə alınıb.[2]

Cənubi Mesopotamiya sakinlərinin dini ideologiyasına kənardan daxil olmuş tanrılardan biri də Asarluh (və ya Asalluh) idi. Bu tanrı şumerlilərin mifologiyasına Eredu şəhərinin (indiki Abu-Şahrein) baş tanrısı Enkinin oğlu kimi daxil olmuş və yaxınlıqdakı Kuara qəsəbəsinin qoruyucu tanrısına çevrilmişdir. Mətnlərin birində bu qəsəbədə yaşayanların Şumer dilində danışmadıqlarına işarə olunur. Mətndə deyilir: **ku$_6$-a-a$^{ki}$ gim eme-gi$_7$ nu-me-en-na** "sən Kuaralılar kimi qeyri-şumercə danışırsan".[3] Amurruların siyasi yüksəlişi və Babil şəhərinin intibah çağında baş tanrı Mardukun oğlu kimi şöhrətlənən Asarluha, adətən, dualar zamanı müraciət olunurdu. Filoloji baxımdan teonimi qutilərin hakimiyyəti dövrünün Diyala höv-

---

[1] Hallo W.W. Gutium…, p.716.

[2] Deimel A. Panteon Babylonicum…, s.157.

[3] Geller M.J. Forerunners to Udug-hul: Sumerian exorcistic incantations. Wiesbaden, 1985, p.13.

zəsi mətnlərində xatırlanan "Aşşarlaq" ismi ilə müqayisə oluna bilər. Bu ismi, adətən, "Sarlaq" quti şah isminin yazılış variantlarından hesab edirlər.[1] Bununla belə, quti hökmdarı Sarlaqabın ismini Laqab teoniminə də bağlamaq olar. Suzdan tapılmış Akkad dövrü hesabat sənədlərində bu teonimlə əlaqəli şəxs adlarına (**Lu₂-ᵈLagab**, **KA/Inim-ᵈLagab** və s.) təsadüf olunur.[2]

Ötən əsrin əvvəllərində Aşşurbanapalın kitabxanasına məxsus "Tanrılr siyahısın"nda "Assara" və ondan sonra "Mazaş" adlı tanrılar xatırlanır. Bəzi tədqiqatçılar bu mətndə qədim irandilli etnosların baş tanrısı Ahura-Mazdanın adının yazıldığını iddia edirdilər. Siyahıda teonimin hər iki hissəsi qarşısında "tanrı" determinativi (sözün kateqoriyasını göstərən ideoqrafik oxunuşlu işarə) yazıldığından burada Assara və Mazaş adlı iki fərqli tanrının qeydə alındığına şübhə yarandı. Mazaşuru toponimi qutilərin yayıldığı Mannada Mazaş adlı tanrıya sitayiş olunduğunu sübut edən fakt sayıla bilər. Toponim mətndə: **ma-sa-šu-ru** (**masaš**+**uru** "Mazaşın şəhəri") kimi göstərilib.[3] Lakin həmin siyahıda komponentləri qarşısında "tanrı" determinativi yazılan digər tanrı adlarının olduğunu nəzərə alaraq Ahuramazdanın xatırlandığını qəbul edənlər də oldu.[4]

Naram-Suenlə sazişin Elam mətnində **ᵈaš₂-ha-ra** (=Mesopotamiya sakinlərinin panteonunda İşhara) adlı tanrı qeydə

---

[1] Hallo W.W. Gutium..., p.709; Ю. Ранние контакты Месопотамии с северо-восточными странами..., c.35.
[2] Scheil V., Legrain L. Textes élamites-semitiques (cinquiéme sèrie) / Mémoires de la Mission Archéologique de Perse. Tom XIV. Paris, 1913, pp.77-79.
[3] Grayson A.K. The Royal Inscriptions of Mesopotamia. Assyrian Periods. Vol.2…, p.70, text A.O.102.14.
[4] König F. W. Älteste Geschichte Meder und Perser. Leipzig, 1934, s. 58-59; Дандамаев М.А., Луконин В.Г. Культура и экономика древнего Ирана. Москва, 1980, c.306; Алиев И. Несколько замечаний на авестологическую тему. Баку, 2003, c.44.

alınıb.[1] Əgər o, Assara teoniminin qədim yazılış variantıdırsa, o halda bu tanrını qutilərə aid etmək olmaz. Cünki qutilərə qarşı yaradılan sazişin mətnində quti tanrısının Akkad və Elam tanrıları ilə bir sırada “şahid” kimi yer alması məntiqsiz görünür.

Teofor adlar sırasına quti liderləri olan Lasirabın və qardaşı Atalsienin (Namar və Urkiş şəhərlərinin hakimi) atası Şadarmatın (o, tanrı Nerqalın şərəfinə məbəd inşa etmişdir) ismi də əlavə oluna bilər. İsim Şumer mifologiyasında vəhşi təbiətin və heyvanların hamisi sayılan tanrı İştaran (və ya Sataran) ilə müqayisə oluna bilər. Sataran Şumerin şərq hüdudlarında yerləşən Der şəhərinin (indiki Bədrə) qoruyucu tanrısı idi. Şumer-Babil ədəbi ənənəsi bu tanrını əfsanəvi Gilqameşin silahdaşı Enkidu ilə eyniləşdirirdi. Şumer şəhərlərində bu tanrı fərqli adlarla (Sumukan, Messaqunuqqa) tanınırdı.[2]

Erkən Tunc dövründə Azərbaycanın şimal bölgələrində daş qutu qəbirlərdə dəfn adəti yayılmağa başlayır; bu adət daha çox Talış-Muğan bölgəsi, sonrakı mərhələdə Xocalı-Gədəbəy arxeoloji mədəniyyəti üçün səciyyəvi olmuşdur. Bəzi yerlərdə meyitin yandırılması (kremasiya) halları da qeydə alınıb.[3]

E.ə. 2030-1900-cü illərdə lullubilərin və qismən də qutilərin torpaqları elamlıların yaratdığı Simaşki konqlomeratının tərkibində birləşdirilmişdi. Şumerdilli mətnlərdə bu siyasi qurum əksər hallarda “Su adamlarının ölkəsi” adlandırılır. Qədim sözlüklərdə bu siyasi qurumun beş tanrısı xatırlanır; onların dördü hurrilərin, biri isə elamlıların tanrıları ilə eynidir:
1. Teşub (tufan tanrısı).
2. Şauşka (hərb və sevqi ilahəsi).
3. Aştupinu (hurrilərin Aştabi ilahəsinə uyğundur; “Ana ilahə” (?).

[1] König F.W. Die Elamische Königsinschriften. Graz, 1965, №2.
[2] Афанасьева В.К. Гильгамеш и Энкиду. Эпические образы в искусстве. Москва, 1979, с.29, 77, 118-120, 148.
[3] Гощгарлы Г. Типология погребальных памятников античного периода на территории Азербайджана. Баку, 2012, с.127, 131.

4. Zizanu (hurrilərin panteonundakı Zizi-ene (hərfən: "tanrı Zizi"; **-ene** koponenti hurricə "tanrı" deməkdir).
5. Lahuratil (Elam mətnlərində Lahuratil, Lahuratir, Rahuratir, Ruhuratir kimi formalarda yazılır). Bu tanrıya, əsasən, Elamın Anşan və Huhnur vilayətlərində sitayiş olunurdu. Elam mətnlərində bu tanrı, adətən, hüquqi proseduralarda tərəflərin qoruyucu tanrısı kimi çıxış edirdi.[1] Bu tanrı, eyni zamanda, Simaşki konqlomeratının səkkizinci hökmdarı olan Tan-Ruhuraterin soyunun himayədarı idi. Maraqlıdır ki, arxeoloji qazıntılar zamanı Həsənli qədim şəhər yerindən (Urmiya gölündən 50 km cənubda) bu hökmdara məxsus iki toppuz başlığı aşkar olunmuşdur.[2] Bu unikal tapıntı bir daha təsdiq edir ki, Azərbaycanın cənubu, qismən də olsa, Simaşki-Elam dövlətinin siyasi təsir sferasına daxil edilmişdi.

Cənubi Urmiya hövzəsinin mühüm etnik qruplarından olan turukkuların (e.ə. XXII-XIV əsrlərdə Bukan, Raniyə, Uşnu, Sulduz ovalıqlarının sakinləri) dini inancları haqqında məlumat yoxdur.

Göytəpə arxeoloji abidəsinin (Urmiya gölünün qərb sahilində) Son Tunc dövrünə aid D təbəqəsindən (e.ə. 1500-1450-ci illər) aşkara çıxarılmış qəbir abidə qutilərin axirət dünyası ilə bağlı inancları haqqında müəyyən təsəvvür yaradır. Bu məskənin sakinləri ölülərini torpaq qəbirlərdə, ya da daş qutularda dəfn edirdilər. Göytəpənin qəbir kompleksindən 12 məzar tədqiq olunub: onlardan dördü daş qutu, səkkizi torpaq qəbirlərdir; torpaq qəbirlərin birində kollektiv dəfnetmə qeydə alınıb. Kollektiv məzarların birində cəsəd uzadılmış vəziyyətdə (başının altına qədəh qoyulub), dördü bükülmüş halda, daha

---

[1]Ungnad A. Subartu. Beitrage zur Kulturgeschichte und Völkerkunde. Berlin, Leipzig, 1936, s.66; Konig F.W. Die Elamische Konigsinschriften..., ss.211, 227; Хинц В. Государство Элам. Москва, 1977, с.50, 103.
[2] Dayson R. The Iron Age Architecture at Hasanlu: An Essay // Expedition, 1989, Vol.31, №1-2, p.123.

ikisi oturaq vəziyyətdə məzarın küncündə yerləşdirilib; son iki skeletin qullara aid olduğu güman edilir. Məzarlıqda axirət tanrısının şərəfinə (?) kəsilmiş qurbanlıq qoyunun sümükləri də tapılıb. Qəbir abidənin ailə məzarlığı və ya xidmətçiləri ilə birgə dəfn olunmuş icma başçısının məzarı olduğunu güman etmək olar.[1] Dəfn adətindəki fərqliliyin səbəbi məlum deyil.

E.ə. I minilliyin əvvəllərində Urmiya gölü hövzəsində məskunlaşan etnik qruplar sırasına daha biri – kaşşular əlavə olunurlar. Qədim yunan dilində fışıltılı **-š-** səsi olmadığından yad sözlərin yazılışı zamanı onu **-s-** fonemi ilə əvəz edirdilər; bu səbəbdən kaššu etnonimi **κισσιοι**, **κοσσαιοι**, əsasən də **κασπιοι kimi** formalarda verilirdi. Ola bilsin ki, e.ə. V əsrdə və nisbətən sonralar eyni dilin müxtəlif dialektlərində danışan kaspilər, kosseylər və kissilər öz etnik identikliklərini qoruyub saxladıqlarından Herodot və sonrakı antik müəlliflər onları fərqli qruplar kimi təqdim etməli olmuşlar. Bəzi tədqiqatçılar hesab edirlər ki, **κισσιοι** e.ə. 500-cü illərin, **κοσσαιοι** e.ə. 300-cü illərin tələffüs formaları olmuşdur. Elmi ədəbiyyatda onları "kaspi" adı altında ümumiləşdirilirlər. Göstərilən dövrdə bu etnos Luristanda, Puşt-i Kuh və Piş-i Kuh dağlıq massivlərində də aparıcı toplum olmuşdur.[2]

Kaşşuların e.ə. II minillikdən Urmiya hövzəsi ilə bağlılığı arxeoloji tapıntılarla da təsdiq olunmuşdur. Həsənli sarayının arxeoloji qazıntıları zamanı tapılmış və üzərində Babilistanin şahı I Kadaşman-Enlilin (e.ə. 1374-1360) ismi yazılmış daş su qabı kaşşuların Urmiya gölündən cənubdakı torpaqlara

---

[1] Brown B.T. Excavation in Azerbaijan. London, 1951, p.69; Дьяконов И.М. История Мидии..., с.120; Алиев И. История Мидии..., с.159-160; Медведская И.Н. Иран в начале железного века. Санкт-Петербург: Наука, 2019, с.69-70.

[2] Herzfeld E. The Persian Empire.., pp.191-200, 303; Фрай Р. Наследие Ирана…, с.90,92, 95; Potts D.T. The Archaeology of Elam..., p.374.

sahibləndiyini təsdiq edir.[1]

1882-ci ildə Hörmüzd Rəssam Babildə arxeoloji qazıntılar apararkən Kaşşu-Akkad sözlüyünü aşkara çıxarmışdır. Qismən zədəli lüğətdə 25 kaşşu sözünün Babil dialektində qarşılığı göstərilir (bax: şəkil 11).



**Şəkil 11.** Kaşşu tanrıları qədim sözlükdə.

Sözlük 13 teonimlə (tanrı ismi) başlayır. Məlum olur ki, kaşşular Şihu (və ya Şipak, "Ay"; Babilistanın baş tanrısı Mardukun funksiyalarından birini icra edirdi), Sah ("Günəş"),

---

[1] Dyson R.H. The Hasanlu Project. 1961-1967 / The Memorial Volume of the V th International Congress of Iranian Art and Archaeology. Vol. I, Tehran, pp.49-55.

Şuriyaş (hərfən "Yeri işıqlandıran" > "Günəş"; Babilistanda Şamaşın qarşılığı), Ubriyaş (və ya Buriaş, Burariaş "Tufan"), Hudha ("Şimşək"), Qidar ("Müharibə"), Hala (və ya Şala; "Təbib", hərb tanrısı Qidarın xanımı, sümbül ilə simvolizə olunurdu), Kamulla ("Su"; Babil panteonunda tanrı Eanın qarşılığı), Şuqab[1] ("Cəhənnəm alovu"), Dur (və ya Turqu; hərfən "Aşağı" > "Cəhənnəm"), Şugurra ("Dağ"; Babilistanda Mardukun funksiyalarından birini icra edirdi), Mirizir ("Xanım"; torpaq və bərəkət tanrısı olmaqla babillilərin Belet və İştar ilahələrinin qarşılığı kimi çıxış edir; astroloji mətnlərdə Veneranı simvolizə edir) kimi tanrılara sitayiş edirdilər. Iki Günəş tanrısından biri, ehtimal ki, doğan günəşi, digəri isə batan günəşi simvolizə edirdi. İki hərb tanrısından biri, ehtimal ki, müharibəni, digəri isə sülhü simvolizə edirdi. Yeraltı dünyanı simvolisə edən tanrılardan biri cənnət, digəri isə cəhənnəmlə bağlı ola bilərdi. Kaşşu panteonunda funksiyası bəlli olmayan Kuşuh adlı tanrı da yer tuturdu. Nuzi mətnlərində Kip-Kuşuh teofor ismi qeydə alınıb.[2] Kaşşu panteonunun başında bu xalqın etnik adı ilə həmahəng səslənən tanrı Kaldu dururdu. Babil mirzələri onun ismini bəzən Kaşşu, zövcəsinin adını isə Kaşşitu formasında yazırdılar.[3] Kaşşu hökmdarlarının soyunun qoruyucusu olan bu tanrı Nuzi mətnlərində xatırlanan şəxs adlarında əsas komponent kimi çıxış edir.[4]

---

[1] İ.M. Dyakonov yanlışlıqla bu teonimi "Şumu" kimi oxuyur Bax: Дьяконов И.М. История Мидии..., с.133, прим.2. Buna səbəb **-gab-** və **-mu-** hecalarını ifadə edən mixi işarələrin zahiri bənzərliyidir. Bax: Labat R. Manuel d'éigraphie Akkadienne.., №№ 167, 61.

[2] Oppenheim L. Studien ze den nichtsemitischen Nuzi-Namen // Archiv für Orientforschung. Graz, 1937, Band 12, Heft ½, 1937, s.34.

[3] Алиев И. История Мидии…, с.80-81.

[4] Məsələn, Apil-Kaldu ("Kaldunun oğlu"), Zivir-Kaldu, Huşşi-Kaldu/Qalzu, Haşmar-Galdu ("Kaşşu qartalı") və s. Bax: Oppenheim L. Studien ze den nichtsemitischen Nuzi-Namen..., s.32, anm. 3.

Kaşşu panteonunda Duniaş (hərfən: "Yeri bəxş edən"), Harbe (tanrılar siyahısında Babil panteonunda Enlil, Anu və Beel kimi tanrıların qarşılığı kimi göstərilir; tanrı Harbeni quş simvolizə edirdi), Marutaş (və ya Murutaş; hərb tanrısı; adı qədim hindlilərin əsatirlərindəki (Vedlərdə) tanrı Marut ilə müqayisə olunur), Şimalia (dağlar ilahəsi), Şuqab (Babilistanda Mardukun funksiyalarından birini icra edirdi) kimi tanrılar da yer alırdı.

Hurrilərin toplu halda yaşadığı Nuzi şəhərinin (indiki İraqda Yorğantəpə) e.ə. II minilliyin ortalarına aid təsərrüfat sənədlərində kaşşumənşəli şəxs adı – Burra-Alban – qeydə alınıb.[1] Adın tərkibindəki **burra**- komponenti kaşşu-babil mənşəli hibrid isimlərdə də (Burra-Enlil, Burra-Harbe, Burra-Marduk, Burra-Laquda, Burra-Maşhu və s.) qeydə alındığından ehtimal olunur ki, Burra-Alban isminin ikinci komponenti – Alban – teonim olmuşdur. Bu səbəbdən Burra-Alban teofor ismi "Tantı Albanın qulu" kimi mənalandırılır.[2]

Son Tunc-İlk Dəmir dövrünə aid Gəncəçay məzarlığının daş qutu qəbirlərinin birində mərhumla yanaşı saxsı qablar və silah da yerləşdirilib (bax: şəkil 12).[3] Talış-Muğan zonasında həmin dövrə aid 2 bölmədən ibarət daş qutu qəbirlər tədqiq olunmuşdur; onların birində mərhum, digərində dəfn avadanlığı yerləşdirilirdi.[4]

---

[1] Clay T. Personal Names from Cuneiform Inscriptions of the Cassite Period. New Haven 1912, p.154.

[2] Balkan K. Kassitenstudien.1. Die Sprache der Kassiten. / American Oriental Series. New Haven, 1956, Vol. 37, ss.50, 101, 121; Jaritz K. Die Kassiteschen Sprachreste // Antropos, 1957, Band 52, fasc. 5-6, s. 867. Kaşşuların dilində **burra** < **burna**, urartuca **bura** "qul", "kölə". Bax: Мещанинов И.И. Аннотированный словарь урартского (биайнского) языка). Ленинград, 1978, с.91-93. Ola bilsin ki, tanrı Alban Qafqaz albanlarının dini etiqadında da önəmli rola malik olmuşdur.

[3] Гошгарлы Г. Типология погребальных памятников..., с.228, табл. XXIII.

[4] Гошгарлы Г. Типология погребальных памятников…, с.132.



**Şəkil 12**. Gəncəçay məzarlığında daş qutu qəbir

Çoxallahlılıq mannalıların da dini ideologiyasının əsasını təşkil edirdi. Lakin Manna tanrılarının adları bizə məlum deyil. Həsənlidən tapılmış 20,6 sm x 28 sm ölçüsündəki qızıl cam (e.ə. 1250-900-cü illərə aid edilir) üzərində tanrıların şərəfinə təşkil olunmuş dini ayinlə bağlı mifoloji mövzu əks olunmuşdur (bax: şəkil 13). Tətbiqi incəsənətin şedevr nümunəsi olmaqla yanaşı, ritual mahiyyətli bu qab onu yaradanın və bütövlüklə təmsil etdiyi etnosun və bölgənin dini-mifoloji təsəvvürlərinin bərpa olunmasında əvəzsiz ilk mənbədir.[1] Qabın üzərində mətn yoxdur, bütün səthi şərti olaraq 3 horizontal zolağa bölünüb. Üst cərgədə üç tanrı, hər biri öküzə qoşulmuş arabada, silahsız halda, təsvir olunub. Bu tanrıları bir-birindən özünəməxsus əlamətlər, onların statusunu göstərən detallar fərqləndirir. Onlardan biri buynuzlu baş geyimində təsvir olunub. Yeri gəlmişkən, Elamda bu tip baş geyimindən dini ayinlərin icrası zamanı istifadə olunurdu. Bu fakt Elamın siyasi və dini mərkəzi Suzdan tapılmış möhürlərdə (onlar

[1] Diba P. Le Vase en or de Hasanlu // Iran, 1965, Vol.III, pp.127-132.

e.ə. IV minilliyin sonuna aid edilir) dini ritualla əlaqədar personajın təsvirində rast gəlinir.[1]

Akkad hökmdarı Naram-Suen lullubilər üzərində qələbəni tərənnüm edən "Qələbə slelası" üzərində bu tip baş geyimində təsvir olunub. Naram-Suen tarixdə özünü tanrı elan edən ilk hökmdar kimi tanınır. Fraqmentar gil tablet üzərində Naram-Suen buynuzlu baş geyimində dağın üzərində durmuş vəziyyərdə təsvir olunub. Maraqlıdır ki, həmin tabletdə Naram-Suenin qarşısında buynuzlu baş geyimində qadın, ondan arxada isə qurbanlıq quzu gətirən ucaboylu personaj təsvir olunub.[2] Buynuzlu baş giyimindəki qadın obrazının buynuzlu tanrı qarşısında təsviri e.ə. I minillikdə Elam təsviri incəsənəti üçün səciyyəvi olaraq qalırdı.[3]



**Şəkil 13.** Həsənli qızıl camı üzərində ritual təsvirlər.

Qab üzərində təsvir olunmuş digər tanrının baş geyimi qanadlı disk formasındadır. "Qanadlı disk" təsviri e.ə. II minillikdə Misirdə tanrını simvolizə edirdi. Bisütun qayasına həkk olunmuş barelyeflərdən görünür ki, e.ə. VI yüzilliyin sonlarında parslar bu simvolu insan təsviri ilə kombinə etməklə

---

[1] Афанасьева В.К. Гильгамеш и Энкиду..., с.39, рис. 15.
[2] Афанасьева В.К. Гильгамеш и Энкиду..., с.133, рис. 40.
[3] Potts D.T. The Archaeology of Elam…, fig. 6.8.

baş tanrıları Ahuramazdanı ifadə edirdilər. Xeyli sonralar Sasani şahənşahları zərb etdirdikləri sikkələr üzərində “qanadlı disklə” bəzədilmiş baş geyimində təsvir olunurdular. Qab üzərində təsvir olunmuş üçüncü tanrının baş geyimi yoxdur, onun məhz tanrı olduğu qanadlarından bilinir. Öndə gedən baş tanrını (ölçülərinin böyüklüyü bunu söyləməyə əsas verir) əlində piyalə tutan və qurbanlığa iki qoç gətirən personajlar “qarşılayır”.

Mannalıların etno-dil baxımından hurrilərə və biaynililərə (=urartulular) qohum xalq olduğu fikrini dəstəkləyən tədqiqatçılar hesab edirlər ki, bu təsvir hurrilərin panteonunda önəmli yer tutan tanrı Kumarbeyə (hetlərin də inanclarına daxil edilmişdir) həsr olunub.[1] E.ə. XIV-XIII əsrlərin qovşağında yazıldığı ehtimal edilən het dilindəki (hind-Avropa makro-dil ailəsinə mənsub olan ilk yazılı dil) “Səma şahlığı” adlı mifoloji mətndə hurri tanrılarınən yaranışından bəhs olunur. Mətndə deyilir ki, baş tanrı Alalu[2] tufandan 9 il sonra oğlu Anu tərəfindən qətlə yetirilir. Növbəti 9 ildən sonra Kumarbi atası Anuya qəsd edir, Anunun yerə dağılan toxumlarından şimşək tanrısı Teşub yaranır. Başqa bir het əfsanəsində deyilir ki, Kumarbi ehtiyat edir ki, Teşub nə vaxtsa, Enki, Enlil və Hebat kimi tanrıların xəbəri olmadan ona sui-qəsd edə bilər. Özünü qorumaq üçün dənizin dibində daş cüssəli Ullikumi adlı bəd-heybəti yaradır. Lakin Teşub asi olan digər tanrıların yardımı ilə

---

[1] История древнего Востока. Зарождение древнейших классовых обществ и первые очаги рабовладельческой цивилизации. Часть вторая. Передняя Азия, Египет. Москва, 1988, с.86.

[2] Bu ismin mənşəyi daha qədim dövrlərə dayanır, lakin mənası bilinmir. Şumerlilərin tarixi təsəvvürlərinə görə onların dövlətçiliyinin təməlində Alalqar və Alulim adlı hökmdarlar durmuşlar. Tarixi ənənə hər ikisini Eredu şəhər-dövlətinin ilk nümayəndələri kimi təqdim edir. Bax: Jacobsen T. The Sumerian King List…, pp.80-81.

Kumarbini və onun yaratdığı bəd-heybəti məhv edə bilirlər.[1]

Hər iki əfsanədə Şumer-Babil mifologiyasının təsiri hiss olunur. Belə ki, Alalu, Anu, Kumarbi və Teşub müvafiq olaraq Şumer panteonunda Apsu (okean), An (səma), Kinqu və İşkur (Babilistanda və Aşşurda Adad) personajlarına uyğundur. E.ə. XIII əsrdə Teşub, Hebat və digər hurri tanrıları Aşşur dövlətində də sitayiş obyektinə çevrilmişlər.[2]

Qeyd etmək lazımdır ki, Urmiya gölünün qərb sahili boyu hurrimənşəli əhali yaşayırdı və onların inanclarında Kumarbinin önəmli yer tutması təbii görünür. Bu bölgə e.ə. XV-XIII əsrlərdə hurrilərin Mitanni şahlığının (aşşurlular bu dövləti Haniqalbat, misirlilər isə Naharina adlandırırdılar) tərkibində olduğundan antik müəlliflər, o cümlədən Strabon. Urmiya gölünü "Matiena" adlandırırdılar.

İlk nəzərdən qabın üzərində təsvir olunmuş tanrıları hurrilərə genetik bağlılığı olan urartuluların panteonundakı üçlüklə – Haldi, Teyşeba və Şivini – müqayisə etmək cəlbedici görünür. Lakin qabın üzərində iribuynuzlu heyvanların təsvir olunmaması bu fikri şübhə altına alır. Belə ki, dini ayinlərin icrası zamanı urartulular hər üç tanrıya davarla yanaşı iribuynuzlu heyvanlar da qurban edirdilər. Maraqlıdır ki, Azərbaycanın

---

[1] Мифология древнего мира. Москва, 1977, с.176-192; Leick G. Dictionary of ancient Near Eastern Müthology. London-New-York, 1998, p.106

[2] Лессёэ Й. Древние ассирийцы. Покорители народов. Москва, 2012, с.150. Sonralar bu əfsanələr yunan mifoloji təsəvvürlərinə daxil edilmişdir. Belə ki, yunan mifologiyasında Uraniusun (bəzi versiyada Zevs) atası Kronosu öldürməsi səhnəsini xatırladır. Bundan başqa, xalatının önünü əlləri ilə yanlara açan lüt qadının təsvirini hurrilərin panteonundakı ilahə Savuşka ilə eyniləşdirmək olar; bu ilahə təsviri sənət nümunələrində belə vəziyyətdə təsvir olunurdu. Bax: История древнего Востока. Зарождение древнейших классовых обществ и первые очаги рабовладельческой цивилизации. Часть вторая..., с.84.

tarixi torpaqlarında tapılan Urartu kitabələrində daha çox bu üç tanrının adı çəkilir. Məhdud sayda qadın tanrıya qurbanlıq yalnız xırdabuynuzlu heyvanlardan edilirdi.[1] Qab üzərində təsvir olunanlar isə açıq-aşkar kişi tanrılardır.



**Şəkil 14.** Urartunun baş tanrısı Haldi

Qabın orta zolağında təsvir olunanların (dua edənlər və oxla silahlanmış asayişə cavabdeh silahlı personaj) bu üç tanrı ilə bağlılığını yalnız güman etmək olar. Digər təsvirlər birbaşa ayin prosesini deyil, fərqli mifoloji görüşləri əks etdirir. Məsələn, qartal üzərində insan təsviri Kiş şəhər-dövlətinin hökmdarı Etana ilə (e.ə. XXIX əsr) bağlı əfsanəni xatırladır. Əfsanəyə görə, Etana qartal qanadlarında ölkələri səyahət etmiş və sonda zövcəsi üçün sonsuzluğa qarşı dərman bitkisini tapa bilmişdir.[2] Həmin zolaqda aslan üzərində insan təsviri Urartu

---

[1] Меликишвили Г.А. Древневосточные материалы по истории народов Закавказья..., с.373.

[2] История древнего Востока. Зарождение древнейших классовых обществ и первые очаги рабовладельческой цивилизации. Часть I.

qabartmalarında tanrı Haldinin təsviri ilə eynilik təşkil edir; fərq Haldinin qanadlı göstərilməsindədir (bax: şəkil 14). Qab üzərindəki üçbaşlı əşdahanın (?) analoqunu qədim xalqların mifologiyasında tapmaq mümkün olmayıb.

Həsənli camının sonuncu zolağında iki nəfərin bir personajı qollarından və saçlarından tutmasını, bir qadının taxtda (?) oturmuş hökmdara (?) körpə (varis ?) verməsini və aslan cəsədinin anlamını yozmaq çətindir.

Çox ehtimal ki, qabın üzərində iki mühüm tarixi hadisənin – siyasi əhəmiyyətli olayla hansısa kütləvi dini ayinin üs-üstə düşməsinin rəsmi qeyd olunma səhnəsi təsvir olunub. Hələlik Cənubi Azərbaycandan tapılan qeyri-adi və yeganə ikonoqrafiya nümunəsi olduğundan qabın üzərindəki təsvirlərə verdiyimiz yozum ehtimal olaraq qalır.

Həsənlidə tapılan daş su qabı üzərindəki yazıdan məlum olub ki, bu yerdə salınmış şəhər e.ə. IX əsrdə İda adlanırdı və burada Günəş tanrısı Uşişiyə sitayiş olunurdu. Mətndə deyilir:

"İda ölkəsinin hökmdarı Baurinin (və ya Kaurinin) sarayından. Günəş tanrısı Uşişiyə [ithaf olunur]". Ola bilsin ki, Uşişi qutilərin panteonuna aid edilməlidir, çünki İran yaylasında qutilərin yayıldığı bölgələrdə onun şərəfinə kult mərkəzləri kimi tanınan şəhərlər mövcud idi. Uşişi şəhərinin başçısı Akkussu digər şəhər başçıları ilə birlikdə e.ə. 714-cü ildə Aşşur hökmdarı II Sarqona ev heyvanlarından ibarət xərac göndərmişdir.[1]

---

Месопотамия..., с.163, 168. Azərbaycan xalq nağıllarında Zümrüd quşunu xatırladır.

[1] Qədim Azərbaycan tarixi mixiyazılı mənbələrdə..., s.31. Günəş tanrısı Uşişinin kult mərkəzlərindən biri də Aşşur dövlətinin Həmədandan qərbdə yaratdığı Harhar əyaləti yaxınlığında Uşişi şəhərində yerləşirdi. E.ə. 670-ci illərin əvvəlində bu şəhərin sakinləri anti-Aşşur üsyanına qatılmışlar. Bax: Qədim Azərbaycan tarixi mixiyazılı mənbələrdə..., s.68, 91.




**Şəkil 15**. Manna “sfinksləri”.

Qalaiçi (Bukandan 8 km aralı) və Rabattəpə (Sərdəştdən 5 km şərqdə) yaşayış məntəqələrinin ərazisində yerləşən Manna şəhərlərində aparılan qazıntılar zamanı üzərində insan başlı qartal qanadlı şir (və ya öküz) görkəmində mifoloji varlığın təsvirləri həkk olunmuş şirli kərpiclər tapılmışdır. Antropomorf təsvirlərin birində qadın başlı qanadlı şir (və ya öküz) diqqət çəkir (bax: şəkil 15b). Arxeoloqlar bu təsviri “Rabattəpə sfinksi” adlandırırlar. Ehtimal ki, məhz bu mifoloji varlıq qismən fərqli vəziyyətdə başqa bir şirli kərpic üzərinə həkk olunub (bax: şəkil 16). Bu təsviri Şumer-Babil panteonundakı Cəhənnəm ilahəsi Ereşkiqal ilə eyniləşdirirlər. [1] Qalaiçidən tapılmış kərpic üzərindəki kişi başlı antropomorf təsvir (bax: şəkil 15a)[2] isə Aşşur və Babilistan saraylarının girəcəyinə yerləşdirilən qoruyucu mələyi xatırladır. Şumer-Akkad mifologiyasında bu personaj müvafiq olaraq **lamassu** və **šedu** adlanırdı.

---

[1] Kargar B., Binandeh A. A Preliminary Report of Excavations at Rabat Tepe, Northwestern Iran // Iranica Antiqua, 2009, Vol. XLIV, p. 126, Pl. 7; Marf D.A.M. Cultural İnteraction between Assyria and the Northern Zagros. Retrieved from https://hdl.handle.net/1887/41455, pp.196, 208-210.

[2] Hassanzadeh Y. An Archaeological View of the Mannean Kingdom // Asia Anteriore Antica/ Journal of Near Eastern Cultures, 2002, Vol. 4, p.33, fig. 5.



**Şəkil 16.** Mannanın “Cəhənnəm ilahəsi”.

1990-cı illərdə Bukandan 8 km məsafədə Təpə-Qalaiçi adlanan yerdə üzərində arami dilində mətn yazılmış saxsı qab tapılmışdır. E.ə. VIII əsrə aid edilən mətndə sitayişi daha çox Şimali Suriyada yayılmış Hadada adlı tanrı xarırlanır.[1] Bu fakt qərbi sami qruplarından birinin Mannada məskunlaşdığını göstərir.

Bibliyanın məlumatları dolayısı ilə Mannada, məhdud da olsa, iudaizmin mövcudluğunu söyləməyə əsas verir. Bu səmavi kitabın məlumatlarını təhlil edən tədqiqatçılar qeyd edirlər ki, e.ə. 721-ci ildə Aşşur hökmdarı II Sarqon İzrail şahlığı ilə müharibədə paytaxt Samariyanı dağıtmış, təqribən 30 min əhalini (əsasən Qərbi sami mənşəli aramiləri və yəhudiləri) deportasiya etmişdir. Sürgün olunanların bir qismi “madalıların yaşayış yerlərində” (**‘ārē mādāj**), təbiidir ki, həm də Madanın tərkibində olan Manna torpaqlarında yerləşdirilmişdir. [2]

---

[1] Mollazadeh, K., The Pottery from the Mannean Site of Qalaichi, Bukan (NW-Iran) // Iranica Antiqua, 2008, Vol. 43, pp.107-125; Hassanzadeh Y. Qal'e Bardine, a Mannaean local chiefdom in the Bukan Area, North-Western Iran // Archaologische Mitteilungen aus İran and Turan, 2009, Band 41, pp.269-282.

[2] Дьяконов И.М. История Мидии..., с.208, прим. 6; Алиев И. История Мидии..., с.186, прим. 1. Elmi ədəbiyyatda bu hadisə bəzən

Bibliyada siyasi tariximizin Mada dövrü ilə bağlı, xüsusilə, Mada-Babil koalisiyasının Aşşur dövləti ilə müharibəsi (e.ə. 615-605-ci illər) haqqında yazılanlar Mannanın yerli sakinlərində İzrail və Yahuda şahlıqlarında baş verən peyğəmbərlik hərəkatı haqqında müəyyən təsəvvürlərin olduğuna dair ehtimal üçün əsas yaradır. Məhz Cənubi Azərbaycandan keçməklə xeyli sonralar qərbi sami mənşəli əhali qrupu indiki Quba bölgəsinə yerləşmiş, iudaizmi təbliğ etməklə kifayətlənməyib, bu dini xəzərlər arasında yaymağa da nail olmuşlar.

Mannanın vilayətlərinin birində oda sitayişin (atəşpərəstlik) yayıldığını istisna etmək olmaz. Bu ehtimal hələlik yalnız bir fakta əsaslanır. Urartulular Mannanın "şah şəhərini" "Şimerihadiri" adlandırırdılar. Şəhər bu adla yalnız I Arqiştinin salnaməsində, e.ə. 768-ci ildə baş vermiş hərbi yürüşün təsviri ilə əlaqədar xatırlanır.[1] Görünür bu yerin sakinləri elamlılara yaxın etnik qrup (lullubilər ?) olmuşdur. Maraqlıdır ki, irandilli toplumlarda sakral anlamda işlənən **atar** ("atəş", "alov") sözünün elamca transkripsion forması olan -**hadr**[2] Şimerihadiri şəhərinin adında da nəzərə çarpır. **Šimeri** – komponenti də ehtimal ki, Aşşur hökmdarı II Sarqonun e.ə. 714-cü il hərbi yürüşünü tərənnüm edən "Tanrı Aşşura məktub"unda xatırlanan Zimur oroniminin elamca transkripsion formasıdır. Mənbədə Mannanın şimal-şərqində yerləşən bu dağ "Yəşəm daşından olan Zimur dağı" adlandırılıb.[3] Bu oronim fonetik baxımdan Təbrizin

---

yanlışlıqla III Tiqlatpalasarın adı ilə əlaqələndirilir. Bax: Gürkan Gökan L. Asurlular. Ankara, 2015, s.159.

[1] Mətndə: **URU. ši-me-ri-ha-di-ri-ni URU. LUGAL.-nu-si** ("Şimerihadiri – möhkəmləndirilmiş şah şəhəri"). Bax: Арутюнян Н. Корпус урартских клинообразных надписей..., № 176.

[2] Misallara dair bax: Əlimirzəyev A. İlk atəşpərəstlər mixi yazılı mənbələrdə // BDU İlahiyyat fakültəsinin elmi məcmuəsi, 2015, № 23, s.214-217.

[3] Qədim Azərbaycan tarixi mixiyazılı mənbələrdə..., s.73.

yaxınlığındakı Zeimur[1] ilə eyniləşdirilə bilər. **Šimeri**- (Aşşur orfoqrafiyasında **Zimur**) komponentinə əsasən Şimerihadiri şəhərini Təbriz yaxınlığında lokalizə etmək lazımdır.

Güman etmək olar ki, aşşurluların "İzirtu" adı ilə tanıdıqları Manna paytaxtını urartulular "Şimerihadiri" adı ilə təqdim edirdilər. Bu məntiqlə Şimerihadiri və İzirtu adları semantik eyniliyə malik ola bilər. Belə ki, İzirtu adının birinci komponenti (**izi**-) şumerlilərin dilində "od", "alov" mənasında işlənirdi.[2]

Bu xüsusda fərqli ehtimal da irəli sürmək olar. Ola bilsin ki, e.ə. VIII əsrin birinci yarısında Mannanın iki paytaxtı olmuşdur; İzirtu siyasi mərkəz funksiyasını daşıdığı halda, Şimerihadiri dini-ideoloji mərkəz rolunu icra edə bilərdi. Müqayisə üçün deyək ki, həmin dövrdə Urartunun siyasi mərkəz Tuşpa, dini-ideoloji mərkəzi isə Musasir şəhərləri olmuşdur.

E.ə. II minilliyin ikinci yarısında Urmiya gölü hövzəsinin dəfn adətlərində dəyişiklik nəzərə çarpır. Köhnə prosedurlar (məzarlara mərhuma məxsus əşyaların və qidanın qoyulması, cəsədin yandırılması, külünün qəbirin bir küncündə yerləşdirilməsi, skeletin sağ və ya sol çiyni üstə basdırılması və s.) gözlənilsə də, dəfn prosesi əvvəlki kimi evlərin döşəməsi altında yox, yaşayış yerindən kənarda salınmış qəbiristanlıqda həyata keçirilirdi. M.Rad, A.Hakemi və R.Daysonun Həsənli nekropolunda apardıqları arxeoloji qazıntılar Mannada da dəfn adətləri haqqında müəyyən təsəvvürün formalaşmasına imkan yaratdı. Dəfn zamanı ölülər məzara konkret bir istiqamət üzrə yox, qarışıq vəziyyətdə (bükülü halda, sağ və ya sol böyrü üstə, bəzən də arxası üstə uzadılmış halda) qoyulurdu. Məzara mərhuma aid olan əşyalar (silahlar, bəzək-zinət əşyaları, ərzaqla

---

[1]Tourovets A. The Assyrian Itıneraries in the Zagros during the reign Sargon II ($6^{th}$ and $8^{th}$ campaigns) and the question about the correlation between Toponymy and Geography // Iranian Journal of Archaeological Studies, 2015, Vol. 5, p.22.

[2] Deimel A. Šumerisches Lexikon. III Teil Band I. Šumerisch-akkadisches Glossar. Roma: Verlaq des Papstl. Bibelinstitut, 1934, s.133.

dolu saxsı qablar və s.) qoyulurdu. Məzarlardan ev heyvanlarının sümüklərinin tapılması dəfn mərasimi zamanı qurban kəsilməsindən xəbər verir. Belə bir vəziyyətlə Həsənlinin IV B təbəqəsinə aid məzarda qarşılaşırıq (bax: şəkil 17).[1] Həsənlinin IV-V təbəqələrindən 4 ədəd tunc xəncər (onların nümunəsi qızıl cam üzərində təsvir olunub (bax: şəkil 13) və dəmir ox ucluqları aşkarlanıb.[2]



**Şəkil 17.** Həsənlidə insan dəfni.

Dinhətəpədə (Həsənlidən 24 km aralı) e.ə. I minilliyin əvvəllərinə aid 33 qəbir abidəsi tədqiq olunub. Onların bəziləri

---

[1] Dyson R.H. The Iron Age Architecture at Hasanlu // Expedition, 1989, Vol. 31, № 1-2, p.109.

[2] Медведская И.Н. Иран в начале железного века…, с.87, 111, 166, прим. 18.

torpaq qəbirlərdir, bəzilərinin tikintisində çiy kərpicdən istifadə olunub. Qəbrlərin əksəriyyəti təpənin şimal hissəsində cəmlənib və bəzilərində yan divar çiy kərpicdən hörülüb. Uşaqları iritutumlu saxsı qablarda dəfn edirdilər, bəzi uşaqlar torpaq qəbirlərdə basdırılıb.

Dəfndən əvvəl mərhumu yandırır, külünü inventarla birlikdə basdırırdılar. Kişilər, qadın və uşaqlar eyni adətlə dəfn olunurdular. Meyit bükülmüş halda, sağ və ya sol böyrü üstə basdırılırdı və başları daha çox şimal, ya da cənuba doğru istiqamətlənirdi. 31 qəbrin 14-ündə baş cənuba, 11-ində şimala, 5-ində şərqə, yalnız bir halda qərbə istiqamətlənib. Maraqlıdır ki, sol böyrü üstə basdırılanların başı şimala, sağ böyrü üstə dəfn olunanların başı cənuba istiqamətlənib. III Dəmir dövrünə aid edilən qəbirlər inventar baxımından daha qədim məzarlardan fərqlənmir. Qəbirlərə adətən 1-dən 5-ə qədər əksəriyyəti qulpsuz olan saxsı qablar (bəzi qablar "qəfədan" formalıdır) da qoyulub; boşqab formalı qablarda heyvan sümükləri tapılıb. İnventar meyitin istənilən tərəfinə qoyula bilərdi. Qəbirlərdən həmçini tuncdan düzəldilmiş bıcaq, nizə və ox ucluqları, üzük, iynə, sancaq xəncər, muncuqlar və s. tapılıb. Bütün bunlar bölgə sakinlərinin axirət dünyası haqqında formalaşmış təsəvvürlərindən xəbər verir. Dördüncü arxeoloji təbəqədə iki kollektiv məzarlıq aşkar olunmuşdur.[1]

Urmiya hölü hövzəsinin digər iki arxeoloji aidəsinin – Yanıqtəpənin və Kordlartəpənin – həmdövr qəbirlərinin inşasında saman qarışıqlı gildən istifadə olunduğu və məzarlara əl ilə hazırlanmış qabların qoyulduğu müəyyən edilmişdir.[2]

E.ə. 800-650-ci illərdə Azərbaycanın tarixi qərb və cənub torpaqları Urartu hökmdarlarının hərbi yürüşlərinə hədəf olmuş,

---

[1] Stein A. Old Routes of Western Iran, London, 1940, pp.373-375; Талаи Х. Археология и искусство Ирана в I тыс. до н.э. Москва, 2011, с.209-210; Медведская И.Н. Иран в начале железного века…, 2019, с.67-69.

[2] Талаи Х. Археология и искусство Ирана в I тыс. до н.э..., с.86-87.

bir qismində, hətta, Urartu dövlətinin əyalət sistemi yaradılmışdır. Təbiidir ki, siyasi nüfuz dairəsinə düşən ərazilərin idarə olunması hərbi nəzarətlə yanaşı, dini-ideoloji təbliğatın hesabına da həll olunurdu. İşpuininin "Məhər qapısı" adlanan abidəsi üzərində həkk olunan kitabəsində 50-yə yaxın tanrı adı sadalanır.[1] Urartuluların panteonuna ali üçlük (triada) başçılıq edirdi və mətnlərdə onlar mifoloji iyerarxiyada tutduqları mövqeyə uyğun ardıcıllıqla sadalanırdılar. Haldi (və ya Aldi) səma və hərb tanrısı idi, Teyşeba (=hurrilərdə Teşub) şimşəyi, Şivini isə günəşi simvolizə edirdi. Bu tanrıların əsas ibadət mərkəzləri Urartunun özünün tarixi torpaqlarında yerləşirdi; Ardinidə (aşşurlular bu şəhəri "Musasir", yəni "İlan dəliyi" (məzaci mənada "şər yuvası") adlandırırdılar) Haldinin, Kumenada Teyşebanın, paytaxt Tuşpada (indiki Van şəhərinin yerində) Şivininin baş məbədləri fəaliyyət göstərirdi. Haldi, Teyşeba və Şivniyə Urartunun Urmiya hövzəsindəki məntəqələrində də sitayiş olunduğu İşpuininin Qalatgah (Miandoab şəhəri yaxınlığında), eləcə də II Rusanın Maku, Eçmiədzin və II Arqiştinin Şişeh kitabələri ilə təsdiqlənir.[2] Göyçə gölü hövzəsinə hərbi yürüşlərlə əlaqədar tərtib olunmuş Urartu mətnlərində əsasən baş tanrı Haldi xatırlanır.[3] Arxeoloji qazıntılar zamanı şəhər ərazisindən üzərində tanrı Haldiyə həsr olunduğu yazılmış silahlar (qalxanlar, dəbilqələr, qolçaqlar, zirehlər, ox ucluqları) aşkar olunmuşdur.[4]

---

[1] Меликишвили Г.А. Урартские клинообразные надписи..., № 27.
[2] Меликишвили Г.А. Урартские клинообразные надписи..., №29, 280, 281; Qədim Azərbaycan tarixi mixiyazılı mənbələrdə..., s.108, 116, 119.
[3] Меликишвили Г.А. Урартские клинообразные надписи..., №131-134, 136-138, 140-143, 161, 165, 169, 170, 172, 264-266; Qədim Azərbaycan tarixi mixiyazılı mənbələrdə..., s.116-118.
[4] Меликишвили Г.А. Урартские клинообразные надписи..., №144-147, 147a-d, 148, 148a, 149, 149a-d, 173, 173b, 174-176, 176a-b, 269, 282.

I Arqiştinin zamanında Sərdarabad kəndi yaxınlığında (indiki Armavir şəhərinin ərazisində) şimşək tanrısının şərəfinə salınmış Teyşebaini şəhəri inzibati və ideoloji mərkəz kimi fəaliyyət göstərirdi.[1] Digər Urartu tanrılarının Azərbaycanla hər hansı bağlılığını təsdiq edəcək faktlar qeydə alınmayıb. Urartu mətnlərində Göyçə gölü hövzəsinin yerli tanrıları xatırlanmır. Urmiya gölü hövzəsinin yerli tanrılarından yalnız birinin adı – Şebitu – məlumdur. II Sardurinin oğlu I Rusa (Ursa) Mahmudabad (Urmiya şəhərindən 28 km cənubda, Kukia kəndindən 2 km qərbdə) qayaüstü kitabəsində özünü tanrı Şebitunun xidmətkarı adlandırır.[2] Ehtimal ki, Şebitu bölgənin himayədar tanrısı olmuşdur. Urartu hökmdarı İşpuininin "Məhər qapısı" kitabəsinin məlumatıa görə Şebitunun şərəfinə keçirilən mərasimdə 2 cöngə və 4 baş xırdabuynuzlu heyvandan ibarət qurban nəzərdə tutulurdu.[3] I Rusanın  Mahmudabad kitabəsində Artuarsan adlı yerli tanrı da xatırlanır.

Tarixi Azərbaycan torpaqlarında sitayiş obyekti olan Urartu tanrılarından biri də İvarşa (və ya İuarşa) idi. İrəvan yaxınlığından tapılan eyniməzmunlu iki mətndən aydın olur ki, I Arqiştinin zamanında "susi" adlanan məbədin inşası ilə bu tanrıya ibadətin yayılmasına təşəbbüs göstərilmişdir. İvarşaya kultun başlanğıcını həmin vaxtlar Qanlıqala (ermənicə Arinberd) adlanan yerdə yeni qala-şəhərin inşası ilə əlaqədar Hate və Supani ölkələrindən gətirilmiş 6600 əsirlə əlaqələndirirlər.[4] Tanrı İvarşa  II Rusanın (e.ə. 685-653) Qırmızı-təpə (ermənicə

---

[1] Əlimirzəyev A. İrəvan şəhərinin meydana gəlməsi tarixşünaslıqda / İrəvan necə varsa. Keçmişdən bu günə. Bakı, 2022, s.421.

[2] Payne M. Urartu Çivi yazılı belgeler kataloğu. Istanbul, 2006, s.271; Ceylan N., Çiftçi M. Kuzeybatı İran'dakı Urartu yazıtlarındakı savaş ve propaganda ifadeleri // Manas. Sosial Araşdırmalar Dergisi, 2021, Cilt 10, sayı 2, s.1376, foto 3..

[3] Меликишвили Г.А. Урартские клинообразные надписи..., № 27.

[4] Амаякян Г. Государственная религия Ванского царства. Ереван, 1990, с.139-140.

Karmir-blur) adlanan yerdə (Teyşebaini şəhəri) tapılmış mətnində də qeydə alınıb.[1]

İrandilli etnosların yayılması ilə əlaqədar Urmiya gölü hövzəsində, xüsusən də Mada tayfa birliyi ilə qonşu ərazilərdə yeni tanrılara ibadət kök salmağa başlayır. Bəzi tədqiqatçılar deyilən coğrafiyadakı bəzi toponimlərin kökünü irandilli xalqların mifoloji təsəvvürlərində yer alan teonimlərə bağlayırlar. Məsələn, E.Qrantovski hesab edir ki, Urmiya gölü hövzəsindəki Tarui və Tarmakisa (adətən Təbriz şəhərinin adının praforması kimi təqdim olunur) şəhərlərinin adlarını Avestanın mətnlərində (məsələn, Videvdat XIX, 43) şər tanrısı (=dev) kimi çıxış edən Tarvi ilə (bəlkə də əvvəllər yerli tanrıladan olmuşdur) əlaqələndirir. [2] Lakin Tarmakisa toponiminin Tarvi teonimi ilə bağlılığı şübhə doğurur. Belə ki, e.ə. I minilliyin Aşşur qrafikasında əcnəbi (qeyri-sami) mənşəli adlardakı **-v-** səsi adətən **-u-** fonemi ilə ifadə olunurdu. Bu qanunauyğunluq Tarui və Tarmakisa şəhərlərinin xatırlandığı "Tanrı Aşşura məktub"da Aukane (**a-u$_2$-ka-ni-e** < parsca **āvahana** "yaşayış məntəqəsi", "şəhər") toponimini yazılışında da özünü büruzə verir. Başqa sözlə, eyni mətndə **-v-** səsinin bir halda **-u-**, digər halda **-m-** fonemləri ilə ifadə olunması fikri inandırıcı görünmür. Bu səbəbdən Tarmakisa toponimi Tarvi teoniminə bağlana bilməz.

Bundan əlavə, Mada tayfa birliyinin ərazisində yerləşən Hundurna (e.ə. VI əsrin sonlarında Kunduruş adlanırdı) şəhərlərinin[3] adını Avestada xatırlanan dev Kundanın adını əks

---

[1] Медведская И.Н. История Мидийского царства (VII-VI вв. до н.э.). Санкт-Петербург, 2018, с.168.

[2] Грантовский Э.А. Ранняя история иранских племен..., с.280-283, 291.

[3] Eyni adda iki şəhər e.ə. VIII əsrin ikinci yarısında Urartunun nəzarətində olan Şimali Urmiya hövzəsində, Sanqibutu vilayətində yerləşirdi. Onlar II Sarqonun "Tanrı Aşşura məktub"unda "Yuxarı Hundurna" (**Hu-un-du-ur-na elu-u$_2$**) və Aşağı Hundurna (**Hu-un-du-**

etdirdiyi söylənilir.[1] Ola bilsin ki, bu şər tanrısı irandilli xalqların dini inanclarına hurrilərin panteonundan keçmişdir; hurrilərin dini inanclarında tanrıların məkanı "Kundurra" (və ya "Kunzurra") adlanırdı.[2]

E.ə. 714-713-cü illərdə Manna ilə Mada tayfa birliyinin sərhəd zolağında yerləşən 4 şəhərin (Andarpatianu, Kinqarakku, Aratpati, Amakki) başçısı II Sarqona xərac göndərmişlər. Bu şəhər başçıları Maşdakku (bir halda Maşdayaukku) ismini daşıyırdılar, yəni adaş olmuşlar. Eyni vaxtda 4 şəhər başçısının eyni adlar daşımaları təsadüf sayıla bilməz. Görünür "Tanrı Aşşura məktub"da və II Sarqonun "A prizması"nda Maşdakku adlı bir şəxsin başçılıq etdiyi siyasi qurumun 4 şəhərindən alının xərac nəzərdə tutulub. Lakin onun ismini irandilli toplumların panteonunda yer alan tanrı Mazdanın adına bağlamaq, antroponimi "Mazdaya inanan" kimi mənalandırmaq düzgün sayıla bilməz. Belə təsəvvürün yaranmasına səbəb şəxs adı ilə tanrı isminin eyni kökdən (< **mazda** "ağıllı", "müdrik") olmasıdır.[3]

Mannada məskunlaşan sak-skif tayfaları üçün xarakterik etnoqrafik əlamətlərdən biri mərhumla yanaşı atın dəfn olunmasıdır. Belə dəfn adəti II Dəmir dövrünə aid Həsənli

---

**ur-na şaplu-u₂**) kimi qeyd olunublar. Hundur adlı digər məntəqə Urartunun Armarili vilayətində (Sanqibutudan qərbdə, Kotur aşırımı rayonunda), başqa br şəhər isə indiki Kanqavardan şərqdə yerləşirdi, Bax: Qədim Azərbaycan tarixi mixiyazılı mənbələrdə..., s.43, 77.

[1] Грантовский Э.А. Ранняя история иранских племен..., с.283, 289-291; Azərbaycan tarixi 7 cilddə. I cild (ən qədimdən-b.e. III əsri). Bakı, 1998, s.236.

[2] Хачикян М. Л. Хурритский и урартский языки. Ереван, 1985, с.144.

[3] Дьяконов И.М. История Мидии…, с.221-222; Грантовский Э.А. Ранняя история иранских племен…, с.254.

məzarlığında (bax: şəkil 18) qeydə alınıb.[1] Nisbətən qədim dövrlə tarixlənən bənzər məzarlıq Borsunluda da aşkar olunub; orada kurqanların birində icma başçısı (?) ilə yanaşı, 9 kölənin və 8 atın skeleti də tapılıb.[2] Bu yeni dəfn adəti e.ə. XIII əsrdən etibarən Kürün sağ sahilində, Gəncəçayın aşağı axarında yerləşən düzən sahələrdə qeydə alınıb. Bu məzarlığı Mingəçevirin kurqan mədəniyyətinin daşıyıcılarının cənuba miqrasiyası ilə əlaqələndirirlər.[3]



**Şəkil 18.** Həsənlidə eyni qəbirdə insan və at dəfni

---

[1] Ghirshman R. Le Passe-bride en defense de sanglier chez les peuples İraniens // Acta Antiqua Academiai Scientiarum Hungaricae, 1977, Tomus XXV, fasc. 1-4, 1977, p.32, fig.4

[2] Гусейнова М. Из истории Южного Кавказа. Ходжалы-Гедабекская культура Азербайджана (XVI-IX вв. до н.э.). Баку, 2011, с.66.

[3] Погребова М.Н. История Восточного Закавказья. Вторая половина II – начало I тыс. до н.э. Москва, 2011, с.208, 287.

Sak-skif etnik qruplarının dini inancları haqqında biliklərimiz antik dövr müəlliflərinin, xüsusilə, Herodotun məlumatına əsaslanır. Bu etnik qrupların özünün daxilində vahid dini ideologiya mövcud olmamışdır. Herodot bir neçə skif tanrısının adını çəkir və onların yunan mifologiyasında qarşılıqlarını göstərir. Ona görə, skif tanrısı Tabiti yunanların Qestiyasına, Papay Zevsə, Qoytosir Apollona, Taqimasad Poseydona, Arqimpas Herakla uyğun idi. Bəzi tanrılar ümumskif dini inanclarına daxil deyildi. Məsələn, taqimasada yalnız skiflərin elitar qrupu – "çar skiflər" adlanan hissəsi – ibadət edirdi. Herodot onu da bildirir ki, "çar skiflərin" dini panteonunda 8, digər skif qruplarında 7 tanrı yer almışdır. Skiflərin gündəlik məişətində birincilik Tabitiyə məxsus olmuşdur (Her., IV, 62). Elmi ədəbiyyatda Tabiti teonimi iranmənşəli tapayant ("qızdıran", "isidən") sözü əsasında etimilogiya olunur. Belə izah, əlavə olaraq, onun yunan mifologiyasındakı qarşılığı olan Qestiyanın atributu ilə ("mətbəx ocağı") arqumentləşdirilir. Tabiti teoniminin qədim türk leksikasının *tamit, tamduq* ("yanmaq", "alovlanmaq") kimi sözlərinə əsasən etimologiyası da təklif olunmuşdur. [1] Belə etimoloji izah skif qruplarının inanclarında oda sitayişin yer tutduğuna işarə edir. Lakin bu heç də deyilən dövrdə skiflərdə anaxaqanlığın hələ də qaldığı anlamına gəlmir. Herodot qeyd edir ki, skiflərin baş tanrısı yunanların Zevsinə uyğun olan Papay olmuşdur (Her., IV, 59). İlahə Apinin ismi də türk dillərindəki *apa* ("ana") sözünə bağlanır.[2]

Herodot skif mifologiyasında yunan yunanların hərb tanrısı Aresin də yer tutduğunu yazır, lakin onun skif adını qeyd etmir. Yalnız Ares istisna olmaqla, skiflər digər tanrıları üçün məbədlər inşa etməzdilər, dini ayinlərini müqəddəs hesab etdikləri yerlərdə icra edirdilər. Yalnız hərb tanrısına ibadət üçün tikilinin inşa edilməsi skiflərin o dövrdə hərbi demokratiya

---

[1] Гасанов З. Царские скифы. New-York, 2002, с.93-94.
[2] Гасанов З. Царские скифы..., с.95.

mərhələsində yaşadıqlarından və onların cəmiyyətində müharibələrin önəmli yer tutduğundan irəli gəlir. Skiflərin inanclarında Günəş tanrısı da önəmli yer tuturdu.

Skiflərin gündəlik həyatında konkret tanrılara etiqadla yanaşı, daha primitiv inancların olduğu da istisna edilmir. Herodotun məlumatından da aydın olur ki, onların inanclarında şamanizmin elementləri mövcud olmuşdur və ayinlərin keçirilməsində ovsunçular, cadugarlar da iştirak edirdi.

Herodot skif çarının dəfn prosesini belə təsvir edir. Skiflər ölən başçıları üçün göz yaşı axıtmaq, saçlarını kəsmək, sol qulağını oxla deşmək, alınlarını, burunlarını və qulaqlarını zədələməklə özlərinə xəsarət yetirirlər. Hökmdarın nəşini digər skif qrupları arasında gəzdirirlər və hər dəfə ağlaşma təkrarlanırdı. Daha sonra, məzar yerində dördkünc formalı iri quyu qazılır və orada hökmdarın nəşi ilə yanaşı onun xidmətçiləri də (saqi, mehtər, silahdaşıyan və s.) qətlə yetirilib, basdırılırlar. Məzara qızıl qablar qoyulduqdan sonra üzərini qalın torpaq qatı ilə örtüb nəhəng kurqan yaradırdılar. Bir ildən sonra dəfnin iştirakçıları məzarlığı ziyarət edərək mərhum hökmdarın 50 xidmətçisini və 50 atını öldürüb cəsədlərini mumyalayırlar (Her., IV, 71-72). Eyni dəfn adəti xeyli sonralar hunlarda da qeydə alınmışdır.[1]

[1] Гасанов З. Царские скифы..., с.257-258.

# II FƏSİL

# ATROPATENADA DİNİ İNANCLAR. SƏMAVİ DİNLƏRƏ KEÇİD

## 2.1. Atropatenada Zərdüştiliyin tarixindən

Mada (Midiya) tayfa birliyinin formalaşdığı arealın şərqində atəşpərəstlərin kahini Zaratuştra ideoloji baxışlarda dərin islahat apararaq iki köhnə dinin – mazdeizmin (tanrı Ahura-Mazdanın adından) və atəşpərəstliyin (oda sitayiş) – ehkamları əsasında xeyirlə şərin, işıqla zülmətin əbədi mübarizəsini təbliğ edən yeni sinkretik dini təlim yaratmışdır. Zərdüştün dövrü ilə bağlı iki əfsanə məlumdur. Antik müəlliflərə görə o, Həxəmənişilər (= Əhəmənilər) sülaləsinin hökmdarı Kserksın Yunanıstana hərbi yürüşündən 600 il (və ya 6000 il) əvvəl yaşamışdır. Müsəlman ənənəsi isə (Biruninin məlumatında əksini tapıb) Zərdüşt Makedoniyalı İsgəndərdən 258 il əvvələ aid edir. İngilis şərqşünası Y.B.Henning onun həyatı üçün 3 tarix təklif etmişdir: e.ə. 630-553, e.ə. 628-551, e.ə. 618-541-ci illər. Zərdüşti ənənəsinə və orta əsr ərəb müəlliflərinə görə Zərdüşt əslən Cənubi Azərbaycandan idi, lakin tədqiqatçıların əksəriyyəti bu fikrə qarşı çıxır.[1] Zərdüşti ənənəsində deyilir ki, 30 yaşında olarkən ona peyğəmbərlik missiyası bəxş olunmuş, cəmi 77 il ömür sürmüşdür. Zaratuştra ismi "Qoca dəvələri olan", "Qızıl dəvəsi olan" və s. kimi mənalandırılır.[2] Görünür, dəvə irandilli cəmiyyətlərdə müqəddəs heyvan (totem) sayıldığından komponent kimi şəxs adlarına daxil edilirdi. Müqayisə üçün deyək ki, e.ə. 716-cı ildə Aşşur hökmdarı II Sarqon Kanqavarla Həmədan arasındakı bölgəyə hərbi yürüş edərkən Kanzabakanu şəhərinin

---

[1] Алиев И. Несколько замечаний на авестологическую тему…, с.4, 6-9.
[2] Henning W.B. Zoroaster – politican or with-doctor? London, 1951, p.41; Фрай Р. Наследие Ирана..., с.49-57.

başçısı Uşradan (< qədim İran dillərində **uštra** “ikihürgüclü dəvə” (Baktrian cinsi) sözündən) atlardan ibarət vergi almışdır.[1]

Bundan əlavə, II Sarqonun 3 kitabəsində Zardukku (və ya Zarduka) adlı şəxs (Harzianu şəhərinin (və ya vilayətinin) başçısı) qeydə alınıb.

a) “Tanrı Aşşura məktub”da: **za-ar-du-uk-ku ša URU. ha-ar-zi-a-nu**

b) “A” prizmasında: **za-ar-duk-ka ša KUR. ha-ar-zi-a-nu**

c) Nəcəfabad stelasında: **za-ar-du-ka ša URU. ha-ar-zi-a-ni** (bax: şəkil 19, II-III sətirlər).



**Şəkil 19**. Nəcəfabad stelasından fraqment.

E.ə. 716-713-cü illərdə Zardukku Aşşur sarayına xərac göndərmişdir.[2] Vaxtı ilə E.Hersfeld bu şəxsin ismini Zərdüştün adı ilə müqayisə etmişdir.[3] Qeyd olunmalıdır ki, -**ka**- hecasını ifadə edən mixi işarə polifonik xüsusiyyətli idi; **su**$_{11}$ və ya **zu**$_{2}$

---

[1] Luckenbill D.D. Ancient Records of Assyria and Babylonia. New-York, Vol. II, 1968, § 192.

[2] Грантовский Э.А. Ранняя история иранских племен..., 1970, с. 253; Levine L. D. Two Neo-Assyrian Stelae from Iran. Royal Ontario Museum Art and Archaeology. Occassional Paper. 23, Toronto, 1972, pp.73-74, fig. 10, 11; The Royal Inscriptions of the Neo-Assyrian Period. Vol. 2. Frame G. The Royal Inscriptions of Sargon II, King of Assyria (721-705 BC). Pennsylvania: Eisenbrauns. Copyright 2021, texts №№ 65, 82, 117; Qədim Azərbaycan tarixi mixiyazılı mənbələrdə..., s.44-45.

[3] E.Herzfeld Harzianu şəhər adını indiki Harsin ilə (Kermanşah yaxınlığında) eyniləşdirir. Herzfeld E. Zoroastr and his world. Princeton, 1947, Vol. I, p. 53; Herzfeld E. The Persian Empire..., p.8, not. 2.

hecalarını da ifadə edirdi.[1] Maraqlıdır ki, bu şəxsin şəhərinin adı Elam leksikonundakı **hal+sian** sözbirləşməsindən yaranlb və "Məbəd ölkəsi" kimi mənalandırıla bilər. Əgər Zardukkunun (və ya Zarduka) Zərdüştlə eyniləşdirilməsi mümkündürsə o halda novator-peyğəmbəri II Sarqonun kiçik müasiri hesab etmək olar.

Zərdüştün yaratdığı təlimə görə dünyada daima xeyirlə şər, işıqla zülmət arasında mübarizə gedir. Ahura-Mazda (Hörmüzd) xeyiri, Anqro-Manyu (Əhriman) şəri təmsil edirdi; hər ikisi də Zurvanın ("Zaman") ekiz övladları hesab olunurdu. Bu mübarizə Zərdüştün soyundan olan xilaskarın (Saoşyant) sayəsində xeyirin təntənəsi ilə başa çatacaq. Mübarizənin ictimai kökü mazdaizmin meydana çıxdığı dövrdən etibarən oturaq əkinçi icmalarla köçəri maldarlıqla məşğul olan qəbilələr arasında gedən mübarizədən ibarətdir. Mübarizənin təbii kökü soyuq-isti, qıtlıq-bolluq, gecə-gündüz, tufan-sakitlik, münbit-şoran və digər təbii ziddiyyətlərdə əksini tapdığından daha qlobal mahiyyət kəsb edirdi. Zərdüşti təliminə görə bu mübarizədə qələbəni təmin etmək üçün insan mərasim və dualarla deyil, maddi nemətlərin artırılması, torpağın becərilməsi, mal-qaraya qayğı ilə yardım etməlidir. Bu dini təlimdə Ahura-Mazda ən üst mövqeyə qaldırılmış, lakin ikinci dərəcəli tanrılardan – Mitra ("Günəş"), Anahita ("Bakirə") və s. – imtina olunmamışdır. Bu səbəbdən Zərdüştü monoteizmin təbliğatçısı hesab etmək olmaz.[2]

Bu dini təlim sonuncu Mada hökmdarı Astiaqın (e.ə. 585-

---

[1] Labat R. Manuel d'éigraphie Akkadienne..., № 15. Hesab edirlər ki, -**ukku** şəkilçisi iranmənşəli adlar üçün səciyyəvi sonluq olmuşdur. Bu sonluq bəzən -**uka** formasında yazılırdı. Məsələn, Dayaukku ismi (e.ə. ?-715-ci illərdə Manna vilayətlərindən birinin canişini olub) e.ə. II minilliyin mətnlərində qeydə alınmış Dahyuka adı ilə müqayisə olunur. Bax: Меликишвили Г.А. Древневосточные материалы по истории народов Закавказья..., с.140; Грантовский Э.А. Ранняя история иранских племен..., 1970, с. 251-252, 255-256, 258-259, 262.

[2] Алиев И. Несколько замечаний на авестологическую тему..., с.21.

550) sarayında,[1] daha sonra qismən dəyişilmiş variantda Əhəmənilər imperiyasında və Atropatenada rəsmi ideologiya səviyyəsində fəaliyyət göstərirdi. Zərdüştilərin müqəddəs kitabı Avestadır (Apastāk – “əsas”, “təlimat” sözündəndir). Avesta mətnlərinin tərtib olunduğu vaxt və qeydə alındığı yer haqqında müxtəlif fikirlər mövcuddur. Avesta qeyri-maddi (teoloji, etik, tarixi-epik) irsin külliyyatıdır. Onun bəzi mətnlərində təsvir olunan mənzərə e.ə. II minilliyin sonlarına aid edilir. Tədqiqatçıların əksəriyyəti Avesta mətnlərinin əsas hissəsinin e.ə. I minilliyin birinci yarısında tərtib olunduğunu hesab edir. Avestada Urmiya gölü hövzəsinin, Mərkəzi və Orta Asiyanın qədim əhalisinin məişəti, təsərrüfatı, ictimai-siyasi münasibətləri, mədəniyyətləri, Zərdüşti dini baxışları və mərasimləri haqqında məlumatlar yer alır.

Zərdüşti rəvayətə görə, hələ Əhəmənilər dövründə 12 min öküz dərisinin və ya taxta lövhələrin üzərində qızıl hərflərlə yazılmış Avesta Makedoniyalı İsgəndərin göstərişi ilə yandırılmışdır. Sonralar zərdüştilik Cənubi Azərbaycan ərazisində geniş, Şimali Azərbaycanda isə qismən yayılmışdır. Sasanilər dövründə Atropatena Zərdüştiliyin əsas mərkəzlərindən biri idi. Avesta uzun müddət kahinlər (atravan) tərəfindən şifahi şəkildə nəsildən-nəslə ötürülür və mətnlərə artıq ölü dilə çevrilmiş Avesta dilində bəzi əlavələr olunurdu. Tədqiqatçıların fikrincə, Avesta bir neçə dəfə (I, III, IV, VI və VII əsrlərdə) kodifikasiya və redaktə olunmuşdur.[2] Avestanı kodifikasiya etmək üçün konsonant tipli köhnə arami yazısından imtina olunmuş, 52 hərfdən ibarət xüsusi yeni yazı sistemi yaradılmışdır. Zərdüşt peyğəmbərin kəlamlarını qüsursuz çatdırmaq üçün yazı

---

[1] Дьяконов И.М. История Мидии..., с.392.

[2] Алиев И. История Мидии..., с.15-16; Касумова С.Ю. Южный Азербайджан в III-VII вв. (проблемы этно-культурной и социально-экономической истории). Баку, 1983, с.102-103; Алиев И. Очерк истории Атропатены. Баку, 1989, с.116-118; Azərbaycanın qədim tarixinə dair yazılı mənbələr…, s.104.

sistemində hərflərin sayını bilərəkdən çoxaltmışlar (xüsusilə, uzun və qısa saitləri, diftonq səsləri fərqləndirmək üçün). Avestanın III əsrdə (II Şapurun zamanında) Atropatenada aparılan kodifikasiyasında baş kahin Aturpat Mahraspandan mühüm rol oynamışdır[1]. Avestanın qorunub saxlanmış təqribən ¼ hissəsi dövrümüzədək gəlib çatmışdır. IX əsrdə yazılmış şərhdən (Denkart) məlum olur ki, Sasanilər dövründə toplanması tamamlanan Avesta 21 kitabdan 815 fəsildən ibarət olmuşdur və pəhləvi dilinə edilən tərcümədə onlardan 20-sinin adları, məzmununun qısa icmalı göstərilir. Lakin bunlardan zəmanəmizə qədər yalnız 4 kitab (onlar "nask" adlanır) qalıb:

1.Yasna – 72 fəsildən ibarətdir; 17 fəsil "Qatlar" adı ilə tanınır, Zərdüştün özünə aid edilir və onun insan, təbiət və cəmiyyət haqqında fəlsəfi-əxlaqi düşüncələrini əks etdirir,

2.Vispered – 25 fəsildən ibarət dualar toplusu,

3.Vendidad – Zərdüştlə tanrı Ahuramazdanın sual-cavab şəklində dialoqu üzərində qurulub,

4.Yaşt – ilahi qüvvələri mədh edən himnlər toplusu.[2]

Zərdüştün yaratdığı esxatoloji təlimə görə bəşər tarixi 12 min il davam edir. İlk 3000 il insanlığın "qızıl dövrü" adlanır. Bu zaman nə xəstəlik, nə qocalıq, nə ölüm olmayıb, yer üzü iri və xırda buynuzlu heyvanlar və onların yetərincə bəslənməsi üçün zəngin otlaqlar, münasib iqlim şəraəti olmuşdur. Lakin Anqro-Manyunun gəlişi ilə dünya bu nemətlərdən məhrum olmuşdur. Zərdüşt ehkamları ilə öz pərəstişkarlarını ev heyvanlarını köçəri tayfaların qarətindən qorumağa, kütləvi qanlı qurbanlardan çəkinməyə, bəd əməllərdən uzaq durmağa və

---

[1] Алиев И. Очерк истории Атропатены…, с.119; Azərbaycanın qədim tarixinə dair yazılı mənbələr…, s.104.

[2] Брагинский И.С. Из истории таджикской и персидской литературы. Москва, 1972, с.83; Алиев И. Очерк истории Атропатены..., с.119; Azərbaycanın qədim tarixinə dair yazılı mənbələr…, s.105.

digər nəcib işlərə səsləyirdi. [1] Axirət dünyası haqqındakı təsəvvürə görə insanların taleyi öləndən sonra cənnətə və ya cəhənnəmə düşmələri onların sağ ikən gördükləri əməllərin cəmiyyət üçün xeyirli və ya ziyanlı olduğundan asılıdır. Xeyirin tərəfdarları "ahura", şərə xidmət edələr isə "dev" adlanırlar.



**Şəkil 20.** Yasnadan fraqment.

Zərdüştilik və onunla bağlı olan dini-fəlsəfi sistemlər iudaizmə və erkən xristianlığa, eləcə də yunan fəlsəfi fikrinin formalaşmasına müəyyən təsir göstərmişdir. [2] Sasanilərin hakimiyyət zamanı Adurbadaqan vilayəti ehkamçı Zərdüştiliyin mərkəzi kimi tanınırdı. Həmin dövrdə əhəmiyyətli müqəddəs yerlər, o cümlədən tacqoyma mərasimlərində şahların ziyarət etdiyi Adurquşnasp məbədi Cənubi Azərbaycanda, Şiz şəhərində yerləşirdi. Bu vilayət həm də Zərdüşti kahinlərinin dayaq məntəqəsi idi. [3] Burada habelə "yanar odları" və "çoxsaylı

---

[1] Дандамаев М.А., Луконин В.Г. Культура и экономика древнего Ирана..., с.305-331; Фрай Р. Наследие Ирана...., с.49-57.

[2] Алиев И. Очерк истории Атропатены…, с.129-130.

[3] Касумова С.Ю. Южный Азербайджан в III-VII вв..., с.102-104; Алиев И. Очерк истории Атропатены..., с.130; Əliyev K., Əliyeva F. Azərbaycan antik dövrdə. Bakı, 1997, s.50; Алиева Ф. Культура

maqları” olan bir çox başqa məbədlər də cəmləşmişdir.[1]

## 2.2. Hellinizm mərhələsinin (e.ə. 330-30) dini inancları

Atropatenanın Ellinizm (və ya Hellinizm) sisteminə qatılması ilə Azərbaycanın tarixi cənub torpaqlarında yeni yad (yunan) mədəniyyətinin maddi və mənəvi elementləri özünü büruzə verməyə başlamışdır. Takab şəhərindən 20 km qərbdə yerləşən Kerefto mağara kompleksi bu yeni mədəniyyətin bariz nümunəsidir. Qayada oyulmuş bu sakral kompleks e.ə. III – b.e. I əsrlərində tanrı Herakla kultun ibadət mərkəzi olmuşdur. Kompleksin otaqlarından birinin divarına yunan dilində “burada Herakl yaşayır, [buraya sığınan] hər cür naqislikdən uzaq olsun” məzmunlu mətn həkk olunub (bax: şəkil 21).[2]



**Şəkil 21.** Kerefto mağarasında yunan mətni

Mağara-kompleksin yerləşdiyi məkanın indiki adı e.ə. 671-ci il Madada baş vermiş anti-Aşşur hərəkatı ilə əlaqədar tərtib olunmuş siyasi məzmunlu fal mətnlərinin (və ya “Orakul sorğuları”) birində xatırlanan toponimlə fonetik eyniliyə malikdir. Həmin sorğunun məzmunundan bəlli olur ki, Aşşur hökmdarı Aşşurahaiddin (=Asarxaddon) madalıları, mannalıları və skifləri birləşdirən üsyançı koalisiya qoşunlarının Karibtu şəhərinə daxil olacaqlarından, şəhəri talan edəcəklərindən ehtiyat edirdi. Düşmən qüvvələrin başında Kar-kaşşi (hərfən

---

античного Азербайджана - Мидийской Атропатены и Кавказской Албании (IV в. до.н.э. - III в. н.э.), Баку, 2007, с.65-66.

[1] Алиев И. Очерк истории Атропатены..., с. 130; Алиева Ф.К. Культура Античного Азербайджана..., с.66-67.

[2] Azərbaycan tarixi 7 cilddə. I cild..., s.307-309.

“Kaşşuların koloniyası”) şəhərinin başçısı Kaştaritu dururdu. Onu qonşuluqda yaşayan mannalılar və “kimmerlər” (Akkad dilinin cənub (Babil) dialektində yazılan mətnlərdə skiflər belə adlandırılır) dəstəkləyirdilər.[1]

Toponim akkadmənşəli **karibtu** (“ibadət”, “xeyir-dua”; söz qadın cinsində (**-t** şəkilçisi) göstərilib) sözündən yaranıb[2] və mağara-kompleksin təyinatını göstərir. Görünür, Karibtu Aşşur dövlətinin Mada tayfa birliyi ərazisində yaratdığı əyalətlərdən birinin (ehtimal ki, Kişassunun) dini mərkəzi olmaqla yerli əhali ilə yanaşı, əyalətdə fəaliyyət göstərən aşşurluların pənah gətirdiyi məkan olmuşdur. Bu məkan, bəlkə də, Aşşur ilahəsi İşmekarabın (və ya İşnikarab; hərfən **išni+karab** “Duanı eşidən”) ibadət mərkəzi olmuşdur. Dini təsəvvürlərə görə ölülərin ruhlarını yeraltı dünyaya müşayiət edən bu ilahə e.ə. VIII-VII əsrlərdə elamlıların da dini inanclarında böyük nüfuz qazanmışdır.[3]

Kereftonun Herakla ibadət mərkəzinə çevrilməsi Hellinizmdən əvvəlki dövrdə (e.ə. VII əsrin birinci yarısında) sak-skif etnik qrupunun bölgədə məskunlaşması nəticəsində baş verdiyini istisna etmək olmaz. Sak-skif panteonunda Heraklın da yer aldığı, hətta bir əfsanəyə görə bu etnosun Herakldan törəndiyi Herodot tərəfindən qeyd olunur.[4] Lakin yunan mifologiyasındakı Heraklın skif panteonundakı qarşılığı olan tanrının isminin orijinal forması Herodota məlum deyildi. Ola bilsin ki, Kerefto Manna vilayətlərinin birində məskunlaşmış skif qrupunun da

---

[1] Starr I. Queriers to the Sungod Divination and Politics in Sargonid Assyria / State Archives of Assyria. Helsinki. Vol. IV. 1990, № 44, p. 50-52.

[2] Дьяконов И.М. История Мидии..., с.268, прим.3; Tarn W.W. A Greek Inscription from Kurdistan (C.I.C. 4673) // The Classical Review. 1929 (may), Vol.43, №2, pp.216-217.

[3] Хинц В. Государство Элам..., с.43, 62.

[4] Геродот. История (Перевод и примечания Г.А.Стратановского). Ленинград, 1972, IV. 8-10; Гасанов З. Царские скифы. Нью-Йорк, 2002, с.275-280, 352-353.

ibadət mərkəzi olmuşdur. Təsadüfi deyil ki, buradan çox da uzaqda olmayan və skiflərin etnik adını daşıyan Sakkız kəndinin ərazisindən skiflərə məxsus bəzək-zinət əşyaları tapılmışdır.

Göründüyü kimi, e.ə. VII əsrin ortalarında Kereftonun yerləşdiyi bölgə Aşşur dövlətinin siyasi nəzarətindən çıxmış və bölgənin yeni güc sahibi olan skiflərin ziyarətgahına çevrilmişdir. Həmin dövrdə Yaxın və Orta Şərq cəmiyyətləri Ellin-yunan dünyasının maddi və mənəvi dəyərləri ilə kifayət qədər tanış deyildi.

Hellinizm dövründən xeyli əvvəl ilahiləşdirilmiş Heraklın kult mərkəzləri Əhəmənilərdən yunanlara miras qalan imperiyanın müxtəlif yerlərində fəaliyyət göstərirdi. Əzəmətli mərkəzlərdən biri indiki Məscidi-Süleyman adlanan yerdə (Şüştərdən 40 km şərqdə) salınmışdır. Tanrı Heraklın barelyefi yunan mətninin müşayiəti ilə e.ə. 148-ci ildə Bisütun qayasına həkk olunmuşdur.[1]

Makedoniyalı İsgəndərin III Dara üzərində qələbəsindən sonra yunandilli əhali kütləsinin, o cümlədən sənətkarların və din xadimlərinin Şərqə axını üçün imkanlar açılmışdır; bu proses Selevkilərin zamanında, hətta sonralar da davam edirdi. Atropatena da Hellin-yunan mədəniyyətinin təsir zonasına düşdüyündən Kerefto kimi abidənin yaranması təbii idi. Bu mərhələdə Atropatena ərazisində yunan dini ideologiyasının yayılması ilə əlaqədar Kerefto qəhrəmanlığı simvolizə edən Heraklın kult mərkəzi kimi populyarlıq qazanmışdır. Selevki və Parfiya dövlətlərinin siyasi və iqtisadi yüksəlişi dövründə Heraklın təsviri sikkələrə zərb olunur, təsviri incəsənət və heykəltaraşlıq nümunələrinin personajına çevrilirdi.

Herakla ibadətin İran yaylasında, o cümlədən Atropatenada müqavimət görmədən qarşılanmasının mühüm səbəbi bu personajın yunan mifologiyasında tutduğu himayəedici mövqeyi ilə izah olunmalıdır. O dövrdə, köhnə dini ənənədən irəli gələrək irandilli xalqların mifologiyasında Veretraqna adlı (hərfən:

[1] Potts D.T. The Archaeology of Elam..., pp.371-373.

“Maneələri dağıdan” və ya “Hücumu dəf edən”) personaj – hərb və qələbə tanrısı, eyni funksiyanı icra edirdi.[1] Bu səbəbdən Atropatenada Herakla ibadət mərkəzi Hellinizm dövründən sonra da (e.ə. 30), Sasani imperiyasında Zərdüştiliyin rəsmi ideologiya elan olunduğu dövrə qədər qüvvədə qalırdı. Sasanilər dönəmində Heraklın adı istifadədən çıxdığından, Veretraqna (Avestada **vərəδraγnα**) populyarlıq qazanmışdır. Avestanın tərkib hissəsinə daxil olan Yaşt XIV bütövlükdə Veretraqnaya həsr olunub. Zərdüştlə ünsiyyətdə bu personaj 10 fərqli formalarda (külək, at, öküz, dəvə və s.) təsvir olunur.[2] Bu səbəbdən Sasanilər sülaləsinin 5 hökmdarı onun şərəfinə Varahran (< Bəhram adının praforması) ismini qəbul etmişdir.

Ellinizm dövründə digər sinkretik kultlar da meydan gəlmişdi. Babillilərin Nanay ilahəsi irandilli toplumların dini təsəvvürlərində Anahita, yunanların panteonunda Artemida ilə eyni funksiyanı icra edirdi. Bu hal deyilən dövrdə Ön və Orta Asiyada say çoxluğu ilə seçilən etnik-mədəni qrupların ictimai fəallığı ilə bağlı idi.

## 2.3. Atropatenada dəfn adətləri

Qəbir abidələri Atropatena əhalısının etnik və dini dünyagörüşünün rəngarəngliyinin, maddi mədəniyyətinin zənginliyinin əsas göstəricilərindəndir. İndiyə kimi aparılmış arxeoloji tədqiqatların nəticələrinə istinadən küp qəbirlərini Atropatenanın

---

[1] Гаибов В. О некоторых проблемах культа Геракла на эллинистическом Востоке (скальный комплекс Керефто в Иране / Второй Всесоюзный симпозиум по проблемам эллинистической культуры на Востоке. Тезисы докладов. Ереван, 1987, с.14-15; Von Gall H. Die Kultrāume in der Felsen Karaftu bei Takab (West Azerbaidjan) // Archaologische Mitteilungen aus Iran, 1978, II, ss.91-122; Bernard P. Herakles les grottes de Karafto et de sancaire du Mont Sambulos en Iran // Studia Iranica, 1980, 9, 2, pp.301-324.

[2] Чунакова О.М. Пехлевийский словарь зороастрийских терминов..., с.60-61.

əsas dəfnetmə adəti kimi qeyd edirdilər.[1] Təkcə ötən əsrin 80-90-cı illərində əsasən Lerik, Yardımlı, Masallı, Cəlilabad, Biləsuvar və digə bölgələrdə 50-dən artıq küp qəbir nekropolları aşkar edilmişdir.[2] Son dövrlərdə deyilən bölgələrdə, eləcə də Naxçıvan diyarında aparılan arxeoloji araşdırmalar göstərdi ki, bu dəfnetmə adəti Atropatena ərazisində daş qutu, torpaq, katakomba və gil təknə qəbir tipləri ilə paralel mövcud olmuşdur.[3]

E.ə. II-I əsrlərə aid küp qəbirlərdən ibarət nekropollar Cənubi Azərbaycanda da (Germinin Şıxlar kəndinin ərazisində Əyri Zəmintəpə, Qan yeritəpə, Qəhrəmantəpə, Həmat Salehtəpə, Hətəm Pir Dərgah və s.) aşkar edilmişdir.[4]

Bu qəbir tipində meyit küpün içərisində tam bükülü və yarımbükülü vəziyyətdə, baş hissələri küpün ağzına doğru olmaqla, sağ və ya sol yanı üstə dəfn olunurdular. Dəfn avadanlığını əsasən saxsı və metaldan hazırlanmış müxtəlif formalı qablar, silahlar, bəzək əşyaları və pullar təşkil edirdi.

Azərbaycanda daş qutu qəbirlərdə dəfnetmə adəti Son Tunc-Erkən Dəmir dövründən məlumdur. Antik dövrdə daş qutu qəbirlərdə dəfn adətinə Lerik, Yardımlı, Astara, Masallı, Naxçıvan və s. ərazilərdə daha çox təsadüf olunur. Bu qəbir tipinin səciyyəvi xüsusiyyətlərindən biri onların tək və iki

---

[1] Алиев И.Г. Очерк истории Атропатены..., с.113-114; Алиев Ф. Культура античного Азербайджана..., с.9-7.

[2] Kəsəmənli H.P., Əliyev Ə.Ə. Puşkin rayonunda aşkar edilmiş kup qəbirlər // Azərb. SSR EA-nın Xəbərləri, Tarix, fəlsəfə və hüquq seriyası, 1984, №4, s.63-70; Гошгарлы Г. Типология погребальных памятников..., с.177-178.

[3] Əliyev V. Naxçıvan şəhərinin antik dövr küp qəbirləri // Azərb. SSR EA-nın Xəbərləri, 1976, № 1, s.73-84; Гошгарлы Г. Типология погребальных памятников..., с.42-43, 173-181.

[4] Kərimov S. Atropatenanın qəbir tipləri və dəfn adətlərinin bəzi nəzəri məsələlərinə dair / Atropatena Azərbaycan tarixçilərinin tədqiqatlarında. Bakı, 2025, s.198.

kameralı olmasıdır. Əsas kamerada cəsəd, ikinci kamerada isə ona məxsus əşyalar qoyulurdu. Daş qutu qəbirlərdən ibarət nekropollar Xanbulaq və Peştəsərdə (Yardımlı bölgəsi) Gilan, Germi, Meşkinşəhr, Ərdəbil və Təbrizdə aşkara çıxarılıb.[1]

Atropatena ərazisindən torpaq qəbirlərdən ibarət nekropollara Lerik, Astara, Yardımlı, Masallı və Cəlilabadda təsadüf olunmuşdur. Bu qəbir tipində meyit arxası üstə, tambükülü və yarımbükülü vəziyyətdə yerləşdirilirdi.

Atropatenada müəyyən lokal ərazilərdə Parfiya və sarmat-alan yürüşləri ilə əlaqədar olaraq gil təknə, çiy kərpic və katakombalarda dəfnetmə adətinə də rast gəlinmişdir. Dəfnetmədə təsadüf olunan əlamətlərdən biri də odla əlaqədar müəyyən ritualın tətbiq olunmasıdır. Bəzi qəbir kameraları bütünlüklə his və kül qatı ilə örtülüb, lakin bu hal meyitin kremasiyası ilə əlaqələndirilməyir.

Bütün qəbir tiplərinin avadanlığı mərhumun sağlığında tutduğu ictimai mövqeyini əks etdirir. Qəbirlərdən silahlar (qılınc, xəncər, dəbilqə, döymə üsulu ilə hazırlanmış nizə ucluqları), bəzək-zinət əşyaları (gümüşdən və misdən düzəldilmiş qolbaqlar, üzüklər, boyunbağılar, serdolikdən və şüşədən hazırlanmış muncuqlar), məişət və ritual təyinatlı saxsı qablar və s. aşkara çıxarılıb. Məzarlardan tapılan heyvan və quş sümükləri axirət dünyası üçün nəzərdə tutulmuş qurbanlıq ritualından xəbər xerir.[2] Albaniya və Atropatena dövlətlərinin dəfn adətlərində müəyyən oxşarlıqların olması əhalinin eyni etnik tərkibi ilə izah olunur.

---

[1] Cahani V. "Qale-Gərdən" məzarlığı (Gilan düzənliyində dəmir dövrünə aid tapılmış ilk qəbir)" // Tarix və onun problemləri, 2012, №1, s.224-232; Cahani, V. Qədim Bouye qəbiristanlığı // Tarix və onun problemləri, 2012, №2, s.344-352.

[2] Kərimov S. Atropatenanın qəbir tipləri..., s.196-209; Eminli C. Atropatenanın qəbir tipləri (Piboz nekropolunun 2012-2014-cü illər tədqiqatları əsasında) / Atropatena Azərbaycan tarixçilərinin tədqiqatlarında. Bakı, 2025, s.88-106.

## 2.4. Atropatenada xristianlığın tarixindən

Atropatena xristianlığın ilk yayıldığı yerlərdən olub. Qeysərili Yevsevinin "Kilsə tarixi"nin III kitabında və Sokratın "Sxolastika"sında əks olunan köhnə rəvayətə görə, həvarilik nəsibi Fomaya Parfiyada, İsanın şagirdlərindən Varfolomeyə isə Hindistanda qismət olmuşdur. Parfiyalılar, midiyalılar, elimeylər (=elamlılar) arasında xristianlığı təbliğ edən Varfolomey farsların və "məcusların" yaşadıqları yerlərə, oradan isə Ermənistana getmişdir. İsa peyğəmbərin digər şagirdi, İncilin müəlliflərindən biri hesab edilən həvari Müqəddəs Matfey Ekbatan (indiki Həmədan), Rey və Damğanda təbliğat aparmışdır. Urmiya şəhərində 165-ci ildə tikilmiş Mart Məryəm ("Xanım Məryəm") kilsəsi fəaliyyət göstərirdi.[1]

I Şapurun (təxminən 243-273) və II Şapurun (309-379) Roma və Bizansla apardıqları uğurlu müharibələr sayəsində Sasani İranına xeyli xristian əsirlər daxil olurdu və onların icmaları hesabına ölkənin xristian əhalisinin sayı da artırdı. Demoqrafik balansın pozulmasından ehtiyatlanan II Şapur 339-cu ildə xristianların ölkə üzrə təqibinə başlayır. Bu eyni zamanda siyasi motivlərlə də bağlı idi, çünki həmin ərəfədə Böyük Konstantin xristianlığı Roma imperiyasının rəsmi dini elan etdiyindən İrandakı xristianları casusluqda ittiham edirdilər. Digər təhlükəli məqam o idi ki, bəzi hallarda xristianların sayı irandilli əhali arasında zərdüştilikdən imtina edənlərin hesabına artırdı.

I Yezdəgirdin zamanında (təxminən 399-421) xristianlara münasibət müsbət istiqamətə dəyişir; onları artıq təqib etmirdilər, əvvəlki illərdə dağıdılmış kilsələr yenidən bərpa olunurdu. Lakin onun hakimiyyətinin sonuna yaxın yenidən xristianların təqibinə başlanılır. Adurbadaqanda xristianlıq haqqında ilk yazılı qeyd 420-ci ildə katolikos I Mar Yabalaxın (415-419) döv-

---

[1] Касумова С. Христианство в Азербайджане в раннем средневековье. Баку, 2005, с. 25, 115.. Мамедова Р. История Северо-Западного Азербайджана. Баку, 2000, с. 54.

ründə çağırılmış Sinodun aktlarında qorunub saxlanmışdır. Bu mənbənin məlumatına görə, II Şapurun zamanında Qundi-Şapurda iki kilsə inşa edilmişdir. Onların birində ibadətlər arami, digərində yunan dillərində icra edilirdi.

Azərbaycanın cənubunda xristianlığın yayılmasına əvvəllər də təşəbbüs olunmuşdur. Xristianların təqibi II Yezdəgirdin vaxtında da (439-457) davam edirdi. 484-cü ildə Bet Lapatda (Qundi-Şapur, sonralar Şahabad) çağırılmış məclisdə Sasani dövlətinin xristian kilsəsi nestorianlığı qəbul etmişdir. Mənbələrin məlumatına görə IV-V əsrlərdə Şərqi Suriya kilsəsinin yepiskopluqları Adurbadaqan kustunun (canişinlik) Qanzak və Urmiya şəhərlərində fəaliyyət göstərirdi. Mənbələrdə V-VII əsrlərdə Adurbadaqanda yepiskopluq etmiş bir neçə kilsə xadiminin adları çəkilir. Onlardan "Qanzakın və Adurbadaqanın" yepiskopu Osiy (Yelisey) 486-cı ildə patriarx Akak tərəfindən çağırılmış kilsə məclisində iştirak etmişdir. I Qubadın zamanında (488-531) xristianlara qarşı yönələn təqiblər aradan qaldırılır və ölkədəki xristianlar evangelist təlimlərini eftalit-hunlar və Oks çayı hövzəsindəki türk icmaları arasında yaymağa başlayırlar. Katolikos I Mar Abasın (490-552) 544-cü ilə aid məktublarında Osiydən sonrakı yepiskoplardan İohannın imzasını da görmək olar.

Albaniyada olduğu kimi, Sasani İranında da xristianlıq saray həyatına, dövlət idarəçilik strukturuna nüfuz edirdi. Məlumdur ki, Sasani şahı II Xosrovun (590-628) iki xristian arvadı olub. Onlardan biri Bizans imperatoru Mavrikinin qohumu Məryəm, digəri əslən Xuzistandan olan aramiəsilli Şirin idi. Müəllifi bilinməyən bir Suriya xronikasında bildirilir ki, 603-cü ildə albanlar katolikos Vironun çağırışı ilə II Xosrovun hakimiyyətinə qarşı üsyan qaldırmışlar. Üsyan yatırıldıqdan sonra Viro Sasani şahının qəzəbindən qorxaraq Şirinin himayəsinə sığınmışdır. Şirinin xahişi ilə II Xosrov Vironu öldürməyib 25 il saray dustağı etmiş, lakin onun katolikos

tituluna toxunmamışdır.[1] Suriyalı müəlliflərdən birinə istinadən

---

[1] Пигулевская Н.В. Анонимная сирийская хроника о времени сасанидов // УЗИВ, 1939, том VII, с.65; Касумова С. Христианство в Азербайджане в раннем средневековье…, с.84. Ehtima ki, Suriya xronikasındakı tarixi Şirin dahi Azərbaycan şairi Nizami Gəncəvinin "Xosrov və Şirin" poemasındakı Şirin obrazının prototipi olmuşdur. Onun vətəni Xuzistan idi. X əsrin ərəb müəllifləri İstəxri və İbn-Xavqəl Xuzistanda ərəb, fars, suryani (=arami) və yəhudi dillərinə bənzəməyən dildə danışıldığı barədə məlumat vermişlər; alimlər yekdilliklə bu naməlum dili Elam dilinin qalığı hesab edirlər. Bax: Potts D.T. The Archaeology of Elam..., p.415. Maraqlıdır ki, antik müəlliflər yeni eranın başlanğıcında qismən Atropatenanın cənub hüdudlarında elimeylərin (elamlıların varisləri) yayıldığı barədə məlumat verirlər; bəzi tədqiqatçılar bu şahlığın şimal hüdudlarının Xəzərədək çatdığını iddia edir. Keçmiş Ellipi (və ya Ellime) şahlığının (əsasən e.ə. VIII-VII əsrlərin Aşşur mixi yazılarında xatırlanır) ərazisində (indiki Luristanda) e.ə. 180-ci illərdə elamlıların assimilyasiyaya uğramayan, identikliyini saxlamış qrupu III Antioxun imperiyasından qoparaq müstəqil şahlıqlarını yaratmışlar. Məhz bu siyasi qurumu antik yazarlar "Elimaida" adlandırırdılar. İnzibati mərkəzi Barda (və ya Parda) şəhəri olan keçmiş Manna vilayəti Ziqirtunun (və ya Saqartiya) torpaqları bu şahlığın tərkibinə qatılmışdır. Herodotun məlumatına görə saqartiyalılar utilərlə birgə Əhəməni imperiyasının XIV satraplığına daxil idilər. Vaxtı ilə G.Melikişvili belə bir fikir irəli sürmüşdür ki, utilər Araz çayından şimaldakı torpaqlara köçdükdən sonra əvvəllər yaşadıqları Zigirtu vilayətinin inzibati mərkəzinin adını Tərtər çayı sahilində saldıqları yeni şəhərə vermişlər. Bax: Меликишвили Г. А. Население северных областей Наири-Урарту и его роль в древневосточной истории. М., 1960, с.5. Zənnimizcə məhz Ziqirtudakı Barda şəhərini (indiki Azərbaycan Respublikasındakı Bərdəni yox !) nəzərdə tutaraq Nizami Gəncəvi onun hökmdarı Nüşabənin Makedoniyalı İsgəndərlə görüşünü təsvir etmişdir. Bu mülahizə əslən Xuzistandan (elimeylərin ana vətənindən) olan Şirini Azərbaycana bağlamağa əsas yarada bilər. Təxminən 225-ci ildə Sasan-İran dövlətinin banisi I Ərdəşir Elimaidanın müstəqilliyinə son qoyaraq, torpaqlarını öz dövlətinə

Z.Bünyadov bildirir ki, Xilafətin hakimiyyəti zamanı Uşnu şəhərində Müqəddəs Sergey monastırı inşa edilmişdir.[1] XII-XIII əsrlərdə Marağa, Təbriz, Urmiya, Uşnu, Salmas və Sulduzda nestorian və yakovit kilsələri paralel fəaliyyət göstərirdi.[2]

Arxeoloji qazıntılar zamanı aşkar edilmiş qəbir abidələri yerli əhalinin mənəvi aləmini, axirət dünyasına olan inamını tədqiq etmək üçün son dərəcə dəyərli tapıntılardır. Atropatena ərazisində küp qəbir abidələri geniş yayılmışdır. Ölülər iri küp-lərin içində sıx bükülü vəziyyətdə qabın boğaz hissəsinə doğru yönəlmiş halda, xırda avadanlıq və bəzək əşyaları ilə birlikdə yerləşdirilirdi. Lerik rayonunda Piboztəpə nekropolunda son antik-ilk orta əsrlərə aid torpaq qəbirlərdə də eyni dəfn adətinə rast gəlinib.

---

qatmışdır. Şirini albanəsilli hesab edənlər də var. Bax: Мамедова Ф. Кавказская Албания и албаны…, с.361.

[1] Буниятов З. Азербайджан в V-VII вв. Баку, 1975, с.275.

[2] Marağadakı “Müqəddəs İohann” monastırı katolikos III Mar Yabalax (1281-1317) tərəfindən təsis edilmişdir. Bax: Касумова С. Христианство в Азербайджане в раннем средневековье…, с.51.

# III FƏSİL

## ALBANİYADA DİNİ İNANCLAR. BÜTPƏRƏSTLİKDƏN SƏMAVİ DİNƏ

### 3.1. Antik dövrdə Albaniyada bütpərəstlik

Min illik tarixi boyu Albaniyada məskunlaşan əhalinin fərqli dini inancları olmuşdur. Qonşu ərazilərlə müqayisədə atəşpərəstlik Albaniya ərazisində dərin kök sala bilməmişdir. Antik mənbələrin məlumatlarında miladaqədərki dövrdə Albaniya ərazisində yerli dinlərə sitayış olunması haqqında faktlar mövcuddur. Belə ki, yunan müəllifi Strabon Albaniya ərazisində yaşayan əhalinin üç ilahi varlığa sitayiş etdiyini yazır: "İlahi varlıqlardan onlar əsasən Heliosa (Günəş), Zevsə (səma) və Selenaya (Ay) sitayiş edirlər, xüsusilə, Selenaya". Selena məbədi İberiya yaxınlığında yerləşirdi.[1] Albaniya əhalisinin Ay ilahəsinə sitayiş etməsi maddi mədəniyyət nümunələri ilə də təsdiqlənir. Xınıslı, Mollaisaqlı, Mingəçevir və digər ərazilərdə aparılan arxeoloji qazıntılar zamanı bəhs olunan dövrə aid qəbir abidələrindən tapılan müxtəlif bəzək və məişət əşyalarının üzərində qövsvarı ornamentlərə rast gəlinir.

Selena məbədinin İberiya yaxınlığında yerləşməsi mübahisələrə səbəb olmuşdur. Selena məbədinin lokalizə olunması ilə bağlı müxtəlif fikirlər mövcuddur. A.E.Krimski Ay məbədini müasir Şəki ərazisində, İ.Şopen, K.V.Trever isə Alazan və İori çaylarının Kürə qovusduğu yerdə lokalizə edirlər.[2] Qəbələ əra-

---

[1] Страбон География в 17 книгах. (пер. Г.А.Стратановского) Москва, 1964, XI.4.7; Алиева Ф.К. Культура Античного Азербайджана..., с.75.

[2] Крымский А.Е. Страницы из истории Северного или Кавказского Азербайджана (классической Албании, Шеки) /

zisində aşkar olunmuş tikilinin qalıqlarını da bu məbədlə əlaqələndirirlər.[1]

Başqa bir məbəd vilayəti Kür çayının sahilində idi[2]. Dion Kassinin yazdığına görə, Pompey albanlara qarşı yürüşü zamanı "qış düşərgəsini Anahit vilayətində Kür sahilində salmışdı".[3]

Pomponi Mela Xəzər dənizindəki Talqa adası haqqında belə məlumat verir: "[Talqada] yerdə və ağacda bitən hər cür meyvələr çoxdur, lakin qonşu xalqlar ... [bu] bəhrəyə toxunmağı yolverilməz və küfr hesab edirlər; onların inamına görə, bütün bunlar allahlar üçün hazırlanmış və allahlar üçün saxlanılmalıdır".[4] Ehtimal ki, Talqada daha primitiv xarakterli bir ibadətgah və ya bir növ qədim pir varmış.[5]

Strabon yazır ki, yerli əhali tanrıların şərəfinə qurbanvermə ayinləri keçirirdi.[6] Tanrılara insanları da qurban verirdilər; belə mərasimin ən maraqlı məqamı isə insanların cəsədin üzərindən tullanması idi. Bu ayini icra etməklə insanlar saflaşacaqlarına inanırdılar.[7] İnsanların qurban verilməsinin

---

Сборник, посвященный памяти академика Н.Я.Марра. Москва-Ленинград, 1938, с.370; Шопен И. Новые заметки на древние истории Кавказа и его обитателей. СПб: В типографии Н. Тиблена, 1866, с.363; Тревер К.В. Очерки по истории и культуре Кавказской Албании (IVв.до.н.э. – VII в.н.э.) Москва- Ленинград, Изд-во АН СССР, 1959, с. 152.

[1] Казиев С.М. Историко-археологическое обследование городища Кабала // Материальная культура Азербайджана Баку, 1964, т.5, с. 20, 22.

[2] Алиев К. Кавказская Албания. I в. до н.э.-I в. н.э. Баку: Элм, 1974, с.311; Алиева Ф. Культура Античного Азербайджана…, с.76.

[3] Dio Cas., XXXVI, 53.

[4] Pomp. Mela, III, 6, 58.

[5] Алиев К. Кавказская Албания…, с.310; Алиева Ф.К. Культура античного Азербайджана..., с.77.

[6] Алиева Ф.К. Культура античного Азербайджана…, с.80.

[7] Страбон. География в 17 книгах, XI. 4.7.

izlərinə qəbir abidələrində rast gəlinir. Belə ki, Mingəçevirdə qəbir abidələrinin birində ayaqları qandallı cəsəd aşkar edilmişdir; tədqiqatçılar bu tapıntını qurbanvermə ayini ilə əlaqələndirirlər.[1]

Dini ayinlər kahinlər tərəfindən həyata keçirilirdi; Strabon onları hierodul ***(ίεροδούλ)*** adlandırır. Məbəd kahinləri əhali arasında geniş imtiyaza malik idilər: "Onlarda kahin vəzifəsini hökmdardan sonra ən hörmətli adam icra edirdi. O böyük dini əraziyə başçılıq edir, məbədin qulları onun mülkiyyəti hesab olunurdu".[2]

Strabon yazır ki, albanlar ölənləri var-dövləti ilə birlikdə dəfn edirlər.[3] Lakin aşkar edilmiş qəbir abidlərində inventarın azlığı diqqət çəkir. Tapılan əşyalar əsasən, boz, qırmızı rəngli saxsı qablardan ibarətdir. Avadanlıqların içərisində silahlara da (xəncər, bıçaq, qılınc, ox ucluqları) rast gəlinir.

Arxeoloji qazıntılar da təsdiq edir ki, mərhumu əksər hallarda geyimdə, bəzək əşyaları ilə birlikdə dəfn edirdilər. Qazıntılar zamanı kauri çanaqları, üstündə dairəcik şəkilləri və sxematik göz təsviri olan cürbəcür muncuqlar, paltarın altından taxılan bir sıra bəzək əşyaları tapılmışdır. Qəbirə mərhumla birlikdə əmək alətləri və bəzən silah qoyurdular. Qəbirə heyvan və quş əti ilə, həmçinin meyvə, süd və məstedici içki ilə dolu gil qablar qoyulurdu.[4]

Albaniya ərazisində aparılan qazıntılar bir neçə dəfn formasını üzə çıxarmışdır. Əsasən, katakombalar, torpaq qəbirlər, küp qəbirlər, nadir hallarda isə gil təknələr (sarkofaq) və daş qutu qəbirlər aşkarlanmışdır. Albaniya ərazisində ən geniş yayılmış dəfn forması torpaq qəbirlərdir. Kütləvi şəkildə Şamaxıda, Mingəçevirdə, Qəbələdə, Nüydüdə, Rustovda, Torpaqqala-

---

[1] Вопросы истории Кавказской Албании (Ред.И.Алиев), Баку, 1962, с.43.

[2] Страбон. География в 17 книгах, XI.4.7.

[3] Страбон. География в 17 книгах, с.477, XI, 4, 7.

[4] Османов Ф.Л. История и культура Кавказской Албании…, с.144.

da və digər yerlərdə aşkar olunan belə qəbir abidələri e.ə. II minillikdən etibarən geniş yayılmışdır.[1] Qəbirlər düzbucaqlı, oval və ya dairəvi çuxur formasında olurdu. Cəsəd qəbrə sağ və ya sol böyrü üstə qoyulur, qəbirin üzəri ağac tirlərlə örtülürdü.

Katakombalar Albaniya ərazisində I-VII əsrlərdə geniş yayılmış dəfnetmə tipi olmuşdur. Katakombalar əsasən bir, bəzən isə iki kameralı olurdu. Qəbələdə, Mingəçevirdə (burada onların sayı 200-dən artıqdır), Qusarda, Qaxda aşkar edilmiş katakombalar əsasən dairəvi formalıdır. Kameralarda çox vaxt qoşa dəfnə təsadüf olunur. Katakombalar daxili avadanlığın zənginliyi ilə digər qəbir abidələrindən fərqlənir.[2]

Katakombalardan sonra ən geniş rast gəlinən qəbir abidələri küp qəbirlərdir, onlar e.ə. V–b.e. VIII əsrləri əhatə edir. Bu qəbir abidələrində də heç bir yerüstü əlamətlərə rast gəlinmir. Küplər düzbucaqlı, dairəvi, oval formalarda qəbir çuxuruna üfiqi vəziyyətdə yerləşdirilirdi.[3] Küp qəbirlərin bəzilərində deşik aşkar edilmişdir. Tədqiqatçılar hesab edirlər ki, dəlik ölünün ruhunun məzarı tərk etməsi üçün qoyulurdu, çünki, insanlar küpü insan ruhunun "evi" kimi görürdülər. Qəbir inventarı qismində məişət əşyalarına və silahlara rast gəlinir.[4]

Gil təknə qəbirlərə əsasən Qəbələ, Göyçay, İsmayıllı bölgələrində rast gəlinmişdir. Bu qəbirlərdə cəsəd sol böyrü üstə, bükülü vəziyyətdə dəfn olunur və zəngin avadanlığı ilə seçilir. Gil təknə qəbirlər I – IV əsrlərə aid edilir.

Taxta qutu qəbirlər cəmiyyətin imtiyazlı təbəqələri üçün nəzərdə tutulduğundan silahın bolluğu ilə diqqət çəkirlər. Çiy

---

[1] Osmanov F. Qafqaz Albaniyasının dəfn adətləri haqqında / Azərbaycan Arxeologiyası, 2001, №3, s.45.

[2] Гошгарлы Г. Типология погребальных памятников…, с.136-137.

[3] Əliyev K.H., Əliyeva F.K. Azərbaycan antik dövrdə..., s.79.

[4] Археология СССР. Древнейшие государства Кавказа и Средней Азии. Москва: Наука, 1985, с.496; Гошгарлы Г. Типология погребальных памятников…, с.130-131.

kərpic sərdabədə dəfn Parfiyadan gəlmə ənənə hesab olunur.[1]

Qəbir abidələrində tapılmış maddi mədəniyyət nümunələri yerli əhalinin dini inancları ilə bərabər, məşğuliyyəti haqqında da maraqlı məlumatlar verir. Albaniya əhalisinin həyatında baş verən transformasiyalar maddi mədəniyyət nümunələrinə də təsir etmişdir. Dini inancların təsiri bəzək əşyalarında özünü büruzə verir. Qəbir abidələrinin birində 56 bürünc bilərzik aşkar edilmişdir. Digər bir gümüş bilərzik Mingəçevirdə, e.ə. I əsrə aid edilən küp qəbirdən tapılmışdır. Tapılan bilərziklərin demək olar ki hamısında ilan başlıqları nəzərə çarpır; ilan kultu indiyə kimi Azərbaycan ərazisində qalmaqdadır.[2] Torpaq qəbirlərdən çıxarılmış kiçik ölçülü keramika üçün açıq və tünd rəngli qablar səciyyəvidir.

## 3.2. Xristianlığın həvari mərhələsi

Eramızın I yüzilliyində Suriyadan gələn xristian missionerlərin (Foma, Varfolomey, Matfey, Yelisey) vasitəsilə Azərbaycan torpaqlarında (ilk dəfə Çola və Uti vilayətlərində), ilk xristian icmalarının yayılması müşahidə olunur. Yeni dini təlimi yayanlardan biri Faddeyin şagirdi Yelisey (Yegişe) olmuşdur. Bütpərəstlər Zərqun dərəsində onu qətlə yetirmişlər. Mömin III Vaçaqanın əmri ilə onun cəsədin qalıqları tapılıb dəfn olunmuş və qəbri üzərində kiçik kilsə inşa edilmişdir. Qriqorisin vaxtında Çilb vilayəti xristianlığın mərkəzinə çevrilmiş və burada qətlə yetirilən xristian əzabkeşlərin məzarları üzərində monastırlar tikilmişdir. Təqribən 313-cü ildə Alban çarı Urnayrın fərmanı ilə xristianlıq Albaniyada rəsmi status qazanır. Sonrakı illərdə Albaniyanın digər yerlərində xristian ibadət mərkəzlərinin, o cümlədən Qaxda Qum bazilikası, Balakəndə

---

[1] Гошгарлы Г. Типология погребальных памятников…, с.134, 142-143.

[2] Алиева Ф.К. Культура античного Азербайджана..., с.102.

Katex monastırı, Şəkidə Zəyzit kilsəsi, Xocavənddə Möhrənis məbədi, Laçında Ağoğlan məbədi, Daşkəsəndə Quşçu monastırı, Zaqatalada Mamrux monastır kompleksi və s. inşası kütləvi hal almışdır. Onların bəziləri soydaşlarımızın inancından asılı olmayaraq xalq tərəfindən pir kimi indi də ziyarət edilməkdədir.

Lakin yeni dini təlim zərdüştilik və manixeylik kimi köhnə dini ideologiyaların ciddi müqavimətilə qarşılaşır, onun tərəfdarları təqibə məruz qalırdı. Təqiblər səbəbindən Arazdan şimaldakı torpaqlara pənah gətirənlərin hesabına Albaniyada xristianların sayı artırdı. Sasani şahı I Qubadın zamanında (488-531) xristian missionerləri hun, sabir, bulqar kimi türkdilli icmalarda fəaliyyət göstərirdilər.

Təxminən həmin dövrdə çağırılan Aquen məclisində alban kilsəsinin müstəqilliyi elan olunur. Bu akt xristian dünyasının Şərq periferiyalarında yerləşən kilsələrin mövqeyində kəskin dönüş yaradır. 506-cı ildə Dvin şəhərində alban, gürcü və erməni kilsələri diofizit təriqətli Bizans ilə əlaqəni kəsib, monofizit təriqətinə keçirlər. 21 ildən sonra hər üç kilsənin vahid ittifaqda birləşməsi haqqında saziş bağlanır. Lakin 551-ci il Dvin məclisində erməni kilsəsi ittifaqdan çıxaraq monofizitlikdə qaldığını, gürcü kilsəsi "mülayim" xalkedon mövqeyini saxladığını elan edir, alban kilsəsi isə ilkin təriqətinə – diofizitliyə qayıdır. Erməni kilsəsi monofizitliyin banisi olan Yevtixinin təlimini də bəyənmir, onu bidətçi adlandırırdı. Bu kilsənin irəli sürdüyü ehkamların bir çoxu xristianlığın ümumi müddəaları ilə ziddiyyət təşkil edirdi. Təriqətlər arasındakı fərq kilsə memarlığına da sirayət etdiyindən alban xristian abidələri düzbucaqlı və trapesvari quruluşu, eləcə də əsas simvolikanın (xaçın) forması ilə fərqlənir. Dvin məclisindən sonra alban katolikosu Abasın gördüyü ən mühüm tədbir mərkəzi kilsənin Çoladan Bərdəyə köçürülməsi olmuşdur.[1]

[1] Мамедова Ф. Кавказская Албания и албанцы. Баку, 2005; Xəlilov M.C. Albaniyanın xristian abidələri (IV-X əsrlər). Bakı, 2011.

İsa Məsihdən başlayan yeni era təkcə yeni dini ideologiyanın Roma imperiyasının siyasi nəzarətində olan Fələstin torpaqlarında meydana gəlməsi və köhnə bidətçi təsəvvürlərlə mübarizə şəraitində ətraf ərazilərə yayılması ilə əlamətdar olmadı. Tarixin bu mərhələsi eyni zamanda imperiya maraqlarından irəli gələrək Ön Asiyada hakim mövqelərdə möhkəmlənməyə can atan iki super gücün – Roma ilə Parfiyanın – hərb meydanlarında qarşı-qarşıya gəlməsi ilə səciyyələnirdi. Bu qarşıdurmanın nəticəsi olaraq 63-cü ildə Qafqazın iki dövlətində – Albaniya və İberiyada – əslən Parfiyadan olan Arşakilər sülaləsinin kiçik qolu siyasi hakimiyyətə sahiblənir. Albaniya və İberiyanın Arşaki sülaləsindən olan ilk çarları Parfiya hökmdarı I Vologezin (I Balaş; 51-78-ci illər) əmri ilə təyinat almışlar. Musa Kalankatlı (I, 15) bu sülalənin 10 nümayəndəsinin Albaniyada hökmdar olduğunu göstərir.

Dəclə-Fəratın yuxarı vadilərində yerləşən Armeniya əyaləti də, 115-ci ilə qədər bu sülalənin nümayəndələri tərəfindən idarə olunurdu. Roma imperatoru Trayan Parfiya üzərində qələbə çaldıqdan sonra bu ərazini öz dövlətinə birləşdirmişdir. Lakin onun varisi Adrian Parfiya ilə bufer zonada yerləşən Armeniyanı imperiyanın hüdudlarında saxlamaq şərti ilə orada Arşakilərin kiçik qolunun idarəçiliyini yenidən bərpa etmişdir.[1]

I əsrin əvvəllərində Roma hakimiyyətinin təzyiqlərindən xilas olmaq üçün Fələstindən (əsasən Yerusəlimdən) və Suriyadan mühacirət etmiş ilk xristian missionerlər və onların şagirdləri şərq istiqamətində olan ölkələrə üz tuturdular. Şərq ölkələrində yeni dinin ideyalarını təbliğ edənlər həm də ilk xristian icmalarının əsasını qoyurdular. Suriya (aramidilli) mənbələrin yazdığına görə, İsanın meracının ikinci ilində, "İlk Şərq" həvarisi kimi tanınan Müqəddəs Foma Hindistana gedərkən, yolüstü parfiyalılar, midiyalılar, farslar və Orta Asiya

[1] Тревер К.В. Очерки по истории и культуры Кавказской Албании..., с.130.

xalqları arasında təbliğat aparmışdır.[1]

Azərbaycanda xristianlığın təbliği İsa peyğəmbərin 12 apostolundan Faddeyin şagirdi olan Varfolomeyin adı ilə bağlıdır. Alban yazarı S.Orbeli bildirir ki, Varfolomey missioner fəaliyyətinə Sisakanın Qoxtan adlanan ərazisində (indiki Ordubad bölgəsində) başlamışdır. Xristianlığı təbliğ etdiyi üçün erməni şahının qardaşının əmri ilə 71-ci ildə Varfolomey tutularaq qətlə yetirilmişdir. Sonralar qətl olunan yerdə Alban məbədi tikilmişdir.[2]

Pravoslav ənənəsi hesab edir ki, bu qətl atəşpərəstliyin güclü olduğu indiki Bakı şəhərində (guya qədim adı "Albanopol" olub), Qız qalasının yaxınlığında yerləşən Arta məbədində icra edilmişdir. 1983-1984-cü il mövsümündə aparılan arxeoloji qazıntılar nəticəsində Qız qalası yaxınlığında mövcud olmuş iki od məbədinin bünövrəsi üzərində qədim alban məbədinin tikildiyi müəyyən olunmuşddu. Lakin tikili qalıqlarının xristian bazilikasına və ya zərdüşti daxmasına aid olduğu dəqiqləşdirilməyib.

Yayılan başqa rəvayətə görə, 1836-cı ildə Rusiya Sinodu tərəfindən Alban kilsəsi ləğv edildikdən sonra bu qədim Alban məbədinin yerində Pravoslav kilsəsi tikilmiş, lakin az vaxtdan sonra dağıdılmışdır. 1990-cı ildə Bakı Yepiskopluğu 25 avqust tarixini Varfolomeyin qətl günü elan etmişdir və hər il bu tarixdə müqəddəs Varfolomeyin öldürüldüyü iddia edilən Qız qalasının yanında bütün xristianlar dini ayinlər icra edirlər.[3]

Lakin həqiqətə daha yaxın olan başqa bir mülahizəyə görə Varfolomey Türkiyənin şimal-şərqində öldürülüb və orada da

---

[1] Гусейнов Р.А. Сирийские источники об Азербайджане. Баку, 1960, с.83-85; Буниятов З. Азербайджан в V-VII вв..., с.65.

[2] Житие Апостола Варфоломея. Издательство Бакинской Епархии, 2004, с.4.

[3] Leyla Dos. Azerbaycan Rus ortodoks kilisesi. Yüksek Lisans Tezi. Ankara Üniversitesi Sosial bilimler enstitüsü. Felsefe ve din bilimleri. Ana bilim dalı. Dinler tarixi bilim dalı. Ankara, 2010, s.52.

dəfn edilmişdir. Bəzi tədqiqatçılar Albanopolu Pont şəhəri Nikopol ilə eyniləşdirirlər.[1] Ehtimal ki, toponimin düzgün forması “Urbanopol” (hərfən: “Urbanın şəhəri”) olmuşdur və onun Bakıya heç bir aidiyyəti yoxdur.

Müqəddəs Varfolomeyin qətlindən sonra Albaniyada xristianlığı yaymaq İsa peyğəmbərin həvarisi Addeyə (və ya Faddey, Aqey) həvalə olunur. İncilin 4 variantının ikisində (Matvey və Mark) onun ismi xatırlandığı halda, İncilin Luka və İoannın adından olan variantlarında onun isminə rast gəlinmir. Hətta bəzi qaynaqlarda Faddey 12 apostol, digər mənbələrdə isə 72 apostoldan biri kimi təqdim olunur. Faddey məktubla Osroyena (və ya Edessa; indiki Şanlı Urfa ərazisində) çarı V Abqarın hüzuruna göndərilmişdir; bu görüşdən sonra V Abqar xristianlığı qəbul edən ilk hökmdar kimi tarixə düşmüşdür.

Erməni kilsə ənənəsinə görə bütpərəstlərin təqibinə məruz qalan Faddey Vaspurakanın Artaz vilayətində Arşaki sülaləsindən olan çar Sanatruk tərəfindən qətlə yetirilmişdir.[2] Qətlin təsvirini verən Suriya ənənəsində Artaz vilayəti

---

[1] James R. Russell. Zoroastrianism in Armenia. Harvard University Press, 1987, p.142.

[2] Bu yer vilayətin əvvəlki sakinləri olan alanların dilində “Şavarşan” adlanırdı, Avarayr çölü də burada yerləşirdi. Bax: Моисей Каланкатуаци…, c.180. “Avarayr” hurrimənşəlli addır və “tarla” “əkin sahəsi” deməkdir; hurridilli mətnlərdə bu sözün hecalı şəkildə **a-wa-ar-ra**, **a-wa-ri** yazılış formaları qeydə alınıb. Bax: Karakurt L.M. Hurrice dilbilgisi. Metin örneklerive analizleri. Ankara: Bilgin, 2021, s.51. Şavarşan < **savir** + **šayana** “Savir şenliyi” deməkdir. Ola bilsin ki, Savarşan IX-X əsr ərəb mənbələrində “Siyavurdi”, erməni əlyazmalarında “Savardik”, Konstantin Baqryanorodnunun əsərində “Savarta” kimi adlarla göstərilən yerlə eyniləşdirilməlidir; bu yer türkdilli toplumla bağlı olub. Bax: Ağayev R. Ərəb xilafəti dövründə Azərbaycanın əhalisi. Bakı, 2017, s.206-207. Müasir Biləsuvar (Cənubi Azərbaycanda Biləhsavar) bölgəsinin adı da savirlərə bağlana bilər.

xatırlanmır, lakin bildirilir ki, Aqey Abqarın oğlu Sirinos tərəfindən ayaqları qırılaraq işgəncə ilə öldürülmüşdür.[1] Lakin bu tarixi ənənə mübahisə doğurur, çünki Faddey Artaşeslər sülaləsinin nümayəndəsi olan Armeniya çarı Sanatrukdan (115-116-cı illər) bir nəsil əvvəl yaşayıb. Digər tərəfdən, Faddeyin erməni çarı Sanatruk tərəfindən qətlə yetirilməsi faktı bizanslı Favstosun "Armeniya tarixi" əsərində də var.[2] Lakin onun əsərinin günümüzədək gəlib çatdığı iddia olunan III-VI cildləri əsasən 332-387-ci illərdə baş vermiş hadisələrdən bəhs edir. Musa Kalankatlının da istinad etdiyi bu yunan müəllifi hadisəni rəvayət şəklində yazmış və sonrakı xristian müəllifləri də bu faktı dəqiqləşdirmədən olduğu kimi qələmə almışlar.

Xristian ənənəsinə görə Faddeyi müşayiət edən şagirdi Yelisey Qüdsə qayıdıb, Faddeyin qətlə yetirildiyini bildirmişdir. Qüds xristian kilsəsinin ilk patriarxı və İsa peyğəmbərin qardaşı İakovun xeyir-duası ilə yeni dini təlimi kanonik şəkildə yaymaq üçün 54-cü ildə Yelisey Şərqə, o cümlədən Albaniyaya göndərilmişdir. Moisey Kalankatlının "Alban tarixi" əsərində (I, 6) deyilir ki, Yelisey Qüdsdən çıxıb, "ermənilərin gözündən yayınaraq" İrana, oradan da Maskut elinə keçmişdir.[3]

---

[1] Мещерская Е.Н. Легенда об Авгаре. Москва, 1984, с.186. Artaz vilayətini indiki Maku yaxınlığında (Atropatenada) lokalizə etməklə M. Ormanyan Faddeyə edilən qətlin erməni torpaqlarından kənarda baş verdiyinə və bu işdə ermənilərin əli olmadığına üstüörtülü şəkildə eyham vurur. Bax: Орманян М. Армянская церковь. Москва, 2006, с.10-11.

[2] История Армении Фавстоса Бузанда (перевод с древнеармянского и комментарии М.А.Геворгяна, под ред. С.Т.Еремяна). Ереван, 1953, с.7. Parfiya mənşəli "Sanatruk" ismi geniş yayılmışdır; bu adı Armeniya çarı III Trdatın qohumu da daşıyırdı; III Trdat onu Qriqorislə birgə Albaniyaya xristianlığı yaymağa yollamışdır. Bax: Musa Kalankatlı..., III, 3.

[3] Bəzi tədqiqatçılar Yeliseyin Alban torpaqlarında missioner fəaliyyətinin 51-62-ci illər arasında baş verdiyini bildirirlər. Bax:

Maskut eli "böyük dənizin" (Xəzər) sahilində türk tayfalarının məskunlaşdığı ölkə idi. Musa Kalankatlı məlumat verir ki, Yelisey yeni dinin təbliğinə burada yerləşən Çola vilayətində (Dərbənd yaxınlığında) başlayaraq özünə şagirdlər toplayır. Üç şagirdi ilə birgə Çolanı tərk edən Yelisey Uti vilayətində yerləşən Srxaran qalasına (indiki Ağdaş rayonu ərazisindəki Surxan [1]) gedir. Şagirdlərindən birinin öldürülməsinə, digər ikisinin onları təqib edən qohumları ilə geri qaytarılmasına baxmayaraq, Yelisey fəaliyyətini davam etdirmək üçün Qisə[2] getmişir, orada ilk kilsəni inşa edərək qansız qurban vermişdir. Musa Kalankatlının məlumatına görə (I, 27), Qis kilsəsi uti, alban, lpin, kaspi, qarqar, qam-eftalit (qam-ağ hun) tayfaları arasında xristianlığı təbliğ etmək məqsədi ilə inşa edilmişdir.

Mənbədən də aydın olduğu kimi, regionda yaşayan türklər "hunlar" adlanmış, onların əvvəlki dini inanc sistemi isə qam-şaman dünyagörüşü olmuşdur. Bu dini dünyagörüşdə yaradıcı qüvvə – Tenqri (Tanrı) hakim mövqe tutduğu üçün Azərbay-

---

Кананчев З. Из истории апостольского периода христианства Кавказской Албании. Альманах «The history of Caucasus». №2. Баку, 2002, с.61-64. Вегге Бьерн А. Из Иерусалима в Гиш (о традиции Елисея в Кавказской Албании (современный Азербайджан) / Этнокультурное наследие Кавказской Албании. Баку, 2019, с.77, 88.

[1] Bəzi tədqiqatçılar bu yeri Qəbələ rayonundakı Srxovqala ilə eyniləşdirirlər. Bax: Гейбуллаев Г.А. К этногенезу азербайджанцев..., с.147.

[2] Albaniyada bu adda 4 kəndin olduğu güman edilir: biri indiki Şəki rayonundakı Kiş kəndi, digəri Qarabağın ərazisində, başqa biri Mingəçevir yaxınlığında, digəri Siyəzən rayonu ərazisində yerləşir. Bax: Ямпольский З. Древняя Албания. III-I вв. до н.э. Баку, 1962, с.237; Геюшев Р. Христианство в Кавказской Албании. Баку, 1984, с.25; Абрамян Г. Дешифровка надписей Кавказских албан. Ереван, 1964, с.49; Xəlilov M.C. Albaniyanın xristian abidələri..., s.29-30.

canın qədim əhalisinin monoteist (təkallahlı) ideologiyanı qəbul etməsi asan olmuşdur. Məhz buna görə də, ermənilərdən fərqli olaraq, Albaniya dövlətinin əhalisi xristianlığın yayılmasına tolerant yanaşırdı. Azərbaycan-Norveç birgə arxeoloji ekspedisiyasının tədqiqatları bu kilsənin Qafqazda xristianlığın ilk abidəsi olduğunu sübut etmişdir. Müstəqilliyimizin ikinci dövründə “Şərq kilsələrinin anası” adı ilə tanınan bu abidə[1] yenidən bərpa edilmişdir.

Yeliseyin Helmes kəndində (Zerqun dərəsində) bütpərəstlər tərəfindən qətlə yetirilməsi xristianlığın yayılmasının qarşısını ala bilmədi.[2] Xeyli sonralar Alban hökmdarı III Vaçaqanın (487-510-cu illər) göstərişi ilə Yeliseyin Urekan adlanan yerdə cəsədinin qalıqları tapılaraq Xruq kəndində dəfn edilmiş və məzarı üzərində kiçik məbəd tikilmişdir (Musa Kalankatlı, I, 7). Azərbaycan xalqının tolerantlığı sayəsində bu qədim Alban kilsəsi müasir dövrədək qorunub saxlanmışdır və hazırda pir kimi sitayiş edilən inanc yerlərimizdəndir. Apostol Yeliseyin xatirəsinə Azərbaycanın digər yerlərində – Ağdərə rayonunda müqəddəs Yelisey monastır kompleksi, Oğuz rayonundakı yerli əhali arasında “Qala piri” (udilər arasında “Kala Gerges” adı ilə tanınır) kimi tanınan məbəd inşa edilmişdir.

---

[1] Musa Kalankatlı.., II, 48. Albaniyanın cənubunda isə ilk kilsə Müqəddəs Qriqorisdən əvvəl Alban kilsəsinin rəhbəri olmuş Lazar tərəfindən Beyləqan yaxınlığında yerləşən Lazarabad şəhərində inşa edilən Müqəddəs Panteleymon məbədi olmuşdur. Bax: Xəlilov M.C. Albaniyanın xristian abidələri..., s.31, 246.

[2] The Caucasian Albanian Palimpsest of Mt. Sinai. Vol.I, p.XIII. Zerqun dərəsinin adı Uruatri (Urartu) tayfa birliyinin tərkibində olan Ziukuni/Zinqun vilayətinin (Van gölündən şimalda) adı ilə müqayisə oluna bilər. Bax: Арутюнян Н.В. Топонимика Урарту..., с.81-82. Müqayisəyə Zəngi dərəsinin adı da cəlb oluna bilər. Musa Kalankatlının yazdığına görə (I, 6), bütpərəstlər Yeliseyin cəsədini Homenk adlanan yerdə ölümə məhkum edilmişlər üçün qazılmış ümumi xəndəyə ataraq üstünü örtmüşlər.

70-ci illərdən Yerusəlimdən və Suriyadan tədricən yəhudilərin müxtəlif bölgələrə, o cümlədən Azərbaycanın tarixi torpaqlarına köçürülməsinə start verilir. Köç dalğası ilə gələn yeni dini təlimin missionerlərinin (Foma, Varfolomey, Matvey) vasitəsilə Albaniyada (Çola və Uti vilayətlərində) tədricən ilk xristian icmaları yaranmağa başlayır. Maneələrə və itkilərə baxmayaraq bu həvarilər (apostollar) İsa Məsihin möcüzələrini və kəlamlarını yaymaqla xristianlığın yerli əhali tərəfindən dəstəklənməsinə və qəbul olunmasına çalışırdılar. İlk mənbələrin məlumatları təsdiq edir ki, xristianlığı yayanlara, xüsusən də həvarilərə qarşı yönələn təqiblər yerli əhali tərəfindən yox, Albaniyaya düşmən olan qüvvələr tərəfindən həyata keçirilirdi. Maneələrə baxmayaraq xristianlığın təbliği davam etdirilirdi. İncilin müqəddəs kəlamları arami dilində [1] yayıldığından xristianlığın IV əsrədək davam edən bu mərhələsini şərti olaraq Suriyameyilli dövr adlandırırlar.

## 3.3. Albaniyada xristianlığın dövlət dini statusu qazanması

İlk orta əsr mənbələrinin məlumatı göstərir ki, III-IV əsrlərin qovşağında Albaniyanın inzibati-ərazi bölgüsü etnik rəngarənglik üzərində qurulmuşdu. Ölkənin ərazisi inzibati baxımdan vilayətlərə (erməndilli mənbələrdə **qavar**) və əyalətlərə (ermənidilli mənbələrdə **nahanq)** bölünmüşdür. Hər iki inzibati terminologiya ermənimənşəlli deyil.[2]

---

[1] O dövrdə aramidilli xristianlara İsa Məsihin doğulduğu Nazaret şəhərinin adına uyğun olaraq "nazarilər" deyirdilər. Bu termin Sasani əyanı. atəşpərəst Kartirin kitabəsində konsonant arami yazısı ilə **n'čl'y** formasında qeyd olunub. Bax: Фрай Р. Наследие Ирана…, с.302. Sasani qanunnaməsində xristianlara **tarsāg agdēn** "hər hansı kafir" ifadəsi şamil olunub. Bax: Касумова С. Христианство в Азербайджане в раннем средневековье..., с.66.

[2] **Qavar** termininin kökündə hurri sözü **qawrə** və eyni mənşəli biayni (Urartunun dili) sözü **qiura** "torpaq, ərazi" durur. **Nahang** termini

Kürün sol sahilində Qəbələ, Şəki, Kambisena və Eceri[1] vilayətləri yerləşirdi. Kürün sol sahilində yerləşən iki müstəqil siyasi qurum – Çola və Lpiniya – 488-ci ildə Albaniya dövlətinə birləşdirilmişdir. Çola Albaniya dövlətinin şimal-şərq periferiyası olmaqla Dərbənddən Beşbarmaq dağınadək uzanırdı; erkən orta əsrlərdə Massaget şahlığının siyasi mərkəzi bu vilayətdə yerləşirdi. Bu strateji əhəmiyyətli vilayət şimal köçəri tayfaları üçün cənuba açılan qapı idi və müxtəlif vaxtlarda buradan keçən tayfalar Cənubi Qafqaz, İran və Bizans üçün ciddi təhlükə yaradırdılar. Bu vilayətin strateji əhəmiyyətini dərk edən Sasani şahı II Yezdəgird Dərbənd səddinin tikintisinə əmr vermişdir. Lpiniya vilayəti Baş Qafqazın cənub ətəklərində, Alazan çayı vadisində yerləşirdi.

Albaniyanın mühüm vilayətlərindən Girdimanın siyasi yüksəlişi Mehranilər sülaləsi dövrünə təsadüf edir. Tarixşünaslıqda bu vilayətin lokalizasiyasında fərqli fikirlər mövcuddur. Gürcüstanın Qardabani rayonunun adına əsasən Girdimanı ənənəvi olaraq Şəmkirçayın hövzəsində, Tovuz-Qazax bölgəsində lokalizə edirlər. Q.Cəbiyev isə onu Şirvan bölgəsində, əsasən İsmayıllı və Ağsu rayonlarının ərazisində yerləşdirir. [2] Alban tarixi ənənəsinə görə Girdimanın yerli sakinləri Albaniya dövlətçiliyinin əsasını qoyan mifik Aranın törəmələri idi (Musa Kalankatlı, I, 4). Əvvəllər Uti vilayətinin tərkibində olan Girdiman 705-ci ildən sonra ərəblərin təsis etdiyi

---

aramimənşəllidir; müqayisə et: ərəbcə *nahiyə* (“bölgə”). Söz sonralar parflar, onlardan da ermənilər tərəfindən mənimsənilib. Müqayisə et: ilk orta əsr erməni mənbələrindəki *naharar* (“torpaq sahibi”) < aramicə **naxwadar** (hərfən: “birinciliyi tutan”, “birinci olan”), soqd mətnlərində **nāfadār** (“icma/ailə başçısı”).

[1] Eceri Qəbələdən cənubda, Girdimançay və Qarasu çayları arasında yerləşirdi; ehtimal olunur ki, vilayətin adı sonralar “Ucar” formasına düşüb.

[2] Мамедова Ф. Кавказская Албания и албанцы…, с.260; Cəbiyev Q. Girdiman. Tarixi və tarixi coğrafiyası. Bakı, 2015, s.37-70.

Arran vilayətinə qatılmışdır.

12 vilayətdən ibarət olan Sisakan (və ya Sünik) müasir Zəngəzurun bütün ərazisini əhatə edirdi. İlk dəfə "Sakan ölkəsi" adı ilə I Şapurun Kəbeyi-Zərdüşt kitabəsində Albaniya, Atropatena, İberiya, Armeniya ilə yanaşı xatırlanır. III əsrdə Sünik döyüş meydanına 20 min suvari çıxarmaq iqtidarında idi. Ərəb yürüşləri ərəfəsində Sünik xəzərlər tərəfindən işğal olunmuşdur.

313-cü ildə Alban hökmdarı Urnayr xristianlığı rəsmi olaraq dövlət dini elan edir. Musa Kalankatlı (I, 9) bu barədə yazır: "Müqəddəs Qriqorinin vasitəsilə o (Urnayr – Red.) yenidən dünyaya gəlmiş ... və albanları imana gətirmişdir".[1] Əsərinin başqa bir yerində (I, 11) o yazır: "Aldığı hədiyyələrlə Urnayr vətəninə – albanlar ölkəsinə – qayıtdı. Burada o, həvarilərin qanunları əsasında əhaliyə dərs verir və [beləcə onların] adları Həyat Kitabına yazılırdı".

Ölkədə etnik rəngarəngliyin, çoxtanrıçılığın hökmranlığı şəraitində monoteist dini ideologiyaya tələbat yaranmışdır. Albaniyanın hakim elitası xristianlığı vahid ideologiya seçməklə həm Sasanilərin yaymağa çalışdığı zərdüştiliyə, həm də Albaniyada mövcud olan Tanrıçılıq və bütpərəstliyə qarşı mübarizə aparmaq niyyətində idi.

Urnayr Sasani şahı II Şapurun yeznəsi idi. Sülalə qohumluğu Sasani və Albaniya dövlətlərini müttəfiq etmişdir; onlar düşmənlərə qarşı birgə hərbi əməliyyatlar aparırdılar.[2] Musa Kalankatlı (I, 9) Urnayrı "fədakar, Armeniyanın mərkəzinə qələbə bayrağını sancan, böyük müharibələrdə şərəfli ad çıxaran rəşadətli ər" adlandırır. Qəbələ şəhəri onun dövlətinin siyasi-ideoloji mərkəzi idi. O, parfiyalı xristian missioneri Müqəddəs

---

[1] The Caucasian Albanian Palimpsest of Mt. Sinai. Vol.I, p.XIII.

[2] Amid yaxınlığında və Dzirav çölündə 359 və 371-ci illərdə baş verən döyüşlərdə II Şapurla Urnayrın qoşunları Romaya qarşı vuruşmuşlar.

Qriqorinin[1] müasiri idi. İlk orta əsr mənbələrində bildirilir ki, Alban əyanları Anadolu Arşakilərinin mərkəzi Valarşapata gələrək III Trdat (287-330) və Müqəddəs Qriqori ilə görüşmüş onlardan Albaniyada xristianlığı yaymaq üçün yepiskop göndərmələrini xahiş etmişlər. M.Kalankatlının məlumatına görə (I, 14) Parfiyalı Anakın oğlu Qriqori əvvəllər Albaniyada, "Haband" adlanan qavarda xristianlığı yaymağa təşəbbüs göstərmiş, hətta "Amaras" adlanan yerdə kilsə tikdirmişdir. Başqa sözlə, Urnayrın təklifinə qədər də siyasi elitanın nümayəndələri xristian ehkamları ilə tanış idilər. Ola bilsin ki, I Şapurun zamanında (262-ci ildən sonra) Albaniyanın Sasanilərdən asılı vəziyyətə düşməsi ilə əlaqədar xristianların təqib olunması səbəbindən yeni təlimin kütləvilik qazanmasında fasilə yaranmışdır. Qriqorinin dini fəaliyyəti Sasani zülmünə qarşı ideoloji müqavimətə çevrilmişdir. Alban şahından gələn təklifə cavab olaraq, dini missiyanı davam etdirmək məqsədilə Qriqori 15 yaşlı nəvəsi Qriqorisi (Vrtanesin[2] oğlu) Albaniyaya, Maskutlar ölkəsinə yepiskop göndərmişdir.[3] Albaniyanın Tsri şəhərində kiçik kilsənin inşasını tamamladıqdan sonra Qriqoris Maskutlar ölkəsinə yollanır. Burada onu xoş qarşılayırlar, onların şahı, hun ordusunun başçısı, Parfiya Arşakilərinə qohumluğu olan Sanesan qəbul edir. Lakin Qriqorisin təbliğatı və missioner fəaliyyəti yerli sakinlər tərəfindən narazılıqla qarşılanır. Qriqorisi erməni çarının casusu olmaqda ittiham edirdilər. Onu hun-maskut hökmdarı Sanesanın (Sanatürk) göstərişi ilə vəhşi

[1] Əslən parfiyalı olan Qriqori (252-326) Qeysəriyyədə təhsil alıb və fəaliyyətinin çox hissəsini III Trdatın hakimiyyəti zamanı Şərqi Anadoluda davam etdirib.
[2] Parfiya mənşəli Mərdan ismi erməni orfoqrafiyasında "Vrtanes" formasında verilir.
[3] Qriqorisin albanlara və iberlərə yepiskop kimi göndərilərkən 15 yaşında olması inandırıcı görünmür; o yaşda yeniyetmə Bibliyanın müqəddəs kəlamlarını, xristianlığın fəlsəfəsini dərk edə bilməzdi. Bax: Мамедова Ф. Кавказская Албания и албанцы…, с.346.

atın quyruğuna bağlayıb Vatupan (və ya Vatinian) adlanan çölə buraxırlar. Onun qətlə yetirilməsi faktı Asoqikin, Moisey Horenlinin və Vardanın əsərlərində də əks olunub.[1] Xeyli sonralar Alban şahı III Vaçaqanın göstərişi ilə Qriqorisin nəşinin qalıqları tapılaraq Amarasda dəfn edilir və qəbri üzərində kilsə inşa edilir (Musa Kalankatlı..., I, 23). Növbəti ildə Suriyadan gələn rahiblər Qaku monastrını inşa edirlər.[2] Hripsime adlı cəfa-keş qadının da nəşi tapılaraq Qarabağın dağlıq hissəsində, Darahoç kəndində xristian adəti ilə dəfn edilmişdir (Musa Kalankatlı..., I, 21).

Musa Kalankatlı (I, 14) Müqəddəs Qriqorisin şagirdlərindən əslən Çoladan olan Danil adlı rahibin Aku kəndində büt-pərəstlər tərəfindən qətlə yetirildiyi və suriyalı rahiblərin onun qəbri üzərində ibadət yeri inşa etdikləri haqqında da xəbər verir.

Hun hökmdarı Sanesan erməni çarının xristianlıqdan siyasi alət kimi istifadə etməsinə cavab olaraq 337-ci ildə Şərqi Anadoluya yürüş etmişdir. Hunlar Anadolu Arşakilərinin mərkəzi Valarşapatı (və ya Vaqarşabat; "Sasani şəhı Balaşın şəhəri") dağıdaraq, ermənilərin Albaniyaya qarşı işğalçı planlarının üstündən xətt çəkirlər.

Xristianlığın qəbul olunması Albaniyanın xristian dünyası ilə eyni iqtisadi və mədəni məkana inteqrasiya olunmasına zəmin yaratdı. Yeni dini təlimin yayılması üçün daha münasib

---

[1] Məmmədov T. Qafqaz Albaniyası ilk orta əsrlərdə. Bakı, 2006, s. 195-197. Maraqlı faktdır ki, Qriqoris Sanesanın 3 oğlunu xristian məzhəbinə cəlb edə bilmişdir. Qriqorisin qətlindən sonra Sanesanın oğulları tərkidünya həyat sürməyə başlayırlar; bir müddət sonra onlar atalarının əmri ilə öldürülmüşlər. Bax: Musa Kalanankatuklu..., II, 5. Bizanslı Favstosun məlumatına görə (III, 7) Sanesan Oşakan adlanan yerdə xristian ermənilərlə döyüşmüşdür.

[2] Suriyalı rahiblər sonralar da Albaniyada xristianlığın möhkəmlən-məsinə töhfə vermişlər. Məsələn, 900-cü ildə Partavda Şərqi Suriya nestorian kilsəsinin metropoliya iqamətgahı fəaliyyət göstərirdi. Bax: Xəlilov M.C. Albaniyanın xristian abidələri..., s.258-259.

şərait 325-ci ildən sonra, Nikey (indiki Türkiyədə İznik) məclisində xristianlığın Romada imperiya dini elan edilməsi ilə yaranır. Alban xristian kilsəsi bütün tarixi boyu müstəqilliyini qoruyub saxlaya bildi və heç bir kənar kilsə onun fəaliyyətinə müdaxilə etmək səlahiyyətinə malik deyildi. Lakin Urnayrın sağlığında xristianlıq Albaniyada rəsmi dövlət dini elan olunsa da, bütövlükdə hakim ideologiyaya çevrilə bilmədi. Bunun başlıca səbəbi yerli əhalinin əksəriyyətini təşkil edən türk boylarının tanrıçılığa sitayiş etməsi və azsaylı qeyri-türk tayfaların köhnə dini inanclarından, astral dünyagörüşlərindən əl çəkməməsi, əsasən də II Şapurun dövründə xristianların təqibinin güclənməsi idi. Urnayrın xələflərinin, Asuagen, II Vaçe və III Vaçaqanın fəaliyyəti ölkədə xristianlığın yayılmasına yönəlmişdir. Alban hökmdarlarının göstərişi ilə bütpərəst dinlərin kökünü kəsmək üçün kahinlər, ovsunçular, cadugərlər öldürülür, ölkədən qovulurdu. Albaniyanın siyasi suverenliyi ölkədə müstəqil kilsə yaratmağa imkan vermişdi. 340-cı ildə Alban Apostol kilsəsi artıq avtokefal (müstəqil) idi, yəni kilsə başçısının təsdiqolunma mərasimini özü keçirirdi.

Albaniyada olduğu kimi, Anadolunun şərqində xristianlığın ilk həvari-missionerləri Faddey və Varfolomey hesab edilir; təqribən 70-ci ildə onların xeyir-duası ilə Zaxari Armeniyanın ilk yepiskopu təyin olunmuşdur. Hazırda əsassız olaraq ermənilər tərəfindən belə bir fikir təlqin olunur ki, guya Maarifçi Qriqorinin xeyir-duası ilə Armeniya şahlığı 301-ci ildə III Trdatın hakimiyyəti zamanı xristianlığı rəsmi şəkildə qəbul edən ilk dövlət olmuşdur.[1] Bu məlumat yalnız özünü III Trdatın müasiri kimi qələmə verən Aqafangelin "Ermənilərin tarixi" əsərində qeydə alınıb. Lakin dəqiq müəyyən edilib ki, bu əsər təxminən 450-ci ilə aiddir və onun müəllifi heç cür III Trdatın və Maarifçi Qriqorinin müasiri ola bilməzdi.

---

[1] История армянского народа (под ред. Н.Г. Нерсисяна). Ереван, 1980, с.88.

Əslən Parfiyalı olan III Trdatın 301-ci ildə tabeliyindəki Armeniyanı rəsmi olaraq xristianlığın subyekti elan edə bilməsi tarixi gerçəkliklə uzlaşmır. Sasani şahı I Şapurun göstərişi ilə 252-ci ildə Armeniyanın hakimi Xosrov Kotak ailəsi ilə birgə qətlə yetirilmişdir. Yalnız onun iki oğlunu (onlardan biri Trdat idi) xilas edərək Romaya qaçırmaq mümkün olmuşdur. 287-ci ildə imperator Diokletianın dəstəyi ilə Trdat Armeniya hökmdarı elan olunur. Romameyilli siyasət yürütdüyündən Sasani şahənşahı Narse 296-cı ildə Armeniyaya və Romanın digər Şərq vilayətlərinə qoşun yeridir. İki ildən sonra Nisibisdə Roma ilə İran arasında bağlanan sülh müqaviləsinin şərtlərinə uyğun olaraq III Trdat yenidən Armeniya hakimi olur, lakin Romanın asıllığında qalaraq Romameyilli siyasətini davam etdirirdi.

Erməni tədqiqatçıları və onların havadarları təkidlə iddia edirlər ki, Nisibis sülhündən sonra guya həm Roma, həm də Sasani İranı Armeniya çarlığının suverenliyini rəsmən tanımışlar. Əslində bu tanınma birtərəfli idi; sülh yalnız Armeniyanın Sasani dövləti ilə sərhəd xəttini müəyyən etdi və Sasani şahı 40 il müddətində sərhədi pozmayacağına zəmanət verdi. Lakin müqavilədə Armeniyanın Roma ilə olan qərb sərhədinə dair heç nə deyilmir, çünki belə sərhəd əvvəllər də olmadığından onu yenidən təyin etməyə ehtiyac yox idi. Yəni, faktiki olaraq bu sazişlə əslində Roma ilə Sasani İranı arasında bufer zona olan Armeniyanın şərq torpaqlarından keçən sərhəd zolağı razılaşdırılmışdır və Armeniya əvvəlki kimi yenə də Romanın əyaləti olaraq qalmaqda idi. Armeniya əyalətindən Roma ordusu üçün əsgərlər səfərbər olunurdu. Köçəri tayfaların bu əraziyə hücumlarının qarşısını almaq üçün Böyük Konstantinin ordusu III Trdatın hakimiyyətini qoruyurdu.

Böyük Konstantin 324-cü ildə Adrianapolda (indiki Ədirnə) Litsini üzərində qələbədən sonra Roma imperiyasının tamsəlahiyyətli hökmdarı olur və 6 il sonra dövlətin paytaxtını Bizans torpaqlarında yeni salınmış Konstantinopola (indiki İstanbula) köçürür. Hakimiyyətinin ilk illərində, sələfləri kimi, o

da bütpərəst idi və rəvayətə görə ona şöhrət gətirən Mulvi döyüşündən sonra (312-ci il) xristianlığı qəbul etmişdir. Bir il sonra şəxsiyyət azadlığı ilə bağlı qəbul edilmiş Milan fərmanı ilə imperiyada kilsələrin qeyri-leqal fəaliyyətinə xitam verilir, onlar vergidən azad olunurlar, 323-cü ildə isə bütpərəst məbədlərin dağıdılması haqqında yeni fərman verilir. Bu islahatlar xristianlığın imperiya hüdudlarında yayılmasını əngəlləyən maneələri aradan qaldırsa və yeni təlimin təbliğinə təşviq etsə də imperiyanın daxili vilayətlərində xristianlığa aparan proseslər ləng gedirdi. Bunun başlıca səbəblərindən biri Milan fərmanının mühüm şərtlərindən birinin – köhnə bütpərəst məbədlərin dağıdılmasının – icra olunmaması idi. Erməni "tarixçiləri" Milan fərmanının mahiyyətini saxtalaşdıraraq hesab edirlər ki, guya bu fərmanla xristianlığın yayılması rəsmiləşdirilmişdir.

Nəzərə almaq lazımdır ki, hələ Parfiyanın siyasi hegemonluğu dövründən atəşpərəst (zərdüşti) təliminin kök saldığı məbədlər yüzilliklər ərzində Yuxarı Fərat hövzəsində fəaliyyətlərini davam etdirirdilər. Bizansın tərkibində olsa belə, Armeniya Parfiya əsilli sülalə tərəfindən idarə olunurdu. Bizans imperiyasının daxili vilayətlərində xristianlıq zəfər çalmadan imperiyanın ucqar əyalətlərində, xüsusən də düşmən Sasani dövləti ilə sərhəddə yerləşən Armeniyada xeyli əvvəl, özü də birtərəfli qaydada, yeni ideologiya rəsmiləşdirilə bilməzdi, əks halda bu hadisə mərkəzi hakimiyyət tərəfindən ciddi müqavimətlə qarşılanardı. Deməli, Armeniyada xristianlığın rəsmi din səviyyəsində yayılması üçün münbit zəmin Nikey yığıncağından əvvəl yarana bilməzdi.[1]

---

[1] Tədqiqatçıların əksəriyyəti Armeniyada xristianlığın rəsmi tarixini 314-cü ildən hesablayırlar. Bax: История Древнего мира (Под ред. И.М. Дьяконова, В.Д. Нероновой, И.С. Свенцицкой). Т. 3. Упадок древних обществ, 2-е изд. Москва, 1983, с.201-220; Tejirian E.H. Reeva Spector Simon. Conflict, Conquest, and Conversion: Two Thousand Years of Christian Missions in the Middle East. Columbia University Press, 2012, p.14; Stopka K. Armenia

На 43-мъ году лѣтосчисленія греческаго просвѣтились Армяне, спустя 270 [1]) лѣтъ послѣ просвѣщенія Агванцевъ.

**Şəkil 22.** Patkanyanın tərcüməsindən fraqment

Bu məsələ ilə bağlı M.Kalankatlının əsərinin erməni tarixçiləri tərəfindən edilmiş tərcümə variantlarını tutuşdurmaq qərarına gəldik. K.Patkanyan 1861-ci ildə əsəri ilk dəfə rus dilinə tərcümə edərkən kitabın 216-cı səhifəsində (bax: şəkil 22) Musa Kalankatlının II kitabının 47 fəslini belə tərcümə edib: “Yunan təqviminin 43-cü ilində, albanların maariflənməsindən 270 il sonra ermənilər aydınlandı (xristianlığı qəbul etdi – Red.)”.

Ç.Dovsetin ingilis dilinə etdiyi tərcümədə cümlənin mahiyyəti saxlanılıb (bax: şəkil 23): “Roma erasının 43-cü ilində, Armeniya imana gəldi, Albaniya isə 270 il əvvəl bu imanı qəbul etmişdir”.[1]

It was in the forty-third year of the Roman era that Armenia was converted to the faith, and Albania was converted 270 years previously.

**Şəkil 23.** Ç.Dovsetin tərcüməsindən fraqment

1984-cü ildə Ş.V.Smbatyan M.Kalankatlının əsərini yenidən rus dilinə tərcümə edir. O, öz tərcüməsi haqqında yazır: “Bu tərcümə Matenadaranda saxlanan 11 əlyazmanın V.Arakelyanın

---

Christiana: Armenian Religious Identity and the Churches of Constantinople and Rome (4th – 15th century). Jagiellonian University Press, 2016, p.31; Garsoian N. The Armenian People from Ancient to Modern Times / The Arsakuni Dynasty Vol. I, 1997, p.82.

[1] The History of the Caucasian Albanians by Movsēs Dasxurancı. Translated by C.J.F.Dowsett. London Oriental Series. Vol.8. London, Oxford University Press, 1961, p.173.

nəşrə hazırladığı elmi-tənqidi (əslində saxtalaşdırdığı – Red.) mətnə əsaslanır. Əlavə olaraq, N.Eminin, K.Şahnazaryanın, K.Patkanyanın və Ç.Dovsetin tərcümələri ilə müqayisə olunub”. Lakin bizi maraqlandıran kontekst Ş.V.Smbatyan tərəfindən tamamilə yanlış tərcümə olunub:

«Был сорок третий год греческого летоисчисления, когда просветились армяне [приняв христианскую] веру, на двести семьдесят лет раньше просвещения Алуанка».

“Albaniyanın maariflənməsindən 270 il əvvəl, yunan təqviminin 43-cü ilində ermənilər [xristianlığı qəbul edərək] maarifləndilər”.[1]

Xristianlığın Armeniyada daha əvvəl yayıldığını əsaslandırmaq üçün ermənilər hər cür saxtakarlığa əl atırlar, ilk mənbələrin məzmununu özlərinə sərf edən şəkildə təqdim etməklə özlərinə yeni tarix uydurur və dünya elmi ictimaiyyətini də bu

---

[1] Ş.Smbatyan öz tərcüməsini onunla əsaslandırmağa çalışır ki, M.Kalankatlının əsərinin “daha etibarlı olan” 1289-cu ilə aid ən qədim əlyazma nüsxəsindən yararlanıb. Bax: Мовсес Каланкатуаци. История страны Алуанк (перевод с древнеармянского, предисловие и комментарий Ш.В.Смбатяна)…, с.136, 215. Bu halda anlaşılmır, nə üçün bu nüsxə Ç.Dovsetə və K.Patkanyana məlum olduğu halda, nəzərdən keçirilən konteksti həmin nüsxəyə əsasən tərcümə etməyiblər. Görünür, 1289-cu il nüsxəsi bu müəlliflərə etibarsız görünüb!

Ş.Smbatyanın daha bir saxtakarlığı Musa Kalankatlının əsərinin I kitabının 27-ci fəslinin tərcüməsində nəzərə çarpır: «Вернувшись в Армению, он (Маштоц – Red.) отправился в Восточный край (Албанию – Red.), в гавар Ути. Здесь они стали жить близ местечке Гис». Bax: Мовсес Каланкатуаци. История страны Алуанк (перевод с древнеармянского, предисловие и комментарий Ш.В.Смбатяна)…, с.60. Tərcümədən belə çıxır ki, guya “Şərq ölkəsi” (=Albaniya), Uti vilayəti və Qis kəndi Armeniyada yerləşirdi. Əslində nəzərdən keçirdiyimiz fraqment belə tərcümə olunmalı idi: «Вернувшись из Армении…».

cəfəngiyata inandırmağa çalışırlar.[1]

Katolikos Nersesin (353-373-cü illər) ölümündən sonra Qeysəriyyə Sinodunun çıxardığı qərara əsasən Armeniyanın müstəqil olaraq katolikos təyin etmək hüququna son qoyulur və 387-ci ilədək Armeniya kilsəsi Roma mərkəzi kilsəsi ilə sıx fəaliyyət göstərir. Müqayisə üçün qeyd edək ki, həmin dövrdə İberiya kilsəsi Antioxiya şəhərinin yeparxiyası tərəfindən idarə olunurdu. Hətta V əsrin ortalarında (çar Vaxtanqın zamanında) avtokefal status qazansa da gürcü kilsəsi Antioxiya patriarxlığının nəzdində fəaliyyət göstərirdi. İlk vaxtlar periferiyalarda təsis olunmuş xristian məbədləri 325-ci ildə Nikey kilsə məclisində təsbit olunan vahid ideoloji xətt üzrə fəaliyyət göstərirdilər.

387-ci il bölgüsündən sonra Armeniyanın Sasanilərin payına düşən şərq hissəsində zərdüştiliyin təsirindən xristianlıq ümumiyyətlə özünə tərəfdarlar qazana bilmədi. Burada 428-ci ildə xristianların təqibi ilə erməni kilsəsinə ciddi zərbə vurulmuşdur. Bir qədər sonra erməni katolikosluğuna suriyalılar

---

[1] Türkiyənin şərqində, Van bölgəsində yeganə xristian toplum olan ermənilər hələ XIX əsrin ortalarında Urartu hökmdarlarının mixi yazılı kitabələrinin onlara aid olduğunu sübut etmək üçün müxtəlif fırıldaqlara əl atırdılar. O vaxtlar Urartu mixi kitabələrinin sirri açılmadığından və məzmunu bəlli olmadığı halda onları erməni xristian abidələri kimi təqdim edirdilər. Ermənilər öncə qaya daşlarına həkk olunmuş kitabələrin üzərinə xaç təsvirini çəkməklə (belə daş kitabələrin bir neçəsi Tbilisidəki Tarix muzeyində saxlanır) özününküləşdirirdilər. Sonrakı mərhələdə həmin yazılı qaya parçalarından Surb Sahak və Surb Poqos kilsələrinin tikintisi zamanı inşaat materialı kimi istifadə etmişlər. Nəticədə bu fırıldaqdan xəbəri olmayanlarda elə təəssürat yaranmışdır ki, həmin kilsələrin divarlarını bəzəyən Urartu kitabələrində guya qədim erməni dilində İsa Məsihin müqəddəs kəlamları yazılıb. 1880-ci illərdə S.Quyar, A.H.Seys tərəfindən Urartu kitabələrinin sirri açıldıqca erməni yalanları sabun köpüyü kimi partladı.

(Surmak, Brkişo, Şmuel) gətirilir. Məqsəd Armeniyanın şərq hissəsində ənənəvi yunan-Bizans xristianlığının dayaqlarını sarsıtmaq idi. Bibliyanın erməni dilinə ilk tərcüməsi də (V əsr) suryani (arami) dilindəki variant əsasında olmuşdur; bu məqsədlə iki monax Edessaya ezam olunmuşdur.

Albaniya isə Böyük Konstantinədək Romanın və sonralar imperiyanın siyasi varisi olan Bizansın tabeliyində olmadığından,[1] xristianlığın nisbətən daha erkən qəbulu və yayılması üçün əlverişli şərtlərə malik idi. Roma hakim elitasının təqiblərindən yaxa qurtaran dağınıq xristian icmaları Albaniyada sığınacaq tapmaqla yeni vətənlərində demoqrafik artıma da səbəb olurdular. Yaxın Şərqdə siyasi nüfuz uğrunda Sasani imperiyası ilə vaxtaşırı baş verən müharibələr fonunda Bizansın xristianlığa meydan yaratması düşünülmüş addım idi; nəticədə ölkədə əhali sayının azalmasının qarşısı alınırdı. Lakin imperiyanın digər vilayətlərindən fərqli olaraq, Armeniyada xristianlığı təbliğ edən həvarilərə və onların şagirdlərinə qarşı kütləvi qətllərlə müşayiət olunan terror əməlləri geniş həyata keçirilirdi. V əsrin 70-ci illərində əslən Bizansdan olan yunan əsilli xristian missioneri Favstosun yazdığına görə (III, 13), III-IV əsrlərdə erməni toplumu xristianlığın ilahi kəlamlarına ciddi əhəmiyyət vermirdilər. Arşaki sülaləsindən olan Armeniya çarı Xosrov Kotakın oğlu Tiran erməni-xristian kilsəsinə başçılıq edən İusiki terror nəticəsində qətlə yetirmişdir.

Erməni-xristian kilsələrinin "anası" 365-ci ildə Artişat şəhərində (Dəclə və Fərat çaylarının yuxarı vadilərində) inşa edilmişdir.[2] Qeyd edək ki, indiki Ermənistan respublikasının ərazisindəki ən qədim xristian abidələri V-VI əsrlərə aiddir; Memarlıq üslubu da göstərir ki, bu məbədlər Albaniyanın xris-

---

[1] K.V.Trever haqlı olaraq bildirir: "bütün Qafqaz Romanın tabeçiliyinə keçsə də, yalnız Albaniya öz suverenliyini qoruyub saxlaya bilmişdir". Bax: Тревер К.В. Очерки по истории и культуры Кавказской Албании..., с.129.

[2] Адонц Н. Армения в эпоху Юстиниана. Ереван, 1971, с.319, 343.

tianlıq abidələridir.[1]

Albaniyanın qonşuluğundakı Kartlidə xristianlığın Suriya mərhələsinin olmasına dair faktlar yoxdur. Kartlidə xristianlaşmaya aparan proseslərə yalnız Nikey yığıncağından sonra start verilmişdir. Gürcü xalqının dini ideologiyası üçün həlledici olan bu tarixi hadisə Kappadokiya əsilli müqəddəs Georginin yaxın qohumu müqəddəs Ninonun Yerüsəlimdən gəlişi ilə bağlı olmuşdur. Roma imperatoru I Konstantin Kartli çarı Mirianın və təbəələrinin xaç suyuna salınması xahişinə əməl edərək bir neçə keşişi yepiskop İohanın müşayiəti ilə Msxetaya göndərmiş və ilk kilsə də orada inşa edilmişdir. Xristianlıq rəsmi din elan olunduqdan sonra I Konstantin İsanın təsviri olan ikonanı və Məsihin edamında istifadə olunmuş əşyaların bir qismini Gürcüstana yollamışdır.[2]

Yeni dinin təbliği Qüdsdən və Suriyadan gələn həvarilərlə bağlı olduğundan ilkin mərhələdə alban, gürcü və erməni kilsələri arasında heç bir ideoloji fərq yox idi. Nikey yığıncağından sonra bu kilsələrin yolları ayrıldı.

---

[1] Bura Şaqakat, Masdərə, Xorvirab, Avan, Uzunlar, Yağaverd, Purqun kilsələri daxildir. Bax: Ələkbərli Ə. Qərbi Azərbaycan abidələri. Bakı, 2006, s.41-55. Mehranilərin hakimiyyəti zamanı Albaniyanın hər yerində olduğu kimi, Qərbi Azərbaycan ərazisində də xristian məbədləri (Üçkilsə, Müqəddəs Ripsime, Qayana, Qırmızıvəng, Qerqavəng, Talın, Qamsarakan, Talış) inşa edilmişir. Bax: Ələkbərli Ə. Qərbi Azərbaycan abidələri..., s.57-75.

[2] Джавахов И. Проповедническая деятельность апостола Андрея и Св. Нины в Грузии // Журнал Мнистерства Народного Просвещения, 1901, 333, с.81, 100. Borçalı ərazisində kurqanların yaxınlığında, bəzən də onların üzərində erkən xristian məbədlərinin tikilməsi ənənəsinin ən yaxşı nümunələrindən biri Trialetidə Kiçik çayın yuxarı vadisində Alakənd ərazisində IV əsrdə inşa edilmiş Mənglis kilsəsidir. Bax: Кавказский календарь на 1852 год. Издании отъ канцелярии Кавказского намиъстника. Тифлись, 1851, с.463-466.

Beləliklə, xristianlığın rəsmi şəkildə ilk dəfə Roma imperiyasının Şərq vilayətində yox, Alban dövlətində qəbul olunduğunu əminliklə söyləyə bilərik. Sasani şahı I Yezdəgirdin zamanında (393-420) Albaniyanin katolikosu I Ter-Ovxan olmuşdur; o hətta hunların katolikosu idi. "Alban tarixi"ndə onun adı I İohann kimi çəkilir.[1] Gəncəli Kirakosun verdiyi məlumatdan aydın olur ki, Qafqazda hunlar dedikdə, Qıpçaq boyları nəzərdə tutulur. Qeyd edək ki, "Alban tarixi"ndə Qarabağın dağlıq hissəsini əhatə edən Böyük Koğman əyalətindən və orada Alban-Qıpçaq katolikosluğuna tabe olan dini mərkəzdən bəhs edilir.[2]

Azərbaycanda xristianlığın yayılmasını təmin edən mühüm şərtlərdən biri ölkədə qədim zamanlardan yəhudi icmalarının oturaq həyat şəraitində yaşamaları olub.[3]

### **3.4. Alban kilsəsi ideoloji mərkəz kimi. Kanonlar və missionerlik fəaliyyəti**

"Mömin" təxəllüsü ilə tanınan III Vaçaqan əhalinin xristianlığa inamını və etibarını təmin etmək, cəmiyyətdə hökm sürən hərc-mərcliyi aradan qaldırmaq, müstəqil Alban kilsəsinin dayaqlarını möhkəmləndirmək, dini qayda və ehkamları xristian

---

[1] The History of the Caucasian Albanians by Movsēs Dasxuranci. Translated by C. J. F. Dowsett. London: Oxford University Press, 1961, p.228; Киракос Гандзакеци. История Армении (пер. с. древнеармянского, предисловие и комментарии Л.А.Ханларяна), Москва, 1976, с.134; Геюшев Р. Христианство в Кавказской Албании…, с.35.

[2] The History of the Caucasian Albanians by Movsēs Dasxuranci…, p.72, 132, 151, 154, 220. Koğman toponimi Kuman-Qıpçaq boyunun adı ilə izah olunur. Bu məlumatlar Alban və Qıpçaq boylarının vahid dövlətin tərkibində olduğunu, həmçinin türk soylu xristian din xadimlərinin yüksək dini statusa malik olduğunu söyləməyə imkan verir.

[3] Услар П. Начало христианство в Закавказье и на Кавказе / Сборник сведений о Кавказских горцах, 1869, Вып. 2, с.4-6.

ənənələri ilə tənzimləmək məqsədilə xaçpərəst ruhanilərin ali kilsə məclisini toplamağı qərara alır və bu məqsədlə 488-ci ildə Aluendə[1] kilsə məclisi çağırılır. Musa Kalankatlı (I, 26) bu ali tədbirin əhali ilə xristian din xadimləri arasında yaranan narazılıqları aradan qaldırmaq məqsədilə çağırıldığını bildirir. Məclisdə Partavın (Bərdə), Kabalakanın (Qəbələ), Haşunun, Utinin yepiskopları, Kalankatuk, Partav, Qaquç, Bed, Darahoç, Manuşik şəhərlərinin və sarayın iereyləri, Tsrinin xoroyepiskopu, eləcə də müstəqil fəaliyyət göstərən yepiskoplar və iereylər, həmçini iri torpaq sahibləri iştirak etmişlər. Alban hökmdarının məqsədi bütün sosial təbəqələr arasındakı münasibətləri dini-hüquqi cəhətdən nizama salmaq idi.

Aluen dini məclisində 21 bənddən ibarət qanunlar qəbul olunmuşdur. Qanun eyni zamanda kilsə ierarxiyasının və iri torpaq sahiblərinin iqtisadi nüfuzunun artırılması üçün yeni hüquqi imkanlar açırdı. Qanunlarda vergi, cəza-məhkəmə, kilsənin idarə edilməsi, ailə münasibətləri, dini qadağa və məcburiyyətlər öz əksini tapmışdır. Azərbaycan tarixində xristian dininin prinsiplərini özündə əks etdirən ilk qanunvericilik sənədi olan bu qanunnamənin qəbul olunması ölkənin bütünlükdə kilsə qanunları ilə tənzim olunmasına xidmət edirdi.

Qanunlar cəmiyyətin hüquqi baxımdan idarəçiliyini kilsənin ixtiyarına vermişdi. Bazar günləri ölkədə ibadət günü elan olunmuşdur. Kilsəyə böyük imtiyazlar verilməklə, həm də əhalinin kilsə qarşısında öhdəlikləri də artırılmışdır. Təbəələrə hətta üçüncü nəsildən olan qohumu ilə ailə qurmağa, ölü üçün yas saxlamağa qadağa qoyulmuşdur.

Qanunların 1, 2, 6, 9, 15, 16-cı maddələri ruhanilərin hüquq və vəzifələrinə, kilsə xadimləri arasında münasibətlərin tənzimlənməsinə həsr olunub. İkinci maddədə kilsənin yuxarı və

---

[1] Aluen (erməni orfoqrafiyası ilə “Aquenk”; ehtimal ki, albanca “Alvan” kimi səslənirdi) III Vaçaqanın yay iqamətgahı olmaqla indiki Ağdam rayonu ərazisində yerləşirdi.

aşağı vəzifə nümayəndələri arasında münasibətlər belə müəyyənləşdirilib: "keşişdən aşağı olan vəzifələrə təyin olunan zaman keşiş yepiskopa 4 dirhəm, ondan aşağı vəzifəyə görə 2 dirhəm verməlidir".[1] Qanunların 6, 15, 16-cı maddələri yepiskopların və keşişlərin aşağı vəzifədə olan kilsə xadimlərinə münasibətlərindəki yurisdiksiyanı müəyyənləşdirir. Təqsiri olan iereyi və ya dyakonu yepiskop və ya keşiş mühakimə edə bilər. Kilsədə tutduğu vəzifədən azadetmə, kilsə xadimlərinin əlindən torpağının alınması, onun kənddən qovulması (icmadan kənarlaşdırılması) və digər cəza növləri müəyyənləşdirilmişdir. Qanunun 7 və 9-cu maddələrində iereylərin və eyni kilsəyə mənsub olan dindarların sayı dəqiqləşdirilir. 20-ci maddədə deyilir: "Əsilzadələr öz şəxsi mülklərindən yepiskopun xəbəri olmadan kimisə təyin edə bilməz və ya vəzifəsindən kənarlaşdıra bilməz.

Əhali üzərinə qoyulan vergilərlə bağlı sabit normalar müəyyənləşdirilmişdir. Əkinçilik və bağçılıqla məşğul olanlar, torpaq sahibləri kilsəyə illik vergi ödəyirdilər. Musa Kalankatlı yazır: "Kim dövlətlidirsə hər il 4 vahid buğda, 6 vahid arpa və 16 kuzə şirin çaxır, ortabablar – ½ kömbə çörək və imkanı olduğu qədər çaxır ödəməlidir. Kimin ki, nə əkin yeri, nə də üzümlüyü var – ondan heç nə alınmamalıdır. Evində qoyunu olan 1 qoyun, 3 qoyunun yununu və 1 baş pendir verməlidir. Atı olanlar 1 dayça, qara malı olanlar 1 buzov verməlidir". "Azad adamlar" zümrəsinə aid edilənlər məhsulla ödənilən (natural) vergidən əlavə kilsəyə illik gəlirlərinin 1/10 hissəsini verməli idilər. Bundan əlavə, ölənlərin ruhuna nəzir kimi "can vergisi" də mövcud idi (Musa Kalankatlı, I, 17, 19, 26, II, 27). Kilsə xadimləri dövlət fondundan xidmətlərinin qarşılığı olaraq torpaq, əkin sahəsi alırdı, lakin xidməti qənaətbəxş olmadıqda həmin sahə ondan alına bilərdi. Beləliklə, alınan vergilər hesabına kilsə daimi gəlirlə təmin olunurdu.

---

[1] Киракос Гандзакеци. История (пер. Т. Тер-Григоряна). Баку, 1946, с.72.

Aluen kilsə məclisi yeni dinin əsaslarını qaydaya və nizama salmaqla, eyni zamanda, Albaniyada feodal münasibətlərinin yeni müstəvidə daha da inkişaf etməsinə zəmin hazırladı. Yeni qanunların qəbulu nəticəsində Albaniya teokratiyanın hakim olduğu dünyəvi-hüquqi dövlətə çevrildi.

VI əsrin başlanğıcında kilsə iyerarxiyasının formalaşması prosesi əsasən başa çatır və Alban kilsəsi albanların birləşdirici təşkilatına çevrilir. Ölkənin mərkəzi kilsəsi inzibati vahidlərə – yeparxiya və yepiskopluqlara – bölünmüşdür, onlara yepiskoplar başçılıq edirdi. Yepiskopluqlar xoroyepiskoplara, onlar da öz növbəsində daha kiçik dairəyə bölünmüşdür. Bununla belə, yepiskopu olmayan vilayətlər də var idi. Məsələn, Arsakın 11 vilayətinin yalnız üçündə (Haband, Böyük Koğman,[1] Kiçik Aran) yepiskopluq fəaliyyət göstərirdi. III Vaçaqanın hakimiyyəti dövründə Albaniyada 5 yepiskopluq var idi: Bərdə, Qəbələ, Uti, Xaşya, Siri və onlara müvafiq olaraq Şupxaqişa, Manas, Ananiya, Sahak, Hunan, Mate kimi yepiskoplar başçılıq edirdi (Musa Kalankatlı, I, 26). Qeyd edək ki, Manas, Hunan və Mate türk mənşəli adlardır.

Mar Abasın katolikosluğu vaxtında yepiskopluqların sayı artırılmışdır. Bahaqatda Movses, Qəbələdə Qriqoris, Amarasda Xromik, Balasakanda Timofey, Şəkidə Abakkum, Qardmanda İovannes, Böyük Koğmanda Gevond yepiskop kimi fəaliyyət göstərirdilər (Musa Kalankatlı, II, 3).

Dvin məclisindən sonra, 551-595-ci illərdə Albaniyanın katolikosu olmuş Mar Abasın gördüyü ən mühüm tədbir mərkəzi kilsənin Çoladan Bərdəyə köçürülməsi olur; bunun

---

[1] Koğman toponimi xristianlığı daha erkən qəbul etmiş Kuman-Qıpçaq boyunun adı ilə bağlıdır. İskitlərin (skiflərin) qədim qolu olan kuman boyu Azərbaycan və Şərqi Anadolu ərazisində qədim zamanlardan yaşamışdır. E.ə. VIII əsrin ortalarına aid Urartu yazılarının verdiyi məlumata görə, bu tayfa Göyçə gölünün cənub və şərq hissəsində yaşamışdır. Bax: Меликишвили Г.А. Урартские клинообразные надписи…, 155 D, 155 F.

başlıca səbəbi xəzərlərin hücumlarının kəskinləşməsi ilə bağlı idi. Musa Kalankatlı (II, 4) yazır ki, xəzərlərin yürüşləri zamanı kilsələr və müqəddəs kitablar yandırılmışdır. [1] Mar Abasın fəaliyyəti əsasən diofizitlərə (xalkidonçuluğa) qarşı mübarizəyə yönəlmişdir. O, Zəburun dini kəlamlarını təbliğ edən Tovmas, Binet, İbas kimi nüfuzlu diofizit rahiblərin ölkədən qovulmasına nail olmuşdur.[2]

III Vaçaqanın hakimiyyəti illərində Paytakaran vilayətində Alban katolikosluğunun tabeçiliyində olan yepiskopluq yaradılmışdır. Bu dövrdə Cənubi Qafqazda, o cümlədən Albaniyada nestorianlıq təlimi geniş intişar tapır; hətta Alban katolikosluğu bu təlimə qarşı mübarizə aparmaq məcburiyyətində qalır.

Həmin dövrdə Sünik kilsəsi əvvəlki müstəqilliyini qoruyub saxlamışdır. Erməni monofizit kilsəsi mütəmadi olaraq Sünik kilsəsinin işinə müdaxilə edirdi. Bizans yepiskopunun məlumatına görə 571-ci ildə Sünik vilayətinin hakimi Vahan üsyan qaldıraraq ermənilərdən ayrıldığını elan edir və dini mərkəzin Dvindən Paytakarana (indiki Beyləqan) köçürülməsini və inzibati baxımdan Paytakaranın Aturpatakan kustuna birləşdirilməsi xahişi ilə Sasani şahına müraciət edir. Xahiş yerinə yetirildikdən sonra yeni vergi kadastrına uyğun olaraq Sünik

---

[1] Əl-Məsudinin məlumatına görə Harun ər-Rəşidin zamanında (786-809) xəzərlər iudaizmi qəbul etmişlər. A.P. Novoseltsev hesab edir ki, o zaman xəzərlərin hakim elitası iudaizmi qəbul etsə də əhalinin böyük əksəriyyəti islama və xristianlığa itaət edirdi, az qismi bütpərəstliyini qorumuşdu. Bax: Новосельцев А.П. Хазарское государство и его роль в истории Восточной Европы и Кавказа. Москва, 1990, с.150-153. L.Qumilyova görə Şimali Qafqazda siyasi birliklərini yarada xəzərlərin başçısı Bulan (isim türk mənşəlidir) 718-ci ildə "öz xalqı üçün iudaizm adətlərini bərpa etmişdir". Yalnız 803-cü ildə, yəhudi mənşəli Obadiya xəzərlərin ölkəsində hakimiyyəti ələ keçirəndən sonra iudaizm rəsmi qaydada dövlət dini elan olunmuşdur. Bax: Гумилев Л.Н. От Руси к России. Москва, 1992, с.121-122.

[2] Məmmədov T. Qafqaz Albaniyası..., s.227.

əhalisindən yığılan xərac Aturpatakan administrasiyasının xəzinəsinə daxil olurdu.[1] Paytakaranda Nestorian təliminin tərəfdarlarının çağırdığı 544-cü il sinodunun aktlarında Paytakaranın 2 yepiskopunun adları (İohann və İakov) çəkilir. Albaniya katolikosu Mar Abasın patriarxlığı zamanı Paytakaranın yepiskopu Timofey olmuşdur.

572-ci ildə Albaniyada növbəti dəfə yerli özünüidarəçilik bərpa olunur; ölkəyə siyasi-iqtisadi nəzarət əslən Mehranilər sülaləsinin nümayəndələrinə və yerli zadəganların ixtiyarına verilsə də, ölkə nominal olaraq Sasani şahının hakimiyyətində qalır. Lakin Mehranilər sülaləsinin nümayəndələri iki nəsildən sonra zərdüştilikdən imtina edib, xristianlığı qəbul etdilər, yerli Alban əyanları ilə qohumluq əlaqələri yaradaraq özləri də albanlaşdılar (Musa Kalankatlı, II, 17).

Xristianlığa dövlət tərəfindən göstərilən qayğı və təşviq nəticəsində Albaniya özü İsa Məsihin dini təlimini yayan metropoliyaya çevrilir. Albaniyanın şimal hüdudlarında möhkəmlənən və siyasi birliklərini yaradan gəlmə tayfalar, o cümlədən hunlar arasında xristianlığı yaymaq üçün hələ 522-ci ildə Varçana (hunların mərkəzi şəhəri, ərəblər onu "Səməndər" adlandırırdılar) Arran yepiskopu Kardostun (< yunanca Teokletos) başçılığı ilə 8 nəfərlik nümayəndə heyəti göndərilmişdir. Onlar 14 il hunların ölkəsində missioner kimi fəaliyyət göstərmiş, hunlara yazı mədəniyyətini öyrətmişlər, hətta Bibliyanı onların dilinə tərcümə etdirmişlər. Hunların ölkəsində missionerlik fəaliyyəti

---

[1] История епископа Себеоса. Перевел с четвертого исправленного армянского издания Ст. Малхасянц. Ереван, 1939, с.26-29, § VI. K. Trever Sebeosun bu məlumatının yanlış olduğunu bildirir və fikrini onunla əsaslandırmağa çalışır ki, vahid hərbi-inzibati ərazi sistemi o zaman yenicə təsis olunduğundan Albaniyanın Atropatena ilə sərhədləri dəqiqləşdirilməmişdir. Bax: Тревер К.В. Очерки по истории и культуры Кавказской Албании..., с.233.

Bizans rahibləri ilə birgə həyata keçirilirdi.[1] 452-ci ildə bütpərəst hunlar Alban xristian əzabkeşi Taquhi Baqratunini qətlə yetirsələr də, Albaniyada yaşayan hunların bir hissəsi həmin il xristianlığı qəbul etmişdir.[2] Hun basqınlarının qarşısını almaq, onların rəğbətini qazanmaq üçün Cavanşirin qardaşı oğlu, Mehranilərin son nümayəndəsi I Varaz-Trdat (Varazdat; 680-699) katolikos Yelizarın məsləhəti və Böyük Koğman vilayətinin yepiskopu İsrailin başçılığı ilə din xadimlərindən ibarət nümayəndə heyətini hunların başçısı Alp-İlitverin sarayına – Varçan şəhərinə göndərmişdir.[3]

Nestorian təliminin ardıcılı olan katolikos I Timofeyin (780-825) cəhdi ilə Muğanda da yepiskopluq təsis edilir və rahib İliya yepiskop seçilir. Mənbənin məlumatına görə, yepiskopluğu qəbul edən İliya ticarət karvanı ilə Muğana yollanır. Onun cəhdləri ilə Muğan əhalisi xristianlığı qəbul edir. Mənbənin yazdığına görə, "...onlar cah-calallı kilsə binasının tikintisinə başladılar, sər-sahman işlərinə Mar İliyanın özü başçılıq edirdi. O, çoxlarını xaç suyuna saldı, onlar üçün keşiş və dyakonlar təyin etdi, zəbur surəsini yazdı. Getdikcə onlar (xristianlar – Red.)... çoxaldılar". Ümumiyyətlə, V-VIII əsrlərdə Albaniyada 12 yepiskopluğun fəaliyyəti haqqında məlumat var və onların əksəriyyəti Qarabağın dağlıq hissəsində (Arsaxda) yaradılmışdır.

---

[1] Sonralar onların missioner fəaliyyətini Bizans və erməni rahibləri davam etdirmişlər. Bax: Пигулевская Н.Б. Сирийские источники VI в. о народах Кавказа…, с.113-115; Пигулевская Н. В. Сирийские источники по истории народов СССР. Москва-Ленинград, 1941, с.166; Xəlilov M. Albaniyanın xristian abidələri..., s.72-75.

[2] Xəlilov M. Albaniyanın xristian abidələri..., s.258.

[3] Musa Kalankatlı, II, 39-41; Xəlilov M. Albaniyanın xristian abidələri ..., s.78-79.

### 3.5. Albaniyada yazı və dil məsələlər

Asuagenin[1] dönəmində aparılan islahatlar nəticəsində yeni ibadət ocaqları tikilir, alban əlifbasının təkmilləşdirilməsi hesabına mətnlər tərtib olunur, dini kitablar arami və yunan dillərindən alban dilinə tərcümə edilir, yazı mədəniyyətini yaymaq üçün ölkədə məktəblər şəbəkəsi açılırdı (Musa Kalankatlı, II, 3, 22). Aşkar edilmiş yazı nümunələri bu gün artıq alban yazısının mövcudluğuna, onun uzun müddət istifadə olunduğuna və yerli mədəniyyətin nümunəsi olduğuna heç bir şübhə yeri qoymur. Saxta mənbələrə, o cümlədən V əsr erməni müəllifi Koryuna istinadən elmə belə bir fikir sırınıb ki, guya alban və gürcü əlifbalarını IV əsr erməni maarifçisi Mesrop Maştots icad edib.[2] Hələ ötən əsrin 70-ci illərində tanınmış rus afrikaşünası D.A.Olderoqqe sübut etmişdir ki, Maştotsun "kəşf etdiyi" qədim erməni əlifbası əslində Efiopiyanın həbəş (amhar)

---

[1] Asuagen Sasani şahları Firuzun və Hörmüzdün bacıları ilə evli idi. Buna baxmayaraq, onun müstəqilliyə can atan oğlu II Vaçe 457-ci ildə dayısı Firuza qarşı üsyan qaldırmışdır. Üsyan yatırıldıqdan sonra, 463-cü ildə Albaniyada şahlıq üsul-idarəsi ləğv edilmiş, ölkə əyanların və katolikosun idarəçiliyinə keçmişdir (Musa Kalalankatlı, I, 10, 16). Yalnız II Vaçenin qardaşı III Mömin Vaçaqanın (o, Arşakilər sülaləsinin Albaniyada sonuncu nümayəndəsi idi) dönəmində, 30 il davam edən mərzbanlıq hakimiyyətinə son qoyulmuş və Albaniyada şahlıq hakimiyyəti bərpa edilmişdir. III Vaçaqanın ölümündən sonra Albaniyada ikinci dəfə mərzbanlıq sistemi yaradılmış və Sasani mərzbanlarının hakimiyyəti 120 il (510-630-cu illər) davam etmişdir.

[2] Тер-Саркисянц А.Е. 1600 лет армянской письменности // Этнографическое обозрение, 2005, № 6, с.77, 81-82; Маэ Ж.-П. Месроп Маштоц и Албанский алфавит / Albania Caucasus. I, Москв, 2015, с.172-176; Гаджиев М.С. Из истории создания кавказско-албанской письменности: некоторые спорные моменты // Вестник Института истории, археологии и этнографии, Махачкала, 2005, № 2, с.49-58; Гаджиев М.С. К интерпретации сведений о создании письменности Кавказской Албании / Albania Caucasus. I. Москва, 2015, с.177-178.

əlifbasının "ermənliləşdirilmiş" variantıdır.[1]

Sirr deyil ki, yeni əlifba uzun prosesin nəticəsində yaranır və hər hansı dil üçün yazı sistemi yaradarkən o dilin fonetik quruluşunu, səs imkanlarını bilmək vacib şərtdir. Öz doğma dilindən başqa Mesropun hər hansı dili, xüsusən də genetik baxımdan erməni dilindən kəskin fərqlənən, tamamilə yad tipoloji struktura malik alban və gürcü dillərini də bilməsi haqqında ilk mənbələrdə (o cümlədən, Koryun da daxil olmaqla, erkən orta əsr erməni müəlliflərinin əsərlərində) heç bir informasiya yoxdur. Musa Kalankatlı (II, 3) və digər ilk orta əsr yazarları qeyd edirlər ki, alban əlifbası boğaz səsləri ilə zəngin olan qarqar dili üçün yaradılmışdır. Əlifbanın qarqar dili üçün hazırlandığı (və ya modifikasiya olunması) belə bir ehtimala əsas yaratmışdır ki, o vaxtlar Albaniyanın yepiskopu olan Yeremiya qarqar tayfasına mənsub idi və Asuaqenin və onun sülaləsinin iqamətgahı qarqar tayfasının kompakt yaşadığı bölgədə yerləşirdi. Yəni qarqarların dili (və ya ləhcəsi) həm kilsənin ibadət dili, həm də sarayın rəsmi dəftərxana dili olmuşdur.[2] Koryun özü də qeyd edir ki, Maştots qarqar dili haqqında informasiyanı əslən alban olan sünikli Benyamindən alırdı; Benyamin həm də Maştotsu Albaniya səfərində tərcüman kimi müşayiət edirdi.[3] Deyilən

[1] Ольдерогге Д.А. История армяно-эфиопских связей (алфавит Маштоца) / Древний Восток 1. К семидесятилетию академика Коростовцева М.А., Москва, 1975, с.14. Alban əlifbasının hərfləri qrafik baxımdan 19 kartvel (gürcü), 14 amhar, 10 qrabar (qədim erməni) hərfləri ilə eynilik təşkil etsə də, oxunuşları fərqlənir. Bax: Alexidze Z., Blair B. Pathfinders: Dechiferment of the Caucasian Albanian Script // Azerbaijan International, 2003, autumn, 11, 3, p.48.

[2] Mitilenli Zaxarinin (VI əsr) "Suriya xronikası"nda Aranda özünəməxsus dilin və xaçpərəst xalqın yaşadığı bildirilir. Bax: Пигулевская Н.Б. Сирийские источники VI в. о народах Кавказа // Вестник древней истории, 1939, № 1, с.107-115.

[3] Musa Kalankatlı..., II, 3. Hesab edirik ki, Musa Kalankatlının Maştotsun Albaniyada missionerlik fəaliyyətinin ifrat dərəcədə

səbəblərdən Mesropun albanlara və gürcülərə də əlifba icad etməsi ehtimalı inandırıcı görünmür.[1] Belə ehtimal olunur ki, alban yazısı xristianlığaqədərki yazının modifikasiya olunmuş yeni variantıdır və ondan VIII əsrədək istifadə olunmuşdur və Alban dövlətinin süqutundan xeyli sonra erməni dili və yazısı kilsə ədəbiyyatında rəsmi status qazanmışdır.[2]

Alban əlifbası ilə olan ilk əlyazma 1937-ci ildə İ.V.Abuladze tərəfindən Eçmiədzin fondundan aşkar edilmişdir. Bu əlyazma əsasında alban əlifbasının 52 hərfdən ibarət olduğu müəyyən edilmişdir. 1948-ci ildə Mingəçevir qazıntıları zamanı

---

qabartmasının səbəbi onun əsərinin dəfələrlə erməni redaktəsinə məruz qalmasından qaynaqlanır. Əsərdə qeyd edilir ki, Maştots xristian təlimini kaspilərin ölkəsində və ... Makedoniyalı İsgəndərin əsir edib, "Qafqaz dağları yaxınlığında" yerləşdirdiyi qarqarlar, kamiçik-eftalitlər arasında yaydı". Əlavə olaraq o da bildirilir ki, onlar xristian təlimi ilə əvvəldən tanış olsalar da, sonradan unutmuşlar (Musa Kalankatuklu..., I, 27). Hesab edirik ki, erməni kampilyatorları Musa Kalankatlının əsərini saxtalaşdırmaqla nəticə etibarı ilə əslində Benyaminə aid olan bu missiyanı Maştotsun müstəsna xidməti kimi təqdim edə bilmişlər.

[1] Периханян А.Г. К вопросу о происхождении армянской письменности // Переднеазиатский сборник, 1966, том 2, с.126-129; Лолуа Р.Т. Месроп Маштоц и вопросы генезиса ергатагира и кавказско-албанского письма / Albania Caucasus. I, Москва, 2015, с.189-216; The Caucasian Albanian Palimpsest of Mt. Sinai. Vol. I, pp.XV-XVI, XX-XXIV. Mesrop ən yaxşı halda alban və gürcü əlifbalarının hazırlanması prosesində lazımi texniki şərtlərə və parametrlərə dair təlimatlar verməklə dini məzmunlu mətnlərin qələmə alınmasını asanlaşdıra bilərdi. Müqayisə üçün deyək, ki, I Vologezin vaxtında Avestanın kodifikasiyasını həyata keçirmək üçün mövcud konsonant tipli arami yazı stilinə saitləri və bəzi samit səsləri, eləcə də diftonqları ifadə edən əlavə hərflər və liqaturlar daxil edilmişdir; məqsəd peyğəmbər Zərdüştün kəlamlarını dinləyiciyə qüsursuz çatdırmaq və təbliğ etmək idi.

[2] Xəlilov M.C. Albaniyanın xristian abidələri..., s.253-254.

Sudağılan adlanan şəhərgahdakı məbədin otaqlarından V-VII əsrlərə aid edilən və üzərində alban yazısı olan daş aşkar edilmişdir. Epiqrafika nümunələri ibadətgahın yerləşdiyi ərazidən tapılan saxsı qablar, kirəmit parçaları və gil şamdan üzərində də qeydə alınıb. Yazı nümunələri Gəncədən və Dağıstandan da aşkara çıxarılıb.[1] Bu yazının köməyilə İncil və digər dini ədəbiyyat arami və yunan dillərindən alban dilinə tərcümə olunurdu.



**Şəkil 24.** Alban palimpsestlərindən nümunə

[1] Qukasyan V. Qafqaz Albaniyası (tarixi-filoloji etüdlər). Bakı, 1993, s.31-33.

1996-cı ildə Zaza Aleksidzenin rəhbərliyi ilə Gürcüstan Elmlər Akademiyasının əməkdaşları Sinay dağında Müqəddəs Yekaterina Monastırından palimpsestlər aşkara çıxarmışlar (bax: şəkil 24). 1996 və 2000-ci illərdə gürcü alimləri alban palimpsestlərinin kataloqunu və mikrofilmlərini hazırladılar.[1] Palimpsestlərdə 59 hərf əsasında tərtib olunmuş alban mətninin üzərində gürcü dilində mətn yazılıb. İndiyədək tədqiq və nəşr olunmuş Alban palimpsestləri Həvarilərdən İoanın, Matfeyin, Markın və Lukanın İncillərinin, eləcə də "Apostolların əməlləri"nin (İakovun, Pavelin, Pyotrun nəql etdiyi Müjdələri daxildir), o cümlədən Əhti-ətiqdən İsayanın Kitabının 35-ci fəslinin fraqmentlərini əhatə edir.[2]

Tədqiqatçılar Palimpsestlərin yaşını dəqiq təyin edə bilmirlər. Hələ tərtib olunduqları dövrdə Alban palimpsestləri, İncilin arami, qipti, erməni və digər nüsxələri kimi dünya xristianlığının kütləvi qiraət kitablarından sayılırdı.[3] Tədqiqatçıların fikri belədir ki, palimsestlərin lüğət fondunun 1/3 hissəsi udi leksikası ilə eynilik təşkil edir, xeyli sayda sözün analoquna Şahdağ qrupuna daxil olan dillərdə də (ləzgi,

---

[1] Майсак Т.А. К публикации Кавказско-Албанских палимпсестов из Синайского монастыря // Вопрося языкознания, 2010, № 6, с.90.

[2] Майсак Т.А. К публикации Кавказско-Албанских палимпсестов…, с.91.

[3] Bəzi tədqiqatçıların bu mətnləri IX-X əsrlərə aid etməsini mümkün saymırıq (bax: irəli). Müəyyən olunub ki, Şimali Azərbaycan ərazisindən tapılan alban tarixi mətnlərinin məzmunu da xristianlıqla bağlıdır. Məsələn, tovuz quşlarının təsviri ilə bəzədilmiş Mingəçevir kitabəsində deyilir: "Ağamız cənab İsanın adı ilə ! Xosrovun [hakimiyyətinin] 27-ci ilində...birinci...Abas, Çolanın yepiskopu, [bunu] düzəltdi". Bax: Monumenta palaeographica Medii aevi. Series Ibero-Caucasica. The Caucasian Albanian Palimpsests of Mt. Sinai. Vol.I, Vol.I, p. II-86.

tabasaran, budux, xınalıq və s.) rast gəlinir. Az sayda pəhləvi,[1] erməni sözləri qeydə alınıb, lüğət fondunun 1/3 hissəsi “naməlum mənşəli” kimi qiymətləndirilir, hərçənd onların xeyli hissəsini türk sözləri təşkil edir.[2]

Şübhə yoxdur ki, Sinay palimpsestləri alban zəvvarlarının vətənlərindən uzaq olan müqəddəs yerlərdə ibadətlərini təmin etmək məqsədilə yazılmışdır. Keşişlərdən ibarət hansısa alban icmasının Qüdsdə və ya onun yaxınlığında məskunlaşdığı təsdiqini tapıb. Bu fikir Qüdsdə 10 alban monastırının inşa olunduğuna dair Musa Kalankatlının məlumatı ilə əsaslandırılır. Musa Kalankatlı Yerusəlimdəki monastır və kilsələrin adını və yerləşdiyi əraziləri xüsusi olaraq qeyd edir. Alban tarixçisi bu kilsələrin memarlıq xüsusiyyəti və yepiskopları haqqında məlumat vermişdir. “Panda” adlanan ilk monastırı Panon inşa edib. Panda monastırı Səlahəddin Əyyubinin yürüşü zamanı dağıdılmışdır. Erməni ənənəsinə görə guya bu kilsə Valarşapatda (Armeniyanın inzibati mərkəzi) yerləşən kilsədə toplanan ianələr hesabına inşa edilmişdir. Qüdsdəki Mruva, Partav, Kalankatuk, Arşak, Amaras və adı bilinməyən daha 4 alban kilsəsinin kimlər tərəfindən tikildiyi məlum deyil. Kilsələrdən ikisinin başında qadın-rahib dururdu (Musa Kalankatlı, II, 51, 52). Sonralar Qüdsdəki erməni kilsələrinin yepiskopları Bizans imperatoru Yustiniana qızıl pul verərək bu

---

[1] Məsələn, palimsestlərdə rast gəlinən **tum** < pəhləvicə (orta fars) **tōxm**, **tōhm** (“nəsil”, “mənşə”) sözündən törəmədir. Bax: Майсак Т.А. К публикации Кавказско-Албанских палимпсестов…, c.103. Bu söz Azərbaycan türkcəsində və udi dilində də işləndiyindən onun palimsestlərə hansı dilin vasitəsilə düşdüyünü söyləmək çətindir. Palimpsestlərdə gürcü mənşəli sözlərin olması hər iki kilsə arasında qarşılıqlı münasibətlərin mövcudluğuna işarə edir. Bax: Əliyeva L. Qafqaz Alban kilsəsi Mehranilər sülaləsinin hakimiyyəti dövründə // AMEA Sosial elmlər, 2022, №2, s.20.

[2] Monumenta palaeographica Medii aevi. Series ibero-caucasica. The Caucasian Albanian Palimpsests of Mt. Sinai. Vol.I., p. II-65.

kilsələrin idarəçiliyini ələ keçirmişlər.

Ş.Smbatyan heç bir mənbəyə istinad etmədən bu kilsələrin yaxınlığında salınmış qəbiristanlığdakı məzarların biri üzərində guya Alban şahı Asuaqenin adından erməni dilində mətn yazıldığını bildirir. [1] Qəbirlərin biri üzərindəki ermənidilli kitabədə **sosik** ("cocuq" ?) sözünün yazıldığı bildirilir. Əgər Asuaqen burada dəfn olunsaydı Musa Kalankatlı əsərində bunu mütləq qeyd edərdi. Maraqlıdır ki, Alban palimpsestlərində türkmənşəli **çiçək** sözü **çiçik** formasında qeydə alınıb.[2]

Ümumiyyətlə, Sinaydan tapılan palimpsestlərin bütünlüklə Alban dövlətinin mövcud olduğu vaxtlarda və ya bəzi fraqmentlərin bu dövlətin süqutundan sonrakı dövrdə tərtib olunmasından asılı olmayaraq onun leksikası dövlətin rəsmi və ya ölkənin ümumi ünsiyyət dilini əks etdirə bilməzdi. Əvvəla, bəşərin inkişaf tarixi göstərir ki, dini-ideoloji dilin eyni zamanda rəsmi dövlət dili statusunda olması anlamına gəlmir. Məsələn, şumerlilər e.ə. III minilliyin sonunda tarixin səhnəsindən silinsələr də, onların dili Cənubi Mesopotamiyada samimənşəli əhali arasında 3-4 əsr dini ayinlərin icrasında tətbiq olunmuşdur, tədris bu dildə aparılır, ədəbi nümunələr bu dildə yaradılırdı.

Albanların bir neçə dəfə ilkin diofizit təriqətindən üz

---

[1] Мовсес Каланкатуаци. История страны Алуанк (перевод с древнеармянского, предисловие и комментарий Ш.В.Смбатяна)…, с. 225-226.

[2] Monumenta palaeographica Medii aevi. Series ibero-caucasica. The Caucasian Albanian Palimpsests of Mt. Sinai. Vol. I, p. IV-46. Yeri gəlmişkən, Musa Kalankatlının əsərində (II, 4, II, 11, II, 14) türkdilli toplumlara nifrət hiss olunur. Alban dövlətinin, bütün toplumlar və etnik qruplar daxil olmaqla, tarixini yazan və siyasi-ideoloji maraqları nəzərə alan Musa Kalankatlının türkdilli toplumlara "nifrəti" şübhə doğurur, zənnimizcə alban tarixçisinin əsərinin erməni dilinə tərcüməsi zamanı bu fakt, eləcə də, Məhəmməd peyğəmbərə nifrət dolu cümlələr, qəsdən əsərə daxil edilib.

döndərmələri, monofizitliyə keçmələri ölkədəki rəsmi və kilsələrdəki ibadət dillərinin dəyişməsinə təsir etmədi. Xristianlığa keçidin ilk yüzilliyində (həvari mərhələsi) Kiçik Asiyadakı yunan icmalarının ideoloji təsiri ilə həm Albaniyada, həm də Armeniyada ibadət dili yunan dili olmuşdur. Albaniyada və Armeniyada xristianlıq rəsmi status qazanandan sonra da yunan dili əvvəlki statusunda qalmış, lakin rəsmi dövlət dilinə çevrilməmişdir.[1] Yalnız metropoliyalarda (dinlərin və təriqətlərin meydana gəldiyi ölkələrdə) ibadət məkanlarında işlənən dil dövlətin rəsmi dili ilə eyni olurdu. Albanların monofizitliyə keçməsində erməni kilsəsinin təsiri hər nə qədər güclü olsa da bu amil Albaniyada erməni dilinin yayılmasına təsir göstərə bilməzdi

Alban dövləti süquta uğradıqdan sonra onun ərazisində İslam dini sürətlə yayıldığından xristian əhalinin sayı da sürətlə azalırdı. Buna baxmayaraq, dini proseslər ölkənin etnik simasına ciddi təsir göstərmirdi, hətta xristian əhali arasında etnik rəngarənglik qalmaqda idi. Belə şəraitdə İsa Məsihin kəlamlarının çatdırılması üçün ən optimal variant xristian əhalinin dillərindəki sözlərdən təşkil olunmuş müasir esperansoya bənzər sinkretik dilin icad olunması idi.[2] Tədqiqatçılar tərəfindən palimsestlərdə Qafqazın və həmhüdud Şərqi Anadolu bölgəsinin xristian əhalisinin dillərindəki sözlərin aşkara çıxarılması deyilən fikri təsdiq edir. Alban kilsələrində bu süni dilin qrammatik

---

[1] Digər təriqətlər də eyni aqibətlə qarşılaşmışlar. Müqayisə üçün deyək ki, Rusiya, Belarusiya, Ukrayna, Serbiya, Makedoniya, Bolqarıstan kimi pravoslav ölkələrin kilsələrində səslənən yunan ibadət dili dövlət dili statusu qazanmadı; indi bu ölkələrdə dini ayinlər yerli dillərdə icra olunur. Eləcə də ərəb dili İslam dininin yayıldığı qeyri-ərəbdilli (məsələn, türkdilli, irandilli) ölkələrdə və ya latın dili katolosizmin təbliğ olunduğu ispandilli, ingilisdilli, slavyandilli ölkələrdə dövlət dili səviyyəsinə qalxa bilməmişdir.

[2] Ola bilsin ki, Mingəçevirdə və digər yerlərdə tapılan alban epiqrafika nümunələri xristian kəlamlarını əks etdirir.

əsasları işlənib hazırlandı.[1] Müəyyən olunub ki, palimpsestlərin dili erqativ quruluşludur.[2] İsimlər 22 hal kateqoriyasına malik idi: adi hallarla (adlıq, yiyəlik, yönlük, təsirlik) yanaşı, ekvativ, komitativ, mütləq, məkanla bağlı (ablatib, antiablativ, essiv, subessiv, superessiv, direktiv) və digər spesifik hal kateqoriyaları mövcud olmuşdur. Dörd şəxs əvəzliyindən (mən, sən biz, siz) istifadə olunurdu. Özünəməxsus qrammatik əlamətləri nəzərə alaraq hesab edirlər ki, palimpsestlərdə əks olunan alban dili tam mənada müasir udi dilinin sələfi sayıla bilməz, bununla belə özündə daha çox Şahdağ qrupu dillərinin qrammatik xüsusiyyətlərini daşıyır.[3] Yeni əlifba və müvafiq qrammatik normalar yaratmaqla, yerli təriqətlərin daşıyıcıları olan dillərin simbiozu şəraitində polietnik Albaniyada çoxkonfessionallığı qorumaq, xristianlığın dayanıqlığını və qonşuluqdakı xristian icmalarla əlaqələri təmin etmək mümkün olmuşdur.

## 3.6. Alban hökmdarlarının və xristian kilsəsinin kənar siyasi və ideoloji təsirlərə qarşı mübarizəsi

Bizans xristianlığın yayılmasına dəstək verməklə Sasanilərə və ərəblərə qarşı mübarizədə yeni tərəfdarlar qazanmağa

---

[1] Майсак Т.А. К публикации Кавказско-Албанских палимпсестов…, с.97-103.

[2] Erqativ quruluşlu dillərdə vasitəsiz tamamlıq olmadığından növ kateqoriyası da formalaşmamış olur; ona görə də belə dillərdə məntiqi obyekt bildirən söz adlıq hal formasında hal-vəziyyətin subyekti kimi çıxış edir, cümlələrdə feil aktiv və passiv növ baxımından neytral olur, ikisubyektli feil kimi çıxış edir, həm məlum, həm də məchul növlərə uyğun gəlir. Buna görə də bütün erqativ dillərdə təsirli və təsirsiz feillər formal şəkildə fərqlənir: birincilər adətən subyekt-obyekt təsrif formasına (daha dəqiq desək, iki subyektə), ikincilər subyektli təsrifə malik olurlar.

[3] Майсак Т.А. К публикации Кавказско-Албанских палимпсестов…, с.99-103.

çalışırdı. Xristianlıq tədricən siyasi müstəviyə keçdiyindən II Şapurun zamanında Sasani imperiyasında, o cümlədən Adurbadaqanda bu ideologiyanın tərəfdarlarına qarşı təqiblərin miqyası genişlənir, yeni dini təlim zərdüştilik və manixeylik kimi köhnə dini ideologiyaların ciddi müqavimətilə qarşılaşırdı. "Kilsə tarixi" adı ilə tanınan mənbədə təkcə 340-cı ildə xristian əhali üzərinə qoyulan ikiqat vergidən təxminən 16 min nəfərin ziyan çəkdiyi bildirilir. Təqiblər səbəbindən Arazdan şimaldakı torpaqlara pənah gətirənlərin hesabına Albaniyada xristianların sayı artırdı. Bundan ehtiyatlanan Sasani şahları Albaniyada öz dini ideologiyalarını yaymağa cəhd edirdilər.

Bizans imperiyasının periferiyalarında təsis olunmuş xristian məbədləri ilk vaxtlar Nikey kilsəsində təsbit olunan vahid ideoloji xətt üzrə fəaliyyət göstərirdilər. Konstantinopol patriarxı Nestorun İsa Məsihin ikili təbiəti ilə bağlı yaratdığı təlim xristian aləmində parçalanmanın təməlini qoydu. Antakiya keşişi Nestorun 428-ci ildə Konstantinopol patriarxı seçilməsi yerli kilsə xadimlərinin, eləcə də İsgəndəriyyə kilsəsinin narazılığına səbəb olmuşdur. Antakiya ilahiyyat məktəbinin ardıcılı olan Nestor 431-ci ildə I Efes Kilsə Məclisində İsa Məsihin İlahi və insani təbiətinin bir-birindən ayrı olduğu konsepsiyasını səsləndirir. Lakin məclisdə iştirak edən digər yepiskoplar onun təlimini rədd edərək, İsada həm İlahi, həm də insani təbiətin eyni anda mövcud olmasına, yəni monofizit təliminə üstünlük verirlər. Bizansda təqib edilən nestorianlar Şərqə köçməli olurdular. Halbuki əvvəllər təlimin banisi olan Nestor Bizansda böyük populyarlığa malik idi. 440-cı ildə Elefantin adasında sürgündə ölən Nestorun nəşini Konstantinopola gətirib orada dəfn etmək tələbi ilə şəhər əhalisi imperator Markiana (450-457) müraciət etmişdir.[1] Musa Kalankatlının yazdığına görə (II, 7-8) nestorianlar Albaniyada da təqibə məruz

[1] Касумова С. Христианство в Азербайджане в раннем средневековье…, с.38.

qalırdılar.

451-ci il Xalkidon kilsə məclisində bu təlim tənqid olunsa da, qipti, erməni və yakovit kilsələri ilə təmsil olunan monofizit cərəyanın (nestorianlıq)[1] yayılmasının (o cümlədən, Təbrizdə, Marağada, Urmiyada) qarşısı alınmadı. Ortodoksal pravoslav Bizans kilsəsinin təqibi ilə qarşılaşan nestorianlar Sasani İranında siyasi sığınacaq tapırdılar. Sasani hakim dairələri ölkədə fəaliyyət göstərən xristian kilsələrində təbliğ olunan təlimin Roma və Bizansdakı ortodoks təlimlərə alternativ olmasında maraqlı idilər.

Alban kilsəsinin rəhbəri birbaşa Qüds patrikliyindən təyinat aldığına görə avtokefallığını qoruyub saxlamışdır. Apostolların fəaliyyəti ilə bağlı olan kilsələr avtokefal kilsələr hesab olunurlar. Bu mənada Alban kilsəsinin erməni kilsəsindən asılı olduğuna dair erməni tarixçilərinin və onların havadarlarının iddiaları əsassızdır və heç bir mötəbər qaynağa söykənmir.

Regionun digər xristian məbədləri kimi, Alban kilsəsi də ilk üç Ümumdünya qurultayında[2] qəbul olunmuş qərarlara hörmətlə yanaşır, onlara əməl edirdi. 451-ci ildə Xalkedonda keçirilmiş IV Ümumdünya kilsə qurultayında Alban kilsəsi öz mövqeyini qoruyub saxlamışdır.

Azərbaycanın cənubunda zərdüştilik rəsmi ideologiya səviyyəsində tüğyan etdiyi vaxtlarda zaman-zaman (məsələn, I Yəzdigerdin, Balaşın hakimiyyəti illərində) xristianlığın təbliğinə imkan yaradılırdı və bu səbəbdən xristianlıq yabançı dün-

---

[1] Monofizit cərəyanının banisi Yevtixi Konstantinopol monastırlarından birinin keşişi idi və Nestorun təliminə qarşı çıxırdı. Qipti, yakovit və erməni kilsələri monofizitliyi təbliğ edirdi. Buna baxmayaraq, yakovit və erməni kilsə xadimləri özlərini Yevtixinin davamçıları saymır, onu bidətçi adlandırırdılar. Yevtixinin irəli sürdüyü ehkamların bir çoxu xristianlığın ümumi müddəaları ilə ziddiyyət təşkil edirdi.

[2] Bu qurultayların birincisi 325-ci ildə Nikeydə, ikincisi 381-ci ildə Konstantinopolda, üçüncüsü 431-ci ildə Efesdə keçirilib.

yagörüşü kimi identikliyini qoruya bilmişdir. Qubadın zamanında (488-531) xristian missionerləri hun, savir, bulqar kimi türkdilli icmalarda fəaliyyətlərini davam etdirirdilər.

Xalkidonçuluğa qarşı mübarizəni gücləndirmək məqsədilə 527-ci ildə Dvində alban, gürcü və erməni kilsələrini vahid ittifaqda birləşdirmək haqqında saziş bağlanılır.[1] Lakin 551-ci il Dvin məclisində erməni kilsəsi ittifaqdan çıxaraq monofizitlikdə qaldığını, gürcü kilsəsi "mülayim" xalkedon mövqeyini saxladığını elan edir, alban kilsəsi isə ilkin təriqətinə – diofizitliyə qayıdır.

Hakimiyyətlərini qorumaq üçün Alban hakimləri bəzən dinlərini dəyişmək məcburiyyətində qalırdılar. Məsələn, əvvəllər xristian olan II Vaçe Sasani şahı II Yezdəgerdin təzyiqi ilə məzdəki məzhəbini qəbul etmişdir. Erməni müəllifi Yeqişe bildirir ki, Sasani şahı alban, gürcü və erməni çarlarını və əyanlarını Mədainə çağıraraq onların atəşpərəstliyə keçməsini tələb etmişdir və onlar and içib, atəşpərəstliyi qəbul etdikdən sonra öz ölkələrinə dönə bilmişlər. Bundan sonra II Yezdəgerd zərdüştiliyi yaymaq məqsədilə 700 maq-kahini Cənubi Qafqaza göndərmişdir.[2]

II Yezdəgerdin ölümündən sonra albanlar II Vaçenin başçılığı ilə 457-ci ildə sasanilərə qarşı mübarizəyə qalxırlar; üsyan ərəfəsində alban şahı məzdəkilikdən imtina edərək yenidən xristianlığa qayıtmışdır. Üsyan 463-cü ildə II Vaçenin hakimiyyətdən imtina etməsilə başa çatmışdır.[3]

Sasani şahənşahı I Firuzun zamanında (459-483) Alban hökmdarı III Vaçaqan "maqların təlimini" (zərdüştiliyi) qəbul etmişdir. I Firuzun ölümündən sonra hakimiyyətə xristianlara qarşı dözümlü siyasəti ilə tanınan Balaş (Valarş) gəlir (484-488).

---

[1] Bünyadov Z. Azərbaycan VII-IX əsrlərdə. Bakı, 1989, s.92.

[2] Егише. О Вардане и войне армянской (пер. Н. Орбели). Ереван, 1971, с.57.

[3] Musa Kalankatuklu, I, 10; Xəlilov M.C. Albaniyanın xristian abidələri…, s.258.

Balaşın siyasi nəzarəti altında olan bütün ərazilərdə, o cümlədən Albaniyada, dini etiqad azadlığı elan edildiyindən III Vaçaqan yenidən xristianlığa qayıda bilir.[1] Yaranmış sabit siyasi vəziyyət 4 ildən sonra çağırılan Aquen məclisində alban kilsəsinin müstəqilliyinin elan olunması ilə nəticələnir. Bu akt xristian dünyasının Şərq periferiyalarında yerləşən kilsələrin mövqeyində kəskin dönüş yaradır. Əhalinin savadlanması istiqamətində tədbirlər genişləndirilir, yeni məktəblər açılır (Musa Kalankatlı, I, 23). Mühüm tədbirlərdən biri də bütpərəstliyin kökünü kəsməyə yönəlmişdir. 498-ci ildə Mömin III Vacaqanın keçirdiyi Aquen kilsə məclisində xristian dini ilə əlaqədar qəbul edilmiş qanunlardan ikisi məhz bütpərəstliyin aradan qaldırılmasına həsr olunmuşdur.

Maraqlıdır ki, 510-cu ildə Albaniyada Arşakilərin siyasi varisliyi pozulsa[2] da, xristianlığa dövlət dəstəyi ənənəsi aradan qalxmadı. Məhz bu ideologiya etnik rəngarəngliyi və zənginliyi ilə seçilən Alban dövlətində vahid mədəniyyətin təkamülünü təmin edə bilmişdi. Alban və Sasani hakim elitası eyni etnomədəni, lakin soy kökü fərqi nəsillərə bağlı olmuşdur. Mehranilərin hakimiyyətinin ilk onilliklərində Albaniyada fərqli dini-ideologiyaya Sasani şahlarının dözümlülük göstərməsi də bu amillə bağlı olmuşdur. İdeoloji müstəqillik Alban kilsəsinə siyasi proseslərə müdaxilə etmək üçün imkanlar yaradırdı. Albanın, Çolanın və Lpinin katolikosu Viro 603-604-cü illərdə Sasani ağalığına qarşı ümumxalq azadlıq hərəkatına qoşulmuşdur. Uğursuzluğa rəğmən Viro 628-ci ilə qədər katolikos titulunu qorumuş və ölkənin siyasi həyatına töhfəsini vermişdir (Musa Kalankatlı, II, 15).

VII yüzilliyin əvvəllərində tez-tez dəyişən hərbi-siyasi

---

[1] Musa Kalankatuklu, I, 10; Касумова С. Христианство в Азербайджане в раннем средневековье…, с.77.

[2] İranın özündə Parfiya Arşakilərinin sonuncu nümayəndəsi V Artavan (208-224) Sasanın nəvəsi, Papakın kiçik oğlu Ərdəşir tərəfindən devrilmişdir.

vəziyyət Alban xristianlığının orientasiyasının dəyişməsini zəruri etmişdir. Bizans imperatoru II İrakli xəzərlərlə ittifaqda Albaniyaya hücum edir və Alban şahı Varaz-Qriqor ölkəni dağıntıdan qorumaq üçün xalkedonçuluğu qəbul edir, yəni monofizit məzhəbindən diofizitliyə keçməli olur (Musa Kalankatlı, II, 18). Uxtanesin və Yelizarın katolikosluğu vaxtında xalkedonçuluq daha geniş intişar tapır.

Alban-erməni (diofizit-monofizit) kilsələri arasında gedən mübarizə haqqında Musa Kalankatlı (II, 48) belə məlumat verir: "[erməni keşişləri] Alban arxiyepiskopunun tabe edilməsinə çalışırdılar, albanlar buna razılıq vermirdilər...Albanlar [növbəti dəfə] öz dinlərini irəli sürüb ermənilərdən ayrıldılar ki, bundan sonra daha heç kəsin [dininə] tabe olmasınlar".

Musa Kalankatlı (II, 21) yazır ki, Varaz-Qriqorun oğlu Cavanşir uğurlu hərbi əməliyyatları və yeritdiyi siyasəti ilə "İberiya sərhədindən Hun keçidinə və Araz çayına qədər əsl şah kimi hökmranlıq edirdi". Cavanşir də atası kimi diofizit məzhəbinin tərəfdarı olmuşdur. O vaxtlar Bizans hakim elitası monoteizmi siyasi vasitəyə çevirmişdi. Cavanşir II Konstantinə (641-668) yazdığı məktubda xahiş edirdi ki, Bizans imperatoru onun xalqını öz təbəəliyinə qəbul etsin (Musa Kalankatlı, II, 20). Bizans imperatoru ona xaç hədiyyə etmişdir. Cavanşir xristianlığın yayılmasına diqqət yetirmiş, hətta Girdimanda kilsə inşa etdirmişdir (Musa Kalankatlı, II, 24). Kilsə vaxtaşırı çağırılan məclislərdə öz katolikosunu seçməkdə müstəqil idi. Xəlifə Muaviyyə Sünik vilayətini Cavanşirin tabeliyinə vermişdir (Musa Kalankatlı, II, 28). Muaviyyə ilə görüş onu dini etiqadından döndərmədi, hətta alban və gürcü kilsələri arasında əlaqələri gücləndirdi.

Cavanşirin ölümündən sonra (681-ci il) ölkədə siyasi vəziyyət daha da gərginləşir. Albaniya Xilafətin, Bizansın və Xəzər xaqanlığının müharibə meydanına çevrilir və eyni vaxtda hər 3 dövlətə vergi vermək məcburiyyətində qalır. Yaranmış vəziyyətdə qurtuluş yolunu Bizansa yaxınlaşmaqda görən Alban

Apostol kilsəsi yenidən diofizitliyə qayıtmaq qərarına gəlir. Sonrakı illərdə Alban kilsəsi regionda ideoloji hegemonluğunu təsbit etməyə çalışan Bizans və Sasani imperiyalarının siyasi alətinə çevrilir. Albaniyada ilk vaxtlardan hakim təriqətə çevrilən diofizitlik müəyyən dövrlərdə qısa müddətə monofizitliyin təsir dairəsinə düşsə də ərəb işğallarına qədər müstəqilliyini qoruyub saxlaya bilir.

Xristianlığın Azərbaycanın böyük hissəsində uğur qazana bilməməsinin səbəbi yalnız siyasi amillərlə bağlı deyildir. Ömrünü başa vuran köhnə dini inanclar – atəşpərəst kahinlərin yaymağa çalışdıqları zərdüştilik, türk etnoslarının tanrıçılıq və nəhayət islamın zəfər yürüşü – qarşısında xristianlıq rəqabətə tab gətirə bilmədi. Dünya şöhrətli "Kitabi-Dədə Qorqud" dastanı boylarında bu qarşıdurmanın oğuz igidləri ilə "qara donlu mərə kafirlərin" mübarizəsi fonunda bədii boyalarla təsviri verilir.

İslam dininin Qafqazda yayılmağa başladığı vaxtlarda siyasi vəziyyət gərgin olaraq qalırdı. Xilafət orduları İranı bütünlüklə işğal etsə də regionda mövqeyini gücləndirmək, Bizansa müxalif olan monofizitləri müdafiə etmək üçün bir müddət Sasani dövlətindən qalma siyasəti davam etdirirdi. 687-ci ildə Alban katolikosu Yelizarın vəfatından sonra xalkedon-diofizit təriqətinin nümayəndəsi Nerses Bakur (688-704) monofizit kimi katolikos seçilir. Nerses Bakur əvvəllər Girdimanın yepiskopu olmuşdur. Musa Kalankatlı yazır: "o (Nerses Bakur – Red.) katolikos taxtına oturanda monofizitliyə sadiq qalacağına dair Böyük Arran yepiskopu İovelə yazılı iltizam verərək onu öz möhürü ilə təsdiqləmiş, lakin İovel ölənə qədər 14 il müddətində bu niyyətini həyata keçirə bilməmişdir...xanım Sparama Nersesə yardım etdi, onun və tərəfini saxlayan əyanların köməyi ilə o (Sparama – Red.), Nerses Bakurun kilsələrinin çoxunda səcdəgahları sökdürdü". Kilsə səcdəgahlarının sökülməsinə səbəb məhz Nerses Bakurun monofizitlikdən üz döndərib diofizit təriqətinə keçməsi olmuşdur. Azərbaycan Albaniyasının ən qədim xristian

abidələrində aparılmış arxeoloji araşdırmalar kilsələrin altarının ilkin vəziyyətinin döşəmə səviyyəsindən 50 sm hündürlükdə yerləşdiyini üzə çıxardı, lakin sonrakı mərhələdə kilsələrin altarının hündürlüyü 70-100 sm arasında dəyişir. Nerses Bakurun göstərişi ilə kilsə səcdəgahlarının sökdürülməsi məhz 687-ci ildən sonra yaranmış fərqin aradan götürülməsinə yönəlmişdir. Deməli, diofizit və monofizit kilsələrinin memarlığında əsas təriqət fərqi məhz səcdəgahlarla bağlı olmuşdur.

704-cü ildə Aquen kilsəsi adından erməni katolikosu İlyaya Nerses Bakurun pozucu əməlləri haqqında namə göndərilir. Katolikos İlya da öz növbəsində Alban kilsəsində baş verənlərə dair xəlifə Əbdül Maliki (685-705) məktubla məlumatlandırır. Məktubda albanların xilafətə düşmən münasibətdə olmaları, Bizansla birləşmək və diofizitliyə keçmək niyyətində olduqlarına dair məlumat verilir və xüsusilə, Alban katolikosu Nerses Bakuru və albanların çarı Varaz Trdatın xanımı Sparamanı xilafətə qarşı xəyanətdə günahlandırır (Musa Kalankatlı, III-IV). Albanların düşmən Bizansla ittifaq yaratmaq niyyətində olduğundan şübhələnən xəlifə albanları qriqoryan kilsəsinə tabe etmək üçün İlyanın sərəncamına qoşun göndərir və az sonra xüsusi fərmanla Alban Apostol kilsəsinin fəaliyyətini məhdudlaşdıraraq onu iyerarxik baxımdan erməni-qriqoryan kilsəsinin tabeçiliyinə verir. Nerses Bakur həqiqətən də Konstantinopolun ali ideoloji rəhbərliyini qəbul edərək xalkidonçuluğa keçməyə cəhd göstərmiş, lakin Alban hakimi Şiro və digər əyanlar tərəfindən vəzifəsindən kənarlaşdırılmışdır. [1] Alban knyazı Şeronun göstərişi ilə Nerseslə Sparama həbs olunur və xilafətin sarayına göndərilir. Aclıq elan edən Nerses 8 gündən sonra yolda ikən ölmüşdür. Kilsə yığıncağında Simeon Albaniyanın yeni

[1] Moisey Kalankatuklu. Albaniya tarixi. Mxitar Qoş. Albaniya salnaməsi (Tərcümə edəni, müqəddimə, qeyd və şərhlərin müəllifi Z.Bünyadov). Bakı, 2006, s. 290-293.

katolikosu seçilir, diofizit təriqətinə zərbə vurmaq məqsədilə 7 maddədən ibarət yeni qanun qəbul edilir. Simeonun göstərişilə Nerses Bakurun kitabları Berdakur[1] kəndində (Tərtər çayı sahilində) çaya atılır. Musa Kalankatlı (III, 7, 8, 9) yazır: "Nerses devrildikdən sonra başda Alban knyazı Şero olmaqla Alban əyanları hamılıqla Əbdül Malikin və erməni katolikosu İlyanın divanı qarşısında erməni kilsəsinə tabe olacaqlarına və İsanın ikili təbiətinə ibadət edəcəkləri halda qılıncdan keçiriləcəklərinə dair and içdilər".[2]

VII əsrin ikinci yarısında Albaniyada xristianlığın siyasi dayağı və himayədarı olan Mehranilər sülaləsinin hakimiyyəti devrilir. Məhz bu hadisə erməni-qriqoryan kilsəsinin möhkəmlənməsi üçün zəmin hazırladı. Sonrakı onilliklərdə xilafətin ermənilərin xeyrinə yürütdüyü siyasət nəticəsində Alban ədəbiyyatı tədricən yoxa çıxır.

Xilafətin VII əsrdən başlayan zəfər yürüşü Azərbaycanın şimalında, xristianlıq istisna olmaqla, bütpərəstlik, tanrıçılıq,[3] atəşpərəstlik kimi ideologiyaları aradan qaldırdı və qısa vaxt ərzində yerli əhalinin əsas inancına çevrildi. Ərəblər yeni dini qəbul etmək istəyənlərə müəyyən imtiyazlar verir, onların torpaq mülkiyyətinə toxunmur, cizyə verməkdən azad edirdilər. Alban zadəganlarının İslam dininə meyl etmələrinin səbəbi də bunda idi. Əhalinin məcburi qaydada və kütləvi surətdə İslam dininə cəlb olunması Albaniyada yepiskopların sayının azalmasına

---

[1] Berdakur erməni dilindən "Kür [sahilindəki] qala" kimi etimologiya oluna bilər. Ermənilər b**erd-** sözünü komponent kimi qala tipli şəhərlərin adlarına (Arinberd, Berdzor, Amberd, Berd və s.) daxil edirlər. Lakin bu söz ermənimənşəli deyil və e.ə. II minilliyin əvvəllərindən "qala", "istehkam tipli şəhər" mənasında Akkad dilində işlənirdi. Bax: Липин Л.А. Аккадский (вавилоно-ассирийский) язык. Выпуск II, Словарь. Ленинград, 1957, с.56.

[2] Bünyadov Z. Azərbaycan VII-IX əsrlərdə..., s.93-95.

[3] "VII əsr erməni coğrafiyası"nda Qoxtan, Naxçuan və Mərəndlə yanaşı "Tonqrian" (hərfən "Tanrı yeri") adlı məntəqə xatırlanır.

səbəb olmuşdur. Məsələn, Şamxor yığıncağının protokolunda qeyd edilir ki, o dövrdə Alban monofizit katolikosluğunun 3 yepiskopluğu qalmışdır. Katolikos III Ovannes (798-823-cü illər) katolikosluğun iqamətgahını Bərdədən dağlıq ərazidə yerləşən Berdakura köçürmüşdür.[1]

İslam təfəkkürü milli mənsubiyyəti deyil, dini mənsubiyyəti önə çıxardığından albanların əksər hissəsində milli mənsubiyyət hissi də tədricə silinməyə başladı. "Alban" etnoniminin tarixdən silinməsinin başlıca səbəbi də albanların dini mənsubiyyətcə iki hissəyə parçalanması ilə bağlı idi.

Yeni səmavi dinin Azərbaycanda qələbəsi təkcə hərbi güc hesabına deyil, əsrlər boyu xristianlıqla paralel yaşayan türk tanrıçılığı ideologiyasının İslama loyal münasibəti hesabına həll olundu. Bununla belə, ərəblərin gəlişinə qədər mövcud olmuş dini inanclar bütünlüklə assimilyasiyaya uğramadı, xüsusən də xristianlıq əhali arasında öz nüfuzunu müəyyən dərəcədə qoruyub saxlaya bildi. Bu fakt Ərəb xilafətinin siyasi böhran keçirdiyi vaxtlarda (IX əsrdə) Alban Apostol kilsəsinin öz fəaliyyətini qismən bərpa etməsi ilə təsdiq olunur. Sünik məliklikləri, Arsak-Xaçın, Şəki (Zəngəzurda) knyazlıqları kimi parakəndə siyasi birliklər yarananda Alban kilsəsi əvvəlki avtokefal kilsə statusunu bərpa edə bildi. Sonrakı onilliklərdə Azərbaycanın ayrı-ayrı məlikliklərində Alban xristian ənənələri XIX əsrin əvvəllərinədək yaşaya bildi, Xaçın, daha sonra Gəncəsər Alban patriarxlığının mərkəzinə çevrildi.

705-ci ildə Albaniya dövlətinin siyasi müstəqilliyinə son qoyulur. Alban dövləti tarix səhnəsindən silinsə də Alban kilsəsi bu mərhələdə xalqın müəyyən hissəsini öz ətrafında birləşdirən və təmsil edən təşkilat kimi fəaliyyət göstərməkdə davam edirdi. Azərbaycanın müxtəlif bölgələrində xristianlar üçün yeni ibadət

---

[1] Киракос Гандзакеци (пер. Т. Тер-Григоряня). Ереван, 1946, с. 104.

mərkəzləri inşa edilirdi.[1]

Azərbaycanın tarixi torpaqlarında albanlardan miras qalan dünya əhəmiyyətli xristian məbədləri dövlət tərəfindən mühafizə olunur və hərtərəfli tədqiq edilir. Onların bir çoxu erməni işğalından yenicə azad olmuş Qarabağın dağlıq hissəsində və həmhüdud tarixi torpaqlarımızda inşa edilib. Xudavəng, Ağoğlan, Amaras, Müqəddəs Yelisey və Gəncəsər monastır kompleksi kimi abidələr ermənilər tərəfindən həyata keçirilən qriqoriyanlaşdırma tədbirləri nəticəsində təhrif olunaraq tarixi simasını dəyişmişdir. Erməni vandalizmi nəticəsində işğal altında olan tarixi və mədəni abidələrimizə dəyən maddi ziyanın dəyəri ölçüyə gəlmir, aldığımız mənəvi zərbə isə uzun illər təsirini göstərəcək.[2] Ermənilər Alban abidələri üzərində qədim türk inanc sistemini əks etdirən milli ornamentlərimizi məhv etmişlər.[3]

---

[1] Məsələn, Qərbi Azərbaycanda Qoşavəng, Sivəng, Nərədüz, Tatev, Pirəgən, Sənain, Ağbat, Qindavaz kilsələri bu dövrə aiddir. Bax: Ələkbərli Ə. Qərbi Azərbaycan abidələri..., s.81-97.

[2] Ismayilov F. Damage to the historical and cultural monuments in the occupied territories of Azerbaijan. ANAS, Institute on Law and Human Rights. Baku, 2016, s.58.

[3] Ахундов Д.В. Архитектура древнего и раннесредневекового Азербайджана. Баку, 1986, с.239-245; Ismayilov F. Damage to the historical and cultural monuments in the occupied territories of Azerbaijan…, p.14.

# NƏTİCƏ

Mülki bərabərsizliyin mövcud olduğu icmalarda, xüsusi ilə də tayfa birliklərinin konsolidasiyasından meydana gələn cəmiyyətlərin ictimai həyatında din həlledici amil olmuşdur. Dini təsəvvürlər bütün qədim cəmiyyətlərin ideologiyasının əsasını təşkil edirdi. İlkin mərhələdə din ideoloji silah kimi mülki bərabərsizliyin və sosial rəngarəngliyin qorunub saxlanmasına xidmət edirdi. Insan onu əhatə edən, taleyini həll edən təbii amillərə – günəşə, aya, gecə və gündüzə, küləyə, yağışa və quraqlığa, məhsul bolluğuna və s. iman gətirir, kult səviyyəsində ilahiləşdirirdi. Bu baxımdan yaşadıqları məkandan, sosial təbəqələşmənin səviyyəsindən asılı olmayaraq Qədim Şərq xalqlarının və etnik qrupların dini görüşlərində ciddi fərqlər yox idi. İnsanın fantaziyası və ilahiləri müxtəlif canlı və cansız əşyaların görkəmində hətta özünə bənzər şəkildə təsəvvür etmək üçün imkanlar yaradırdı.

Eyni lokal ərazini paylaşan eyni etno-mədəni mühitə bağlı olan icmaları eyni tanrılar birləşdirirdi. Çoxallahlılığın (politeizm) tüğyan etdiyi cəmiyyətlərdə tanrılardan biri bu və ya digər səbəblərdən ön mövqeyə çıxaraq icmanın himayədarına, qoruyucu mələyinə çevrilirdi. İcmaların vahid siyasi qurumda konsolidasiyası etno-mədəni birliyin bütün tanrılarını və onlara ibadətləri birləşdirən vahid dini panteonun, mif və əfsanələrin yaranmasını zəruri etmişdir. Bütün bu deyilənlər Şumer, Misir, Babilistan, Aşşur, Elam, Mitanni, Het kimi klassik quldar Şərq cəmiyyətləri üçün səciyyəvi olmuşdur. Yadelli yazılı mənbələrin məlumatlarından görünür ki, Azərbaycanın həmdövr cəmiyyətlərində də bənzər dini-ideoloji təsəvvürlər yayılmışdı. Bunun ilk əlamətləri şumerlilərin e.ə. XXVIII əsrdə Azərbaycanın cənub hüdudları yaxınlığında, lullubilərin məskunlaşdığı ərazinin qonşuluğunda yaratdıqları Aratta ticarət koloniyasında nəzərə çarpır. Arattanın hakim elitasının nümayədələri İnanna, Dumuzi,

Lama kimi şumermənşəli tanrılara sitayiş edirdi. Şübhəsiz ki, qonşu sivilizasiyalarla daimi təmasda olmaları, mədəni sferada əlaqələr qurmaları sələflərimizin dini təsəvvürlərinin zənginləşməsinə, hətta sinkretik hal almasına təsir göstərmişdir. Bəzi tədqiqatçılar bu amili Lullubum, Kutium kimi hərbi demokratiya dövrü birliklərimizin liderlərinin adından tərtib olunmuş kitabələrdə Şumer və Akkad mənşəli tanrılara olunan müraciətlərlə izah edirlər. Şumer şəhərlərini yarım əsrə yaxın siyasi iradəsinə tabe etməyi bacaran quti liderlərinin Cənubi Mesopotamiyada hakimiyyətlərinin legitimliyini təsdiq etmək üçün həqiqətən də Adad, Şamaş, Suen, İştar kimi yadelli tanrılara ehtiyacı var idi. Qəribədir ki, qutilərin Cənubi Mesopotamiyada hakimiyyəti devrildikdən sonra mənbələrdə qutilərlə əlaqədar bu tanrıların adı bir daha hallanmır.

Hərbi demokratiya mərhələsində (e.ə. XXV-X əsrlər) Azərbaycanın ictimai həyatı dörd aparıcı etnik qrupun – lullubilərin, qutilərin, turukkuların və kaşşuların (kaspilərin varisləri) hərbi gücündən asılı olmuşdur. Akkad və Aşşur mətnlərində "Kutium ölkəsinin tanrıları", "lullubilərin ölkəsinin 25 tanrısı" kimi ifadələrə rast gəlinir. Ehtimal etmək olar ki, lullubilərin, qutilərin və kaşşuların panteonunda baş tanrı onların etnik adları ilə tanınırdı. Qutilərin panteonundan Abublabın, kaşşuların panteonundan isə 15 tanrının (Şumaliya, Şukamuna, Harbe, Şipak (və ya Şihu), Şuriyaş, Buriyaş, Şuqab və s.) adı məlumdur. Urmiya gölü hövzəsində subar (və ya hurri) mənşəli tanrılara da (Teşub, Şauşqa, Aştupinu, Zizanu və s.) sitayiş olunurdu.

E.ə. I minilliyin birinci yarısı Azərbaycanda hərbi demokratiya mərhələsinin sonu, Aşşur və Urartu dövlətlərinin işğalçı siyasəti fonunda yerli tayfaların mərkəzləşmiş Manna dövləti ətrafında konsolidasiyası, yeni sosial mühitin formalaşması və daha mütərəqqi ictimai münasibətlərin meydana gəlməsi kimi hadisələrlə əlamətdar olmuşdur. Urmiya gölü hövzəsi sakinləri təkcə öz tanrılarına yox (əfsus ki, onların çoxunun adları bizə

məlum deyil), Aşşur və Urartu tanrılarına da sitayiş edirdilər. Məsələn, hələ e.ə. XII əsrin ortalarında İzirtu şəhərində (sonralar Mannanın paytaxtı olmuşdur) şimşək tanrısı Adada ibadət mərkəzi fəaliyyət göstərirdi. Həsənli kəndindən tapılmış qızıl camın üzərindəki təsvirlərə əsasən Cənubi Urmiya hövzəsi sakinlərinin panteonuna triadanın (3 tanrının) başçılıq etdiyini söyləmək olar. Maraqlıdır ki, urartuluların panteonuna da triada (Haldi, Teşub, Şauşqa) səciyyəvi olmuşdur.

Mannanın siyasi yüksəlişi Urmiya hövzəsində etnik mənzərənin dəyişməsi ilə, bölgəyə irandilli toplumların gəlişi ilə üst-üstə düşmüşdür. Yeni gəlmələrin izlərini xüsusilə, Ziqirtu vilayətinin iranmənşəli toponimikasında aydın görmək olar. Mannanın Mada tayfa birliyi ilə sərhəd zolağında yerləşən bu vilayətdə iranmənşəli tanrıların yayıldığı inkar edilmir. E.ə. VII əsrin birinci yarısında Manna vilayətlərinin birində sak-skif etnik qrupunun məskunlaşdığı narrativ mənbələrlə təsdiq olunub. Deyilən vaxt Həsənlidə insanların atla birlikdə kütləvi dəfni də qeydə alınıb və bu adət sak-skif toplumu ilə əlaqələndirilir. İranmənşəli tanrılara sitayiş Urmiya gölü hövzəsinin e.ə. 615-ci ildə Mada dövlətinin, 65 ildən sonra Əhəməni-pars imperiyasının tərkibinə qatılması ilə öncə atəşpərəstliyin, mazdeizmin (xeyir allahı kultu), daha sonra Zərdüşti dini təlimləri yayılmağa başlayır. Sonuncu dini təlim tariximizin Atropatena və Parfiya siyasi təsiri dövründə daha yüksək səviyyəyə çatmışdır. Bu təlimə görə dünyada daima xeyirlə şər, işıqla zülmət arasında mübarizə gedir. Mübarizənin ictimai kökü mazdaizmin meydana çıxdığı dövrdən etibarən oturaq əkinçi icmalarla, köçəri maldarlıqla məşğul olan toplumlar arasında gedən mübarizədən ibarətdir. Mübarizənin təbii kökü soyuq-isti, qıtlıq-bolluq, gecə-gündüz, tufan-sakitlik, münbit-şoran və digər təbii ziddiyyətlərdə əksini tapdığından daha qlobal mahiyyət kəsb edirdi. Zərdüşti təliminə görə bu mübarizədə qələbəni təmin etmək üçün insan mərasim və dualarla deyil, maddi nemətlərin artırılması, torpağın becəril-

məsi, mal-qaraya qayğısı ilə yardım etməlidir.

Zərdüştün dini islahatı mahiyyət etibarı ilə təkallahlı rəsmi ideologiyanın başlanğıcı oldu və tədricən Azərbaycanın tarixi torpaqlarında hakim mövqe qazandı. Zərdüştilik və onunla bağlı olan dini-fəlsəfi sistemlər iudaizmə və erkən xristianlığa, eləcə də yunan fəlsəfi fikrinin formalaşmasına müəyyən təsir göstərmişdir. Sasanilərin hakimiyyət zamanı Adurbadaqan vilayəti ehkamçı Zərdüştiliyin mərkəzi kimi tanınırdı. Hökmdarların təntənəli tacqoyma mərasimləri Cənubi Azərbaycanda, Şiz şəhərində yerləşən Adurquşnasp məbədində keçirilirdi.

Ellinizm (və ya Hellinizm) dövründə (e.ə. 330-30) Atropatenada yunan mədəniyyətinin maddi elementləri və mənəvi dəyərləri özünü büruzə verməyə başlayır. Kerefto mağara kompleksi (Takab şəhərindən 20 km qərbdə) bu yeni mədəniyyətin, xüsusilə, yunan əsatir qəhrəmanı Herakla olan kultun mərkəzinə çevrilir.

Yeni eranın ortalarından Suriyadan gələn xristian missionerlərin (Foma, Varfolomey, Matfey, Yelisey) fəaliyyətilə Azərbaycanın tarixi torpaqlarında (ilk dəfə Çola və Uti vilayətlərində), ilk xristian icmaları yayılmağa başlayır. Yeni peyğəmbərin – İsa Məsihin müqəddəs kəlamlarının təbliği ilə başlayan yeni dini cərəyan onilliklərlə davam edən təqiblərdən (həvari mərhələsi) sonra 313-cü ildə Alban hökmdarı Urnayr tərəfindən rəsmi dövlət dini elan olunması ilə tamamlanır. Albaniyanın hakim elitası xristianlığın diofizit məzhəbini vahid ideologiya seçməklə həm Sasanilərin yaymağa çalışdığı zərdüştiliyə, həm də Albaniyada mövcud olan tanrıçılıq və bütpərəstliyə qarşı mübarizə aparmaq niyyətində idi. Yeni islahat Albaniyanın xristian dünyası ilə eyni iqtisadi və mədəni məkana inteqrasiya olunmasına zəmin yaratdı. Aparılan islahatlar nəticəsində ölkədə yeni ibadət ocaqları tikilir, əlifbanın təkmilləşdirilməsi hesabına mətnlər tərtib olunur, dini kitablar arami və yunan dillərindən alban dilinə tərcümə edilir, yazı mədəniyyətini yaymaq üçün ölkədə məktəblər şəbəkəsi açılır, əhalinin savadlanması istiqamətində

tədbirlər genişləndirilirdi. Lakin xristianlıq Azərbaycanın tarixi torpaqlarında eyni səviyyədə uğur qazana bilmədi. Yeddinci əsrdə İslamın zəfər yürüşü və monofizit erməni Qriqoryan kilsəsinin ideoloji basqıları Albaniyanın bir dövlət kimi varlığına son qoydu və onun torpaqlarında xristianlığın nüfuzdan düşməsinə səbəb oldu. Bununla belə xristianlığın müxtəlif təriqətləri Azərbaycanda bu günə kimi varlığını qoruyub saxlaya bilib.

Azərbaycan bu gün də öz taleyrantlığını, multikultural dəyərlərə sadiqıiyini nümayiş etdirməkdədir. Respublika əhalisinin əksəriyyətini müsəlmanlar təşkil etsə də, ümumi inkişafımızda, beynəlxalq aləmə inteqrasiya olunmağımızda azsaylı xalqların, müxtəlif konfessiyaların da payı var. Şəxsiyyət azadlığı Konstitusiyamızın maddələri ilə təsbit olunur. Respublikada yaranmış dayanıqlı siyasi sabitlik, iqtisadi yüksəliş paytaxt Bakımızda və bölgələrimizdə məscidlərin kilsələr və sinaqoqlarla qonşuluğu şəraitində, azan sədası ilə zəng səslərinin ahəngi ilə müşayiət olunur. Bizim xoşbəxtliyimiz də bundadır.

# Summary

**ALLAHVERDI ALIMIRZAYEV**

## ANCIENT AZERBAIJAN: ESSAYS ON THE HISTORY OF RELATIONSHIPS RELIGION AND SOCIETY

Religious ideas formed the basis of the ideology of all ancient societies. Religion was a decisive factor especially in the social life of communities formed through the consolidation of tribal associations. At the initial stage, religion served as an ideological weapon for maintaining social inequality and diversity. Man was entirely dependent on natural factors (sun, moon, day and night, wind, rain, drought, abundance of crops, etc.) that surrounded him and decided his fate; they were deified at the cult level. Regardless of place of residence or level of social stratification in religious views among the peoples and ethnic groups of the Ancient East, there were no serious differences. The human imagination created the ability to imagine various animate and inanimate objects.

Communities belonging to the same ethnocultural environment, living in the same territory, were united by the same gods. In societies where polytheism prevailed, one of the gods, for one reason or another, came to the fore and became the patron of the community. The unification of communities into a single political entity necessitated the creation of a single religious pantheon, myths and legends. All this was typical for the classical slaveholding societies of the East, such as Sumer, Egypt, Babylonia, Assyria, Elam, Mitanni, etc. It is clear from written sources that similar religious and ideological ideas were widespread in the societies of Azerbaijan of that period. This is noticeable in the trading colony of Aratta, created by the

Sumerians in the XXVIII century BC not far from the southern borders of Azerbaijan, in the vicinity of the area inhabited by Lullubeans. Members of Aratta's ruling elite worshiped Sumerian gods such as Inanna, Dumuzi and Lama. Undoubtedly, constant contact with neighboring civilizations and the establishment of connections in the cultural sphere influenced the enrichment of the religious ideas of our ancestors. Some researchers explain this factor with the appeals of Lullubean and Qutian leaders to gods of Sumerian and Akkadian origin. The leaders of the Qutians, who managed to subjugate the Sumerian cities to their power for almost half a century, really needed such gods as Adad, Shamash, Suen, Ishtar to confirm the legitimacy of their rule. After the overthrow of their rule in Southern Mesopotamia, the names of these gods in connection with the Kutians do not appear in the texts.

At the stage of military democracy (XXV-X centuries BC), the social life of Azerbaijan depended on the military power of the four leading ethnic groups - Lullubeans, Qutians, Turukkians and Kassites. In Akkadian and Assyrian texts, expressions such as "gods of the country of Qutium" and "25 gods of the country of Lullubum" are found. It can be assumed that the main deities in the pantheon of Lullubeans, Qutians and Kassites were known by their ethnic names. From the Qutian pantheon the name Abublab is known, and from the Kassite pantheon the names of 15 gods are known (Shumalia, Shukamuna, Harbe, Shipak, Shuriyash, Buriyash, Shugab, etc.). In the Urmia basin, Subarean and Hurrian deities were also worshiped, such as Teshub, Shaushga, Ashtupinu, Zizanu and others.

The beginning of the I millennium BC, during the period of strengthening the occupation policy of the Assyrian and Urartian states, was marked by the completion of the stage of military democracy in Azerbaijan and the consolidation of local tribes around the centralized state of Manna. This was the period

of formation of a new social environment and the emergence of more progressive social relations. The inhabitants of the Urmia basin worshiped not only their gods (unfortunately, the names of many are unknown to us), but also the gods of Assyria and Urartu. For example, back in the middle of the XII century BC in the city of Izirtu, which later became the capital of the Mannaean kingdom, there was a center for the worship of the lightning god Adad. Judging by the images on a golden vessel found in the village of Hasanlu (50 km south of Lake Urmia), we can say that the pantheon of inhabitants of the basin of the southern part of the Urmia basin was headed by a triad. It is interesting that the triad (Haldi, Teshub, Shaushga) was also characteristic of the Urartian pantheon.

The political rise of Manna coincided with a change in the ethnic landscape in the Urmia basin, namely, with the arrival of Iranian-speaking tribes in the region. Their traces are especially clearly visible in the toponymy of Iranian origin in the Zikirtu region, located on the border of Manna with the Median tribal union. According to historical texts in the first half of the VII century BC. in one of the Mannean provinces there is a strengthening of the Saka-Scythian military group. In Hasanlu, a mass burial of people with horses, inherent in the Saka-Scythian society, was discovered. With the inclusion of the Mannaean kingdom into the Median state (615 BC), the worship of deities of Iranian origin intensified in the Urmia basin. 65 years later, with the fall of Media, the lands of Southern Azerbaijan were included in the Achaemenid-Persian Empire. At the same time, the religious teachings of fire worship, Mazdaism, and then Zoroastrianism began to spread widely. The latter religious teaching reached a higher level during the heyday of Atropatene and Parthian political influence. According to this teaching, there is always a struggle in the world between good and evil, light and darkness. The social root of the struggle is the struggle between settled agricultural communities and nomadic pastoral

tribes. According to Zoroastrian teaching, in order to ensure victory in this struggle, a person must help not only with rituals and prayers, but also by increasing material wealth, cultivating the land, and caring for livestock.

The religious reform of Zoroaster, in fact, laid the foundation for the official monotheistic ideology and gradually gained a dominant position in the historical lands of Azerbaijan. Zoroastrianism and related religious and philosophical systems had a certain influence on Judaism and early Christianity, as well as on the formation of Greek philosophical thought. During Sasanian rule, the province of Adurbadagan was known as the center of dogmatic Zoroastrianism. The coronation ceremonies of the rulers took place in the Adurgushnasp temple, located in the city of Shiz.

During the Hellenistic period (330-30 BC), material and spiritual elements of Greek culture began to appear in Atropatena. The cave complex of Kerefto (20 km west of Takab) becomes the center of this new culture, especially the cult of the Greek warrior hero Hercules.

From the middle of the new era, the first Christian missionaries of Palestine and Syria (Foma, Bartholomey, Matfey, Elisha) began to spread in the historical lands of Azerbaijan (for the first time in the provinces of Chola and Uti). The new religious movement, which began with the preaching of the holy words of the new prophet - Jesus Christ, after decades of persecution (apostolic phase) ended under the Albanian king Urnair (313 year) with the proclamation of his official state religion. By choosing the Dyophysite sect of Christianity as a unified ideology, the ruling elite of Albania intended to fight Sasanian Zoroastrianism, as well as Tengrism and idolatry. The new reform laid the foundation for the integration of Albania into the economic and cultural space of the Christian world. As a result of the reforms, new religious buildings were built in the country, religious books were

translated into Albanian through the local alphabet, a network of schools appeared in the country, and measures to educate the population were intensified. However, in the historical lands of Azerbaijan, Christianity could not achieve the expected success. In the VII century, the triumphal march of Islam and the ideological repression of the Monophysite Armenian-Gregorian Church put an end to the existence of Albania as a state and caused the discredit of Christianity in its lands. However, various sects of Christianity have managed to maintain their presence in Azerbaijan to this day.

Azerbaijan continues to demonstrate tolerance and commitment to multicultural values. Although the majority of the population of the republic professes Islam, minorities and various faiths also play their role in our overall development and integration into the international community. Individual freedom is enshrined in the articles of our Constitution. The sustainable political stability and economic growth that have emerged in the republic are accompanied by the harmony of the call to prayer and the ringing of bells in mosques, churches and synagogues both in our capital Baku and in our regions. This is our happiness.

# Резюме

АЛЛАХВЕРДИ АЛИМИРЗОЕВ

## ДРЕВНИЙ АЗЕРБАЙДЖАН: ОЧЕРКИ ПО ИСТОРИИ ВЗАИМООТНОШЕНИЙ РЕЛИГИИ И ОБЪЩЕСТВА

Религиозные идеи составляли основу идеологии всех древних обществ. Религия была решающим фактором особенно в социальной жизни сообществ, сформированных путем консолидации племенных объединений. На начальном этапе религия служила идеологическим оружием сохранения социального неравенства и разнообразия. Человек всецело зависел от природных факторов (солнца, луна, день и ночь, ветер, дождь, засуха, урожайность и т. д), которые его окружали и решали его судьбу; они были обожествлены на культовом уровне. Независимо от места проживания, уровня социального расслоения в религиозных воззрениях у народов и этносов Древнего Востока не было серьезных различий. Воображение человека создавал возможности представлять себе разные одушевленные и неодушевленные предметы.

Сообщества, принадлежащие к одной этнокультурной среде, проживающие на одной территории, были объединены одними и теми же богами. В обществах, где преобладал многобожие, один из богов по тем или иным причинам выходил на первый план и становился покровителем общины. Объединение общин в единое политическое образование вызвало необходимость создания единого религиозного пантеона, мифов и легенд. Все это было характерно для классических рабовладельческих обществ Востока, таких как Шумер, Египет, Вавилония, Ассирия, Элам, Митанни и др. Из письменных источников

видно, что подобные религиозно-идеологические идеи были распространены в обществах Азербайджана того периода. Это заметно по торговой колонии Аратта, созданной шумерами в XXVIII в. до н.э. недалеко от южных границ Азербайджана, по соседству с населенной луллубеями местностью. Представители правящей элиты Аратты поклонялись шумерским богам, таким как Инанна, Думузи и Лама. Несомненно, постоянный контакт с соседними цивилизациями и установление связей в культурной сфере повлияли на обогащение религиозных представлений наших предков. Некоторые исследователи объясняют этот фактор с обращениями луллубейских и кутийских лидеров к богам шумерского и аккадского происхождения. Лидеры кутиев, сумевшие почти на полвека подчинить своей власти шумерские города, для подтверждения легитимности своего правления очень нуждались в таких богах, как Адад, Шамаш, Суен, Иштар. После свержения их господства в Южной Месопотамии имена этих богов в связи с кутиями не фигурируют в текстах.

На этапе военной демократии (XXV-X вв. до н.э.) общественная жизнь Азербайджана зависела от военной мощи четырех ведущих этносов – луллубеев, кутиев, туруккийцев и касситов. В аккадских и ассирийских текстах встречаются такие выражения, как «боги страны Кутиум» и «25 богов страны Луллубум». Можно предположить, что главные божества в пантеоне луллубеев, кутиев и касситов были известны под их этническими именами. Из пантеона кутиев известно имя Абублаб, а из пантеона касситов известны имена 15 богов (Шумалия, Шукамуна, Харбе, Шипак, Шурияш, Бурияш, Шугаб и др.). В Приурмийской зоне поклонялись также субарейским и хурритским божествам, таким как Тешуб, Шаушга, Аштупину, Зизану и др.

Начало I тыс. до н.э., в период усиления оккупационной политики Ассирийского и Урартского государств,

ознаменовалось завершением в Азербайджане этапа военной демократии и консолидацией местных племен вокруг централизованного государства Манна. Это было период образования новой социальной среды и возникновения более прогрессивных общественных отношений. Жители бассейна озера Урмия поклонялись не только своим богам (к сожалению, имена многих нам неизвестны), но и богам Ассирии и Урарту. Например, еще в середине XII в. в до н. э. в городе Изирту, ставшим впоследствии столицей Маннейского царства, существовал центр поклонения богу молнии Ададу. По изображениям на золотом сосуде, найденном в селе Хасанлу (в 50 км южнее озеро Урмия), можно сказать, что пантеон жителей бассейна южной части Приурмийской зоны возглавляла триада. Интересно, что триада (Халди, Тешуб, Шаушга) была характерна и для пантеона урартов.

Политический подъем Манны совпал с изменением этнического ландшафта в Приурмийской зоне, а именно, с приходом в регион ираноязычных племён. Их следы особенно отчетливо просматриваются, в топонимике иранского происхождения области Зикирту, расположенной на границе Манны с мидийским племенным союзом. По сведениям исторических текстов в первой половине VII в. до н.э. в одной из маннских провинций наблюдается усиление сакско-скифской военной группировки. В Хасанлу было обнаружено массовое захоронение людей с лошадьми, присуший сакско-скифским обществом. С включением Маннейского царства в состав Мидийской державы (615 г. до н.э.) в Приурмийской зоне усилилось поклонение божествам иранского происхождения. Спустя 65 лет с падением Мидии земли Южного Азербайджана были включены в состав Ахеменидо-персидской империи. Тогда же стали широко распространяться религиозные учения огнепоклонства, маздеизма, а затем и зороастризма.

Последнее религиозное учение достигло более высокого уровня во времена расцвета Атропатены и парфянского политического влияния. Согласно этому учению, в мире всегда идет борьба между добром и злом, светом и тьмой. Социальный корень борьбы состоит в борьбе между оседлыми земледельческими общинами и кочевыми скотоводческими племенами. Согласно зороастрийскому учению, чтобы обеспечить победу в этой борьбе, человек должен помогать не только обрядами и молитвами, но и увеличением материальных благ, возделыванием земли, уходом за скотом.

Религиозная реформа Зороастра, по сути, положила начало официальной монотеистической идеологии и постепенно завоевала доминирующее положение на исторических землях Азербайджана. Зороастризм и родственные ему религиозно-философские системы оказали определенное влияние на иудаизм и раннее христианство, а также на формирование греческой философской мысли. Во времена правления Сасанидов провинция Адурбадаган была известна как центр догматического зороастризма. Торжественные церемонии коронации правителей прошли в храме Адургушнасп, расположенном в городе Шиз.

В эллинистический период (330-30 гг. до н.э.) в Атропатене стали проявляться материальные и духовные элементы греческой культуры. Пещерный комплекс Керефто (20 км к западу от Такаба) становится центром этой новой культуры, особенно культа греческого героя-воина Геракла.

С середины новой эры первые христианские миссионеры Палестины и Сирии (Фома, Варфоломей, Матфей, Елисей) начали распространяться на исторических землях Азербайджана (впервые в провинциях Чола и Ути). Новое религиозное течение, начавшееся с проповеди святых слов нового пророка – Иисуса Христа, после десятилетий гонений (апостольская фаза) завершилось при албанском

царе Урнайре (313 г.) провозглашением его официальной государственной религией. Избрав диофизитскую секту христианства в качестве единой идеологии, правящая элита Албании намеревалась бороться с зороастризмом сасанидов, а также с тенгрианством и идолопоклонством. Новая реформа заложила основу для интеграции Албании в экономическое и культурное пространство христианского мира. В результате реформ в стране были построены новые культовые сооружения, посредством местного алфавита были переведены религиозные книги на албанский язык, в стране появилась сеть школ, усилились меры по просвещению населения. Однако на исторических землях Азербайджана христианство не смогло достичь ожидаемого успеха. В VII веке триумфальное шествие ислама и идеологические репрессии монофизитской армяно-григорианской церкви положили конец существованию Албании как государства и вызвали дискредитацию христианства на ее землях. Однако различным сектам христианства по сей день удалось сохранить свое присутствие в Азербайджане.

Азербайджан продолжает демонстрировать толерантность и приверженность мультикультурным ценностям. Хотя большинство населения республики исповедует ислам, меньшинства и различные конфессии также играют свою роль в нашем общем развитии и интеграции в международное сообщество. Свобода личности закреплена в статьях нашей Конституции. Устойчивая политическая стабильность и экономический рост, наметившиеся в республике, сопровождаются гармонией призыва к молитве и звона колоколов, звучащих в мечетях, церквях и синагогах как в нашей столице Баку, так и в наших регионах. В этом наше счастье.

## MÜNDƏRİCAT

ÖN SÖZ ..........................................................................3

**I FƏSİL**
AZƏRBAYCANIN QƏDİM ETNOSLARININ
DİNİ İNANCLARI *(Politeizm dövrü*) .............................9

**II FƏSİL**
ATROPATENADA DİNİ İNANCLAR. SƏMAVİ
DİNLƏRƏ KEÇİD
2.1. Atropatenada Zərdüştiliyin tarixindən......................59
2.2. Hellinizm mərhələsinin (e.ə. 330-30) dini
inancları ..................................................................65
2.3. Atropatenada dəfn adətləri .......................................68
2.4. Atropatenada xristianlığın tarixindən .......................71

**III FƏSİL**
ALBANİYADA DİNİ İNANCLAR.
BÜTPƏRƏSTLİKDƏN SƏMAVİ DİNƏ
3.1. Antik dövrdə Albaniyada bütpərəstlik........................75
3.2. Xristianlığın həvari mərhələsi.....................................79
3.3. Albaniyada xristianlığın dövlət dini
statusu qazanması. ......................................................87
3.4. Alban kilsəsi ideoloji mərkəz kimi.
Kanonlar və missionerlik fəaliyyəti. ..........................100
3.5. Albaniyada yazı və dil məsəlləri. ................................107
3.6. Alban hökmdarlarının və xristian kilsəsinin
kənar siyasi və ideoloji təsirlərə qarşı mübarizəsi........ 115

**NƏTİCƏ** .........................................................................126

**Summary.** ALLAHVERDI ALIMIRZAYEV. ANCIENT AZERBAIJAN: *ESSAYS ON THE HISTORY OF RELATIONSHIPS RELIGION AND SOCIETY*)................131

**Резюме**. АЛЛАХВЕРДИ АЛИМИРЗОЕВ. ДРЕВНИЙ АЗЕРБАЙДЖАН: *ОЧЕРКИ ПО ИСТОРИИ ВЗАИМООТНОШЕНИЙ РЕЛИГИИ И ОБЪЩЕСТВА* ..................................................................136

**ALLAHVERDİ NÜSİ OĞLU ƏLİMİRZƏYEV**

# QƏDİM AZƏRBAYCAN:

## *DİN-CƏMİYYƏT MÜNASİBƏTLƏRİ TARİXİNƏ DAİR OÇERKLƏR*

Format: 60*84 $^{1}/_{16}$. Tiraj: 100.
Kompüter dizaynı: **Esmira Kərimova.**
Bədii tərtibat: **Rəvanə Mirzalıyeva.**